**Rövşən Yerfi**

# QADIN DÜŞƏRGƏSİ

#

Kişilər üçün kitab – nəsrimizdə
qadın cəza evindən bəhs edən ilk əsər.

**Bak-2010**

Rövşən Yerfi. QADIN DÜŞƏRGƏSİ (povest)
Bakı, Kitab Klubu, 2010, 160 s.

Kitabda qadın islah-əmək düşərgəsinə düşmüş qadınların taleyindən, düşərgələrdəki həyat tərzindən, ən əsası isə qadınları belə yerlərə düşməyə gətirən səbəblərdən bəhs edilir. Povestin bu mövzuda yazılmış digər əsərlərdən böyük bir fərqi də onların xidmət əməkdaşı tərəfindən qələmə alınmasıdır.

**© Rövşən Yerfi**
**© Kitab Klubu**

## MÜƏLLİF HAQQINDA

Rövşən Yerfi (Rövşən Həsənli Həsənbaba oğlu) 1965-ci ilin aprelin 20-də Quba rayonunun Yerfi kəndində anadan olmuşdur.

1986-1992-ci illərdə Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsində ali təhsil almışdır, eyni zamanda, 1989-cu ildə, ictimai müxbir kursunu bitirmişdir. 1991-1995-ci illərdə Səhiyyə Nazirliyinin orqanı olan "Şəfqət" qəzetində (indiki "Tibb qəzeti") ilk məsul katib işləmişdir. Həmin dövrdə həm də bir il (1993-94), "Millət" qəzetində məsul katib müavini olmuşdur. 1995-ci ildən xüsusi rütbəli dövlət qulluqçusudur.

1988-ci ildən respublika qəzetlərində ("Bakı", "Azərbaycan gəncləri", "Azərbaycan", "Mədəniyyət", "Bakının səsi" və s.) məqalələri çap olunub.

Fəal ədəbi fəaliyyətə 1987-ci ildə yazdığı "May çiçəyi" hekayəsi ilə başlamışdır. Mətbuatda ilk hekayəsi 1989-cu ildə dərc olunub. Həmin il "Debüt-89" respublika ədəbi yaradıcılıq müsabiqəsinin nəsr üzrə qalibi olub. 1993-cü ildə Azərbaycan Jurnalistlər Birliyinə üzv qəbul edilib. 2004-cü ildə "Üzdəniraq ada" adlı ilk kitabı işıq üzü görüb. 2008-ci ildə "Qadın düşərgəsi" povesti "Kitab Klubu"nun həyata keçirdiyi "Sınaq nüsxəsi" layihəsində bəyənilmişdir.

2009-cu ildə "Residivist" adlı kitabı çap edilmişdir. Bundan əlavə əsərləri müxtəlif qəzetlərdə ("Günaydın", "Şəfəq", "168 saat" və s.), "Azərbaycan", "Ulduz", "Mars", "Aran", "Eko-inter" jurnallarında, üzvü olduğu "Dirili Qurbani" ədəbi məclisinin dörd almanaxında nəşr olunmuşdur.

## MÜƏLLİFDƏN

İstəkli oxucum! "Qadın düşərgəsi" mənim qadın cəza evindən bəhs edən ilk əsərimdir. Etiraf edirəm ki, xırdalamaq istəmədiyim müəyyən səbəblər üzündən bu əsərdə haqqında danışılan zindan həyatının dərinliklərinə lazımi qədər vara bilməmişəm. Lakin, ümidimi itirmirəm. Allah nəsib edərsə ürəyimdə qalanları oxuduğunuz povestin davamı kimi böyük məmnuniyyətlə Sizlərə çatdırmaq arzusundayam.

Bu kitab qadınlara həsr olunsa da əslində onu kişilər üçün yazmışam. Kitabda hər iki əsərin – "Qadın düşərgəsi"nin və "Sel"in başlıca aparıcı xətti qadın tənhalığıdır. Demək istədiyim budur ki, mənim fikrimcə qadın tənha, kimsəsiz, özbaşına olmamalıdır. Qadının mütləq, həmdərdi olan kişi istəklisi, ona qədər də, azından arxa olan, qardaşı və atası olmalıdır. Onlar olmadıqda, yaxud da dəyərsiz və ya ləyaqətsiz olanda o, gec-tez bədbəxtliyə yuvarlanır. Bədbəxtliyin sonu isə bəzi hallarda faciəyə gətirib çıxarır. Elə buna görə də hər iki əsər faciə ilə bitir. Əlbəttə, hesab edirəm ki, qadınların belə ağır, çətin vəziyyətlərə düşməsi təkcə öz günahlarının deyil, eyni zamanda onlarla bir mühitdə yaşayan kişilərdəki çatışmazlıqların, qüsurların nəticəsidir.

Sonda üzümü bir daha kişi oxucularıma tuturam: Gəlin gələcəyimizi düşünək, qadınlarımızın, vətənimizin, özümüzün qədrini bilək. Unutmayaq ki, dünyanın heç bir qadını bizim üçün Azərbaycan qadınının yerini verə bilməz.

***

# QADIN DÜŞƏRGƏSİ

- Ehey, təzə gələn, nə dayanmısan orda? Keç gir baraka, yat.

Həyətin yuxarı başındakı barakları gəzib qayıdan iki nəzarətçidən yaşlısı qalın kişi səsi ilə ona tərəf çığırdı. O, fikirdən ayrılıb nəzarətçilərə tərəf döndü. Əvvəl onlardan icazə almağı xahiş etmək istədisə də, sonra ona tərəf gələn nəzarətçilərin qaşqabaqlı baxışlarını görəndə fikrindən daşınıb söykəndiyi məhəccərdən aralandı. Dönüb asta yerişlə baraka gedərkən yaxınlaşan bəstəboy, dolubədənli nəzarətçinin qəfil sualından addımlarını saxladı:

- Sənin adın nə oldu?

- Zinyət.

-Yatmaq vaxtının sənə aidiyyatı yoxdur? Gərək hər birinizə ayrıca deyək?

- Ürəyim sıxıldı, bir az hava almaq istədim.

Yaşlı nəzarətçinin arxasınca gələn nisbətən arıq, ucaboylusu onu diqqətlə süzüb, həmkarını kənara çəkərək pıçıldadı:

- Dəymə, görmürsən vəziyyətini? "Bəxtəvər", özü azmış, qarnında da gətirib...

Bu gecə Zinyətin qadın kaloniyasında ilk gecəsiydi. Onu komvoy maşınında axşamtərəfi gətirmişdilər. Kalona çatdırmağa tələsirlərmiş kimi, məhkəmənin hökmü qanuni qüvvəyə mindiyi gün istintaq təcridxanasından çıxarılıb, birbaşa islah əmək müəssisəsinə göndərilmişdi. Onun tələm-tələsik həbs yerinə göndərilməsi, Kamranın keçmişdə ucqar rayonların birində prokuror işləmiş qaynatasının xidməti idi.

Kamranın xəstəxanada keçindiyi günün səhəri cinayət işi açılıb, qardaşının ölümündə o, təqsirli bilinmişdi. Hamilə olduğunu nəzərə alaraq məhkəmənin hökmü elan olunanadək

həbs edilməyib, anasının zaminliyinə buraxılıb azadlıqda saxlanmışdı. Ziniyət körpəsi dünyaya gələnədək güzəşt ediləcəyinə, həbs olunmasının təxirə salınacağına güman edirdi. Amma, Kamranın qaynatasının ona və gələcək körpəsinə göstərdiyi "canfəşanlığın", məhkəməyə etdiyi təzyiqin nəticəsində cinayət işi bir ay ərzində tamamlanıb həbsə alınmasına dair qərar çıxardılmışdı. Məhkəmə iclasından həbs edilən Zinyət hökmün qanuni qüvvəyə mindiyi gün - Kamranın qırxı çıxan günü ləngidilmədən kalona çatdırılmışdı.

Ailədə çətin vəziyyət yaranmışdı: ölən də, ölümdə təqsirləndirilən də eyni ananın balaları idi. Ana yazıq başını itirmişdi. Bilmirdi hansını günahlandırsın, hansının dərdini çəksin. Sanki, evinə, ailəsini dağıdan, gözəgörünməz kabus, cin girmişdi. Bacı ilə qardaşı bir-birinə düşmən kəsib hər ikisini bədbəxt edən bu kabus kim idi? Əzizmi?

Hər şey Əziz türmədən qayıdandan sonra başlandı. O vaxta qədər fırtına qopmamışdı, həyat öz axarı ilə gedirdi. Zinyətin Əzizlə gizlin sevgi macərası Əziz həbs edildikdən az sonra unudulmuşdu. Xəstə atasının təhriki ilə könlü olmadan bibisi oğluna ərə verilən Zinyətin pis-yaxşı ev-eşiyi, ailəsi, iki balası vardı. Kamran isə uzaq məhəllədə yaşasa da, atası rəhmətə gedəndən bəri tez-tez anasına baş çəkir və mehribanlıq şəraitində yaşayırdılar. Belə davam etsəydi, dünya dağılmayacaqdı ki...

Əzizin türmədən qayıtması xəbərini ailədə hamı adi, sakit qarşılamışdı. Narahatçılığa əsas görünmürdü. Artıq qatar keçmişdi, Əziz də gecikmişdi. Gedən qatarı isə qaytarmağı kimsə mümkün hesab etmirdi. Ancaq, həyat çoxlarının düşündüyü qədər sadə olsaydı, ömrün qəribəlikləri adiləşərdi. İnsanlar öz talelərini istədikləri qaydada qurardılar.

Zinyət həyatını əvvəldən özü bildiyi kimi qursaydı, qazancı heç də acı xatirələr, göz yaşları olmazdı. Bacarmadı. Ailənin təkidinə qarşı dura bilmədi. Atasının ürək xəstəsi olması, ömrünün azalması, sağlığında qızını gəlin paltarında görmək arzusu, anasının gah yalvarış, gah da təhdid dolu hədəsi onu sarsıtdı, öz sevgisini kənara qoyub, valideynlərinin istəyinə tabe olmağa məcbur etdi. Nə vaxtsa xeyir-duasız ailə qurub

bədbəxt olacağından qorxdu. Lakin, xoşbəxt də olmadı. Ömrünün sonuna qədər xoşbəxtliklə bədbəxtliyin arasında gün keçirməyə də dözmədi...

Əzizin ölümlə nəticələnən yol qəzası törətdiyinə görə aldığı cəzasını qurtarıb azadlığa buraxılması xəbərini eşitcək özündən asılı olmayaraq sevincindən ürəyi sıxıldı, içində xoş bir duyğu yarandı. O duyğu neçə vaxtdır yatmış sevgisinin hisslərini oyatdı. Əzizi görmək könlündən keçsə belə, əvvəlcə ürək etməməsi, sonra isə avtobus dayanacağında gözlənilmədən təsadüfi görüşü sanki, bütöv donmuş varlığını yenidən dirçəltdi. Daxilində yeni həyat eşqini, sevib-sevilmək həvəsini hiss etdi. Bu yaşadək ata-anasının, bu yaşdan sonra da uşaqlarının - iki qızının xatirinə özünü və hamını aldada, müqəvva kimi yaşamaqdan usandı. Belə yaşamaq, özü üçün verilən ömrünü başqalarına qurban etməyə razılaşmadı. Taleyinin buraxdığı səhvi düzəltməyə çalışdı. Ailədə bütün həngamələr də məhz bu məsələnin əmələ gəlməsi ilə başladı. Anası Əzizlə görüşdüyünü biləndə haray salıb hədələmişdi:

- Ağlını itirmisən deyəsən, qulağıma çatan nə söhbətdi? Heç utanırsan? Ayıb deyil? Ərin, uşağın, sənin belə hərəkətin harana yaraşır? Eşidən, bilən nə deyər? Məhəllədə, camaat arasında başımızı yerə soxmaq istəyirsən? Yaxşısı budu dinc otur. Vaxtı ilə aranızda nə olub, olub keçib, qurtarıb. Daha o ayrı adamdı, sən ayrı. Vallahi, Kamran bilsə ki, yenə Əzizlə görüşürsən, səni bağışlamayacaq. O gədəni isə təzədən türməyə saldıracaq. Bax ha, uzatmayın, qurtarın bu söz-söhbəti. Yox, əgər günah gədədədirsə, ata-anasına deyim, zibillərinə yiyə dursunlar.

- Ay ana, səninki qarğa məndə qoz var, məsəlidi. Aləmi bir-birinə qatma, heç kəsə də heç nə demək lazım deyil. Əzizin günahı yoxdur, onu görüşə mən çağırıram. Kiminsə bilib-bilməməsi də mənə sərf deyil. Hərənin öz həyatı var, özlərinə yiyəlik etsinlər, başqasına yox. Kamran da o cümlədən.

- Qız, sən qan-qan deyirsən. Ağzının dediyini qulağın eşitmir? Bəs Araz? Araza nə deyəcəksən?

- Araza sözümü çoxdan demişəm. Xoşu gəlmir gəlməsin, onsuz da boşanacağam.

- Ay Allah, bu qız dəli olub, vaxsey, evimiz dağılacaq...

O gecə Zinyətin evdən gizlin Əzizə qoşulub qaçarkən Arazın başılovlu zəng edib Zinyətin yox olmasını deyəndə, qardaşı Kamranı heyrət bürümüşsə də, anası ürəyinə daman şübhədən dilini dişləyib dözməyi, sabahı gözləməyi məsləhət bilmişdi. Anasının məsləhətinə əsasən Kamran da Araza hələlik polisə-filana müracit etməməyi, səsə salmamağı tapşırmışdı. Səhəri günü Zinyət zəng edərək, evdən çıxıb Əzizə qoşulduğunu bildirəndə anası hirsindən az qaldı partlasın. Gümanı düz çıxmışdı, bu qız dəli idi.

Zinyətin susub telefonu qapaması ona təhqir qədər ağır gəlmişdi. O, qızını tanıya bilmirdi. Heç vaxt bir sözünü iki etməyən qızı elə dəyişmişdi ki, sanki, şeytan ağlını almışdı. Bu şeytan olsa-olsa Əziz idi. Neçə vaxtdı qızını heç cürə başa sala bilmirdi. Bir çarəsi qalmışdı: qızın qəlbinə girmiş şeytanı – Əzizi – hansısa yolla kənarlaşdırmaq! Hətta mümkün qədər tez, hamı xəbər tutanadək. Təcili özünü Kamrana çatdırdı. Zənnində yanılmamışdı. Kamran Zinyətin Əzizə qoşulub qaçdığını eşidəndə inanmadı. Oturduğu yerdə əlləri ilə başını tutdu. Rəngi qaraldı. Uzun-uzadı anasına qulaq asıb dinmədi. Ayağa durub otaqda bir qədər var-gəl etdi. Düşündüklərini götür-qoy edəndən sonra dedi:

- Eybi yox, gözləyək bir az. Hamıya deyərik ki, xaricə gedib. Mən onların dərsini verərəm.

Bir ay keçmişdi. Zinyət ona yalvarış dolu zəng etmişdi. Atası rəhmətə gedərkən bankda saxladığı pulun bir hissəsini gələcəkdə Zinyətə verilməsini vəsiyyət etmişdi. Ancaq, bu vəsiyyəti qanuniləşdirən heç bir sənəd yox idi. Neçə illərdi o pul Zinyətin yadına düşmürdü. İndi quyruğu qapı arasında qalmış kimi yalvarır, vəsiyyəti xatırladıb puldan umurdu.

Kamran ürəyində qəzəblənmişdi: insanda üzə bax, etdiyi hərəkət azmış, hələ pul, kömək istəyir! Özün bir yana, bütün ailəni biabır etdiyindən ölüb yerə girmir, utanmaz-utanmaz zəng edib pul almaq istəyir. Görərsən pul. O pulu atan

ailənə, balana xərcləmək üçün vəsiyyət etmişdi, daha kiməsə qoşulub qaçıb, gorunu söydürənə verməyə yox... Bəs kişi bilib qoşulub qaçdığın arvadının dolanışıq üçün pul ummasını özünə necə yaraşdırırdı?

Telefonda dözməmişdi:

- Arvad qaçıran əclaf bilmirdi necə saxlayacaq?

- Kamran, bəsdir... Sənə mən zəng etmişəm. Mən istəyirəm, o yox...

Bir ay idi ki, onların yerini bilmirdi. Pulu vermirəm deyib, etiraz etmək, daha da özündən uzaqlaşdırmaq, fürsəti əldən vermək olmazdı. Onları dənə gələn göyərçin kimi tutmalıydı. Bunu tələsik edə bilməzdi. Düşünüb-daşınmaq üçün isə hələlik vaxt lazım idi:

- Bir həftə sonra zəng edərsən, – deyib, cavabı gözləmədən əlaqəni kəsmişdi.

Kamran neçə illərdi şəhərə yaxın rayonların birində prokuror köməkçisi işləyirdi. Uzun illərin təcrübəsi polis və məhkəmə işçiləri ilə daimi ünsiyyəti onu həyatın gərgin anlarında düşdüyü çətin vəziyyətdən baş çıxarmağa, tədbirli olmağa vadar etmişdi. Odur ki, iki-üç günə o, hazırladığı planın həyata keçməsi üçün kimlərdən necə istifadə edəcəyini müəyyənləşdirdi. İstintaq prosesinin lazımi cəhətlərini gözəl bilən Kamran əvvəlcədən polis şöbəsindəki dostları ilə söhbətləşdi.

Həftənin tamamında Zinyət ona zəng edərkən telefon söhbətini lentə yazan Kamran işinin çoxluğundan gileylənib daha üç gün sonra zəng etməyi tapşırdı. Tələskənliklə iş aşmazdı. Gələcək üçün ona lazım olacaq hər bir dəlil, bəhanə öz yerini tutmalı idi.

Üç gün də keçdi. Dördüncü gün Zinyət zəng vurdu. Kamran qeyzli səslə hələlik pulun bir hissəsini götürdüyünü, onunla görüşmək istəməməsini, birisi gün saat üçdə, şəhərə gedən yolda, polis postunun yaxınlığında Əzizi gözləyəcəyini bildirib, telefonun dəstəyini asdı.

Birisi gün danışılan yerdə əvvəldən razılaşdığı müstəntiq Zalıyevin əməliyyat qrupu yolun kənarında maşında əyləşib Kamranın işarəsini gözləyirdilər.

Əziz vaxtında gəlmişdi. Onun qara «Mersedes»ini görən Kamran ürəyində söymüşdü: ««Mersedes»i olan köpəkoğlu arvad sözünə qulaq asıb, pul dalınca gələr?» Gəlməməsini tapşırsa da Zinyətin Əzizə qoşulub gəlməsindən ehtiyatlanırdı. Bu halda Əziz üçün qurduğu plan baş tutmaya bilərdi.

Xoşbəxtlikdən Zinyət gəlməmişdi. Kamran rahat nəfəs aldı. Yəqin ki, ona sadəlöhvlüklə inanmış, şübhələnməyə öz aləmində əsas tapmamışdı.

Oturduğu yerdən – ağ «Volqa»dan düşməyə ərindi – sürücüyə Əzizi maşına çağırmağı tapşırdı. Sürücü əvvəl siqnalla, sonra əl ilə Əzizi çağırdı. Əziz yaxınlaşanda Kamran görüşmədən onu maşınına dəvət etdi:

- Keç içəri, arxaya!

Ardınca cibindəki səsyazan qurğunu işə saldı. Ona istintaq zamanı Əzizi təqsirləndirmək üçün hazırladığı sualların cavabını almaq lazım idi. İki-üç sualdan sonra Əzizin Zinyətin adını çəkməsi Kamranın əsəblərini daraltdı. Söhbəti uzatmayıb, götürdüyü pul bükülüsünü ona uzatdı. Əziz maşından aralanmışdı ki, Kamran yolun kənarındakı mavi «Jiquli»də əyləşən müstəntiq Zalıyevin əməliyyat qrupuna şərtləşdikləri işarəni verib Əzizi onların ixtiyarına buraxmaqla üzü şəhərə tərəf uzaqlaşdı.

O, şəhərə çatan kimi Əzizin günahkar şəklində tanınması üçün tanışlarının köməyi ilə ailəsinə və öz anasına belə xəbər çatdırdı ki, guya Əziz pul almaq məqsədiylə Zinyəti qaçırdıb rayonda gizlədib. Tələb etdiyi pulu alarkən polis tərəfindən yaxalanıb. Məsələnin dərininə varmasan ilk baxışda inandırıcı görsənirdi.

İbtidai istintaq zamanı Əziz çapalayıb özünümüdafiəyə cəhd etsə də, onun Zinyətə olan sevgisindən istifadə edən müstəntiq vəziyyəti gərginləşdirərsə, Zinyətin də məsuliyyətə alınacağı ilə qorxudub, köpünü almışdı. «Günahkar» ittihamını boynuna götürməyə razılıq vermişdi. Kamranın uydurduğu əhvalat Əzizin tanışları və qohumları arasında uğurla yayılıb, onu hörmətsiz etmişdi. Əzizlə maraqlanan, müdafiə etmək istəyən kimsə yox idi. Hər şey Kamranın düşündüyündən də

gözəl alınmışdı, Əziz barəsində istəyinə çatmışdı. Amma, o, Əzizə görə doğma bacısının açıqdan-açığa düşməninə çevriləcəyini düşünməmişdi. Bir müddət sonra acığının soyuyacağını, tutduğu yoldan çəkilib, ailəsinə, uşaqlarının yanına qayıdacağını güman edirdi, əfsus ki, elə olmadı.

Əzizin həbs edildiyini bilən gündən Ziynət ona düşmən kəsildi. Hər dəfə rastlaşanda söyüb acılayır, təhqir edir, intiqamını alacağı ilə hədələyirdi. Ziynət heç vəchlə çıxdığı evə, uşaqlarının yanına qayıtmağa razı olmadı. O, heç kimi – nə anasını, nə qardaşını eşitmək belə istəmir, həyatının davamını, xoşbəxtliyini yalnız Əzizlə görürdü. Onun nəzərində səadətinə mane olan, əlindən alan, bədbəxtliyə sürüyən isə bədniyyət qardaşı Kamran idi. Günlər ötdükcə sakitləşmək əvəzinə Əzizsiz qalmasını özünə dərd edən Ziynətin qardaşına olan nifrəti günü-gündən artırdı.

Bacısının aşıb-daşan nifrətini gördükcə Kamran səhvə yol verdiyini, qurduğu cinayət işində onu da Əzizlə birgə məsuliyyətə cəlb etməməsinə təəssüflənirdi. Hətta bir axşam anasına baş çəkməyə gedərkən Ziynətlə qarşılaşıb, növbəti dəfə onun təhqirlərinə məruz qalanda dözməyib partlamışdı:

- Çox böyük səhv etdim, fikirləşəndə özümü bağışlaya bilmirəm.

Anası da, Ziynət də bir anlığa təəccübləndilər, onun üzrxahlıq edəcəyinə inanmaq ağlasığası deyildi. Kamran davam etdi:

- Mən nahaq ayrıseçkilik etdim. Gərək səni də türməyə saldıraydım. Onda ağlın başına gələrdi. Biz də qulağımız dinc, sakit yaşayardıq...

Ziynət bu sözlərdən nəsə tapıbmış kimi sevindi:

- Aha, iç üzün açıldı. Demək, səni narahat edən heç də qeyrət məsələsi deyilmiş, vərəsəlik payıma iddia etməyimdir. Gec deyil, imkanın çatır, bir yalan da düz qoş, məni də tutdur. Tutdursan da xeyri yoxdur, mən türmədə də səndən əl çəkən deyiləm. Səni hamının yanında rüsvay edəcəyəm...

Kamran sağollaşmadan əli ilə alnını tutub evdən çıxmışdı. Həmin hadisədən az keçmişdi, bir gün Kamran anasından

Zinyətin Əzizdən hamilə qalmasını eşidib, qəzəbləndi: bu nə olan işdir? Ola bilməz. Allahın bizə qəzəbi tutub, yoxsa Zinyətin məzəsi?! Əgər belədirsə, mütləq qarşısı alınmalı, Zinyəti Əzizə bağlayacaq hər şey yox edilməlidir! Əks halda Əzizin tutulmasının nə xeyri?..

Kamran şübhələrinə son qoymaq üçün yenidən Zinyətlə üzləşməli oldu:

- Bu nə söhbətdir? Hamiləliyin doğrudurmu?

- Sənə nə dəxli var? Sən kimsən, belə lap doğrudur, sonra nə sözün var?

Hər dəfə Zinyətlə qarşılaşanda içində cəhənnəm əzabı çəkirdi. Bacısının onu adam yerinə qoymaması, iyrənc əski parçasına baxırmış kimi yanaşması bütün mənliyini ağrıdırdı. Halalca ərindən hamilə olanda ondan utanıb gözünə görünməməyə çalışan bacısı indi onunla dil-dil ötürdü.

- Atası kimdir? Kimdəndir?

- Atası Əzizdir, Əzizdəndir, - Zinyət eşitdiyindən sarsılan Kamranın gözlərinə meydan oxuyan baxışları ilə cavab verdi.

Kamranın gözlərinə qəzəb yayıldı:

- Qalmamalıdır, eşidirsən? Günü sabah onu götüzdür, rədd eylə, yox eylə! Onsuz da başımızı yerə soxmusan, qalıb qeyri-qanuni uşaq – bic anası olmağın... Yalvarıram, gəl qulaq as mənə, daşı tök ətəyindən.

- Xeyr a, aldatdım deməzsən, - Zinyət şaqqanaq çəkib gülürdü, - palçığa bir dəfə batarlar, ikinci dəfə yox. Məni bir dəfə aldatdın, deyəsən şirəsi ağzında qalıb, cənab prokuror köməkçisi! Elə şey yoxdur. Dünyasında da ola bilməz. Tək bir yolu var: Məni öldürmək. O da sən bacaran deyil. Qeyrət üstündə türmədə yatmağa hər oğulun gücü çatmaz. Qaldı ki, bic anası... öz arvadındır...

Zinyətin son sözləri Kamranın qulağında şillə təsiri bağışladı. Hirsini cilovlaya bilməyib, qarşısındakı stolun üstündən əlinə keçən kitablardan birini zərblə Zinyətə tərəf atdı. Vaxtında macal tapıb başını kənara çəkdiyindən kitab döşəməyə çarpıldı. Zinyət qardaşının qəzəbinə cavab olaraq

ləngimədən stolun üstündəki, iri qalın stəkanı Kamranın başına tulladı. Heç kimin, bayaqdan uşaqlarının mübahisəsinə qarışmayıb kənardan baxan anasının da gözləmədiyi qəribə bir faciə baş verdi: stəkan Kamranın gicgahına dəyib parçalandı. Kamran isə oturduğu stuldan yuvarlanıb yerə sərildi.

- Vaxsey, öldürdün oğlumu, əlin qurusun, – ana özünü Kamrana yetirdi. Zinyət elə bil yuxudan ayıldı: bu ana qədər ağlını alıb, gözünü yummuş qəzəb yuxusundan.

Yaxınlaşıb nəbzini yoxladı. Nəbzi sanki dayanmışdı. Anası hərəkətsiz uzanıb qalmış Kamranı silkələyir, açıla qalmış gözlərindən həyat nişanəsi axtararaq, ağlayıb fəryad qoparırdı:

- Kamran, balam, Kamran... huy...

Zinyət bilmirdi nə etsin? İlahi, bu nə qəza idi başına gəlirdi? Yəni, daha Kamran dinməyəcək, danışmayacaq, nəfəs almayacaq? Bir stəkan zərbəsindən ölmək olar? O bilərəkdən atmadı ki? Təsadüfən əlinə stəkan keçdi. İndi hamı onu qardaş qatili sayacaq. Ömründə o heç vaxt, heç vaxt qatil olmaq istəməzdi, qardaşı onu sevməsə də, düşmənçilik etsəydi belə...

Kövrəldiyindən axan göz yaşlarını saxlaya bilmədi. Özünü dünyanın ən bədbəxt qadını hesab edirdi. O kim idi? Ərini, uşağını atıb, sevgili dalınca qaçan, sevgilisinin həbs olunmasına baiskar, nankor övlad, yoxsa daha pisi – qardaş qatili? Hönkürtü çəkib ağladı:

- Ay Allah, Sən kömək ol, yazığam…

Allahın dərdli-dərdli ağlaşan ana ilə balaya elə bil yazığı gəldi. Ana Kamranın üzündə tərpəniş hiss etdi. Ağlamağını kəsib diqqətlə gözlərinə, bütün sifət cizgilərinə tamaşa etdi:

- Ay Allah, balamı qaytar, alma əlimdən, - bir qədər kinli səslə Zinyətə, - nəbzini yoxla...

Damar aramla tərpənirdi.

- Nəbzi az-az vurur, - Zinyət indi də sevincindən ağlayırdı, - Sənə inanmayan kafirdir, ay Allah!

Saniyələr keçdikcə yavaş-yavaş Kamranın üzünə, gözlərinə, həyat işığı yayılır, sanki dərin yuxudan ayılıb özünə

qayıdırdı. Ana Allaha şükranlıqlar yağdırıb, oğlunu sığallayır, öpüb əzizləyirdi...

- Şükür Allaha, şükür! Mənə yazığın gəldi, balamı qaytardın.

Kamranın huşu özünə qayıdanda gicgahında ağrı hiss etdi. Başını qaldırıb yerdən durmaq istədi. Elə bil başından daş asılmışdı, qaldırmağa gücü çatmırdı. Onun dikəlmək istədiyini görən, ağlamaqdan gözləri qızarmış anası və bacısı qollarından tutub qaldırdılar. Zinyətin gözlərindən həmişə gördüyü nifrət çəkilib getmişdi. İndi xatırladı: onun atdığı stəkanın zərbəsindən bayılmışdı. Başındakı ağrı da elə ona görə idi. Deyəsən, Zinyət onun öldüyünü güman edib, peşman olmuşdu. Daha əhəmiyyəti yox idi. Etdiyini etmişdi.

Kamran üçün get-gedə düşünmək də, fikirləşmək də ağrıya çevrilirdi. O, özünü toplayıb ayağa durdu:

- Mən getdim, söhbətin ardı qalsın, başqa vaxta.

- Hara gedirsən, bu halda səni hara buraxaram, - anası qarşısını kəsdi, - uzan, dincəl, özünə gəl,sonra. Bu dəqiqə həkim də çağıraram.

- Yox ana, lazım deyil. Evə getmək istəyirəm. Keçib gedəcək. Keçməsə özüm həkim çağıraram, - Kamran israr etdi:

- Onda mən də səninlə gedirəm.

- Ana, mən də gəlim? – Zinyət soruşdu.

- Yox, sən burda qal, - hər ikisi etiraz etdi.

- Sən elədiyini etdin, çox sağ ol. Artığına ehtiyacımız yoxdu, - anası acıqla əlavə etdi.

Həmin gün gecədən başlayaraq, Kamran özünü çox pis hiss edir, yaxşılaşmadığına görə, səhəri günü təcili yardımla xəstəxanaya çatdırılır. Aldığı zərbədən beyninin silkələndiyini bildirən həkimlər dəqiq söz deməyə, nəsə etməyə aciz olduqlarını etiraf edirdilər.

İki gün ötüb, üçüncü gün Kamranın keçinməsi xəbəri gəldi. Zinəyti yas mərasimindən Kamranın arvadı qolundan tutub çölə çıxardı:

- Çıx get, kənar ol gözümüzdən, imkan ver yasımızı keçirək.

Anası da onu dindirmirdi. Dərddən ürəyi partlayırdı. Hamıdan gizlənib ağlayıb-sızlamaqdan savayı əlindən bir iş gəlmirdi.

Dəfndən bir gün sonra Zinyəti polisə apardılar. Kamranın qaynatası kürəkəninin ölümündə onu təqsirli bilib polisə müraciət etmişdi. Zinyət izahatında qardaşı ilə münaqişəni hərtərəfli təsvir edib, hadisənin qərəzli deyil, gözlənilmədən baş verdiyini və günahının cəzasını çəkməyə hazır olduğunu yazmışdı.

Qərəzli, ya qərəzsiz, hadisə ölümlə nəticələnibsə, demək o, həbs olunmalıydı. Bunun əlavə təhqiqata, izahata, sübuta ehtiyacı yox idi. Bəxtindən müstəntiq insan adam idi. Kamranın keçmiş tələbə yoldaşı imiş. Zinyətin hamiləliyinə görə əvvəl prokurorla danışıb, sonra da anasını çağırıb məhkəmənin qərarınadək həbs etməyib, ananın zaminliyinə buraxmışdı.

Zinyətin zaminliyə buraxılması Kamranın qaynatasının könlündən olmamışdı. O, məhkəmənin uzanacağından, Zinyətin doğuş vaxtı yaxınlaşarsa, hökmün təxirə salınacağından ehtiyatlanıb, keçmiş prokuror dost-tanışlarının köməyi ilə məhkəmənin tezləşməsinə, günahkarın həbs edilməsinə çalışırdı. Çox güman ki, Zinyətin hamilə ikən məhbəs əzabı çəkməsindən, körpənin həbsxanada göz açacağından kam almaq istəyirdi. Bəlkə də, özündən çox qızının qəlbini şad etmək üçün edirdi, - Zinyətə belə gəlirdi. Nə etmək, gec, ya tez cəzasını almalıydı. Taleni Allahın yazmasına inanırdı. Gəl ki, ona səhv tutanları, düzəliş etmək istəyənləri sevməməsini, etdiyi cürətə görə cəzalandırmasını heç zaman ağlına gətirməmişdi. Yəqin bu da onun qisməti idi.

Bir ayın tamamında Məhkəmə keçirildi. Yarım saat çəkən iclasda ona altı il azadlıqdan məhrumetmə hökmü oxunub zaldan həbsə alındı.

Bu gün – Kamranın qırxı çıxan gün hökmün qanuni qüvvəyə minməsiylə ləngidilmədən təcridxanadan çıxarılıb xüsusi konvoy maşınında islah əmək müəssisəsinə gətirilmişdi.

Zinyət ona əzab verən xatirələrindən, nəhayət, yorulub, onlardan ayrılmaq üçün gözlərini divara vurulmuş zəif işıqlı gecə lampasına zilləyib yuxuya gedəndə gecədən xeyli keçmişdi. Bir neçə saat da ötəcək, dan yeri ağaracaq, səhər açılacaqdı. Barakın pəncərə tərəfində yatan Ədilənin isə yuxusu səhərin həsrəti ilə ərşə çəkilmişdi.

Ürəkdarıxdırıcı, ölü sakitliyi arabir qarşıdakı küçədən sürətllə şütüyüb keçən maşın səsləri pozurdu. Ətrafdakı çarpayılarda yatanlar yuxularında məhkumluqlarını unudub, xoşhallanıb, dünyadan xəbərsiz idilər. Bəzən hər qarışı yoxlayan nəzarətçilər də daha görsənmirdilər.

Birinci dəfə deyildi. Qalın, hündür dörd divarın arasında Ədilə o qədər belə yuxusuz, ürəkçəkən gecələr keçirmişdi, səhərə qədər gözünün yaşını axıtmışdı. Bu gecə sonuncusu ildi. Yenə səhərlər gözünü açıb özünü bu cansıxıcı divarların, sıra ilə düzülən çarpayıların əhatəsində görməyə-cəkdi. Zamanın qaranlıq örtüyü, yerini işıqlı səhərə verəcəkdi, ömrünü qaraldan zülmətdən azadlığa çıxacaqdı.

«Qurban olum Sənə, ay Allah, şükür, şükür sənə ki, məni bu günə də çatdırdın, - sevinirdi Ədilə. Altı il idi bu günün arzusu ilə yaşayırdı. İnanmağı gəlmirdi, həyatına qara iz salan illərin ötüb keçməyinə. Yaşadığı guşəyə o qədər vərdiş etmişdi ki, hərdən ona elə gəlirdi ki, çarpayısını da özü ilə gətirib, bu otaqdan, çarpayıdan ayrılarsa darıxacaq. Gəldiyi ilk vaxtlardan nələr çəkmişdi - təkcə çarpayısı şahid idi.

Qəlbinin gizli nisgillərindən yalnız o xəbərdar idi. Bitməyən gecələrdə yaxın sirdaşı, sevgilisi kimi başını onun sinəsinə qoyub, ürəyindəkiləri götür-qoy edər, sonra da qucağına qısılıb yatardı.

«Allah qadını necə də bədbəxt yaradıb»,- Ədilə düşünürdü. Çünki həmişə öz zəifliyini, qadınlığını üzə vurmasa da ağrısını ürəyində hiss edirdi. İllah da, kimsəsiz, yiyəsiz olduğunu duyanda. Elə qadının başına da nə iş gəlir, yiyəsizlikdən, sahibsizlikdən gəlir, «Mənim yiyəm, sahibim olsaydı, burada nə başım qalmışdı? Evimdə oturub uşaqlarımı saxlayardım», Gözlərinin önünə ciyərparaları – Xəlillə Cəlil

gəldi. Axırıncı dəfə onları görəndə Xəlilin üç, Cəlilin altı yaşı vardı. «Yazıq uşaqlarım, əməlli-başlı ana qayğısı, nəvazişi də görmədilər. Anaları ola-ola yetim qaldılar – analı yetim», - fikirləşəndə özünə də, burda olmasına bais səbəbkarlara da lənətlər yağdırırdı.

Anası hər dəfə görüşə gələndə yalvarırdı ki, heç olmasa bir dəfə uşaqları da yanıma gətir görüm. Əvvəl Fərhad qoymadı, sonra da uşaqların ağlını necə almışdısa, Ədilənin yalvarışlarına baxmayarq, onunla görüşə gəlmirdilər. Onun başına gələnlərin baiskarı elə Fərhad olmadımı? Neçə il evli oldular, heç bir dəfə demədi ki, Ədilə, sən ölmüsən, qalmısan? Gedirsən işə, yorğun-arğın gəlirsən evə, insansan, ya robotsan? Könlündən nə keçir? Kefinə düşəndə, ehtiras ehtiyacını ödəmək üçün onunla yatırdı, vəssalam, bununla da kişilik, ər olmaq vəzifəsini bitmiş hesab edirdi. Heç vaxt bir-birlərinin işinə qarışmırdılar. Ədilənin ürəyi çoxdan sınmışdı, aralarındakı soyuqluğu dərk etdiyi gündən. Fərhadın laqeyidliyi, bəzən də əttökən, yersiz davranışı onu ev-eşikdən də soyutmuşdu. Uşaqlarının xatirinə dözürdü. Rahatlığını yalnız işdə tapırdı. Fərqinə varmırdı, əri necə və harada gün keçirir?.. Ürəyinə dammışdı, deyəsən kənarda gizlin arvad saxlayırdı. Fərhad da heç maraqlanmazdı ki, gündə evə təzə nəsə alınır, arvadda haradandır bu qədər qazanc?.. Bəlkə bir pis yola düşüb?..

Ədilə isə fikrini vermişdi işə, ətrafındakı vəzifəlilərin əmri ilə yetənə yetirdi, qazandığı ona qalan xırım-xırda pullardan zövq alırdı. Amma son vaxtlar ürəyinə dolan şübhələrdən başa düşürdü ki, qoşulduğu bu oyunlar uzana-uzana bir gün qırılacaq, kiminsə başında çatlayacaqdı. Başqasına ehtiyac olmadı, onun başında çatladı. Çünki bu oyunda, oyundaşlardan ən arxasızı, ələ gələni o idi. Tutulan zaman yoldaşları, «kişi» dostları üstünə «zapiska» göndərdilər ki, möhkəm dur, bizi biabır etmə. Sən qadınsan, sənə güzəşt edəcəklər, biz də kömək edərik. Ədilə də qadın sadəlöhvlüyü ilə inandı, başqalarının da günahını boynuna götürdü. İnanmasaydı əlindən nə gələcəkdi? O hardan biləydi ki,onu aldadırlar. Cinayət Məcəlləsində, ümumiyyətlə, qadın-kişi fərqi yoxdur... İş kəsiləndən sonra

«dostları» bir dəfə də olsun onunla maraqlanmadılar, tamam unutdular. Belə də olmalı idi, insanlar insan olsaydı, yaşamağa nə vardı?. . Məhkəmədən sonra Fərhad da kişiləşdi, «türməyə» düşən arvadı özüyçün əskiklik hesab edib boşandı... «Ay külbaş, mən səni səndən qabaq boşamışdım, özün cəhənnəmə, uşaqları da məndən ayrı saldın»...

Allah qoysa, kalonun qapısından çıxan kimi maşın tutacaq, sürdürəcək düz evlərinə – anasının yanına. Yox, avtobusa minməyəcəkdi, tanış-biliş çıxar qabağına, bu görkəmdə, köhnə paltarda sıxılar, utanar...

- Ana, ana, ay ana, qurban olum sənə, gəlmişəm, ay ana, - Ədilə həyət qapısını açıb özünü həyətdə işləyən anasının qucağına atdı. Sevincdən ürəyi yerindən çıxırdı. Anası isə sevindiyindən ağlayırdı.

- Ay Allah, kəramətinə şükür, balam evimdədi, şükür sənə...

«Bala» kəlməsi Ədiləni də kövrəltdi. Balalarını görmək istədi. Anasının sevincdən özünə gəlməsini gözləməyib, səbirsizliklə soruşdu:

- Ana, uşaqları görüb eləyirsən, heç sənə gəlib dəyirlər?

- Arada atalarından xəlvət gəlirlər yanıma. İndi xəbər göndərərəm, gələrlər.

Anası qonşu uşaqlarından birinə Xəlillə Cəlili çağırmağı tapşırdı:

- Deynə nənən çağırır, tez gəlsinlər.

Çox çəkmədi həyət qapısı açıldı, biri o birindən balaca iki uşaq həyətə girdi.

- Nənə, gəlmişik, nə deyirsən?. . – Xəlil idi soruşan. Ədilə kənarda dayanıb uşaqlarına tamaşa edirdi. Gözlərinə inana bilmirdi. O vaxtkı bapbalaca uşaqlar necə də dəyişilmişdilər, böyümüşdülər.

Özündən asılı olmadan göz yaşları Ədilənin yanaqlarını isladıb üzü aşağı yuvarlanırdı. Səsi isə sanki batmışdı, içində qıvrılıb qalmışdı. Nənə kövrək səslə çağırdı:

- Yaxın gəlin, nə durmusuz, ananızı tanımadız?

Uşaqlar nənələrinin yanında dayanmış, onlar üçün çoxdan yadlaşmış qadına udquna-udquna baxdılar. Kiçiyi ayağını bir addım irəli atdı, böyük qardaşının tərpənmədiyini görüb tərəddüd keçirdi:

Böyüyü birdən:

- O mənim anam deyil. Mənim anam yoxdur, - deyərək geri çevrilib qapıya tərəf qaçdı.

Ədilənin elə bil sinəsinə od düşdü, dözə bilməyib hönkürtü ilə, irəli atılıb, onu da bir an içində itirəcəyindən qorxurmuş tək Xəlili qucaqladı:

- Cəlil, getmə, ana sənə qurban, getmə, Cəlil, - Cəlilin arxasınca çığırdı.

Ədilənin sinəsi çırpınır, göz yaşları dayanmırdı. Səsə yuxudan ayılmış məhkum yoldaşları onun başına yığışmışdılar.

- Yuxuda ağlayır. Bəxtəvər , bu gün o qədər sevinəcək ki...

- Son nisgilin olsun, Ədilə. Yazıq neyləsin, altı il dustaq olmaq zarafat gəlməsin...

Bu gün Ədilənin illərdən bəri gözlədiyi, arzuladığı azadlığa qovuşacağı, balalarının, anasının vüsalına yetəcəyi gün idi. O, son məhbəs yuxusunu görürdü.

***

Dayanmadan, on beş saniyədən uzun çəkən zəngin ardınca baraklara nəzarətçilərin əmredici harayları yayıldı:

- Qalxın! Eşidirsiz, durun ayağa!

Dünən əməlli tanış ola bilmədiyi, təkcə adını öyrəndiyi çarpayı yoldaşı Səbirə tələm-tələsik donunu əyninə geyinib onu səslədi:

- Zinyət, sabahın xeyir, dur bir ayaq tez, sakitlik ikən əl-üzümüzü yuyaq. Sonra gərək növbə gözləyəsən. Tez tərpənsək, səhər yeməyinə də gecikmərik.

Zəngin səsinə ayılan Zinyət ətrafa göz gəzdirib, onu çağıran qonşusunun diribaşlığına içində qibtə etdi. Gecəni

harda keçirdiyi bilinməyən, gözlərində yuxusuzluq əlaməti olmayan Səbirə hamıdan tez səliqə ilə yatağını yığışdırırdı.

- Bu gün sənə zonun hər tərəfini göstərəcəyəm. Nə qədər tez tanısan, tez isinişərsən. İsinişməsən «srok» keçmir.

Həmyaşıdı olan Səbirə arıq görsənsə də, qarayanız, suyuşirin, görünüşündə nəzərəçarpan qüsuru olmayan qadın idi. Danışmayanda da dalğın baxışlarından sözlü adama oxşayırdı.

Əskər kazarmasına bənzəyən, barak adlanan geniş zalda cərgələnmiş çarpayılardan tənbəl-tənbəl ayağa qalxan qadınlar yatağını səliqəyə salır, sonra da çarpayıların arasına qoyulmuş tumboçkalardan diş fırçasını, məhrəbasını götürüb səs-küylə əlüzyuyana tələsirdilər. Pəncərələrin dəmir barmaqlıqlarından otağa süzülən günəş şüaları açılan sabahla, başlayan yeni günlə bağlı adamda xoş ümidlər, ılıq duyğular yaradırdı.

Həyətin yuxarı başındakı yeməkxanaya gedən yol boyu rastlaşdıqları, onu baş ayaq süzən qadınların hamısı Səbirə ilə mehriban görüşür, zarafatlaşırdılar:

- Maşallah, - Zinyət ətrafdakıların eşitməməsi üçün qulağına pıçıldadı, - deyəsən, tutmusan özünü, yaxşı hörmətin var. Hamı səni tanıyır.

Səbirə gülümsədi:

- Beş yüz dustağın içində tanınmağa nə var ki. Uzağı bir aya sən də hamını tanıyacaqsan.

Yeməkxananın stolları düzülən zalın o biri başındakı səhnəni görən Zinyət təəccübləndi:

- Ora niyə elədir?

- Burdan həm də klub kimi istifadə edirlər, - Səbirə izah etdi, - istirahət və bayram günləri yeməkdən sonra bura dönüb olur kino-teatr, oturub kinoya baxırıq.

Sıralanmış stolların arxasında əyləşən məhkumlar hər stola norma hesab edilən qazandan səhər kaşasını qarşılarındakı aliminium qablara tökür, mətbəxdən aldıqları çörək payı ilə yeyirdilər.

Ətrafında altı qadın əyləşmiş dar, uzun stola çatanda Səbirə dayanıb ona yer göstərdi:

- Sən kənarda otur ki, durub-oturanda əziyyət çəkməyəsən. Xanımlar – əlyəşənlərə müraciət etdi, - əvvələn sabahınız xeyir, sonrası da bu gündən Zinyət xanım da bizimlə oturacaq. Xahiş edirəm vəziyyəti «yüngülləşənədək» ona qayğı göstərəsiniz.

Səbirənin hamiləliyinə işarə etməsindən utanan Zinyətin ona dikilən yad baxışlardan günahkar uşaq kimi yanaqları bir az da allandı. Tanımaya, bilməyə bu qız niyə onunla yaxın olmaq istəyir - düşündü. Yoxsa hamı ilə belədir?

Səbirə qarşısındakı kaşanı yeməkdən çox təriflədi:

- Bu kaşanı Əfilə xala bişiribsə, söz ola bilməz.

- Əfilə xala kimdir?

- Bizim aşbazımızdı. Bir gün tanış edərəm səni.

- Düz demədin,- yanaşı oturan cavan qız söhbətə qarışdı, - aşbazımız yox, aş pazımızdı.

Ətrafdakılar gülüşdülər. Səbirə əlini yellədi:

- Sən də hər sözə qulp qoymasan, ölərsən.

Yeməkxanının aşağı başında qabağındakı stolda çoxlu çay termosları, çaydanları düzülmüş qadının səsi aləmi başına götürmüşdü.

- Nə olub ona, niyə elə qışqıra-qışqıra danışır, - Zinyət soruşdu.

- Çayçımız Səltənətdi, fikir vermə, olanı odu. Eh bacı, - Səbirə başını yellədi, – hələ nələri, kimləri görəcəksən, tanıyacaqsan. Məndən başlayıb mənə çatanacan hərə bir cür xarabdı. Ağlı yerində olanın bu xarabada nə başı qalıb...

Yeməkxanadan çıxmışdılar, yenə uzun-uzadı zəng səsi və ardınca nəzarətçilərin harayı eşidildi:

- Hamı səhər yoxlamasına. Yoxlamaya gecikən, gəlməyən cəzalanacaq!

- Gündə neçə dəfə olur yoxlama? – Zinyət Səbirədən soruşdu.

- İki dəfə. Biri indi olacaq, biri də axşamtərəfi. Tez qurtarır, elə uzun çəkmir. Adlarımızı oxuyurlar, onunla da başa çatır. Bir neçə gün keçsin, sançastın həkimindən xahiş edərik,səni azad edər yoxlamadan.

- «Paqonlu»lar necədir, sıxırlarmı məhkumları?

- Baxır da adamına… Onları da ana doğub, bizi də. Yaxşısı da var, pisi də. Pis onda olur ki, bəzən bizdən öz aralarındakı intiriqalarda istifadə edirlər. Qaldı ki, əgər qoyulan qayda-qanuna əməl edərsənsə, sənə kim nə deyə bilər? Təcrid-xanaya fikrin getməsin, burada əsas məqsəd əzab vermək yox, islah yoluna yönəltməkdir.

-Birdən qayda-qanuna əhəmiyyət verməmək istəsən necə?

- Olar! Belədə saymazlığının cərimənsini ödəməlisən. Eynilə azadlıqdakı kimi…

- Cəriməni kimə ödəyirsən?

- Əlbəttə, buranın «sahə rəisinə».

- Necə?

- Onu özü bilir, kimi necə «cərimələyir», - Səbirə güldü, - ya cərimə, ya da əzab! Yaxşısı, dinməzcə cəzanı çəkməkdi…

Həyətə yığışan məhkumlar cərgələrlə sıraya düzül-müşdülər. Yoxlamada beş nəzarətçi, üç zabit qadından savayı, orta yaşlı, çiynində dörd kiçik ulduz parlayan kişi zabit də iştirak edirdi:

- Soruşmaq ayıb olmasın, bu kişi nə işləyir burda? – Zinyət üzünü sırada yaxınında dayanan Səbirəyə tərəf çevirdi:

- Nə tez onu soruşdun? Olmaya xoşun gəldi?

- Yox canım, sən də məzəsən əməllicə. İstəyəninə qismət olsun. Elə-belə maraqlandım.

- Sex rəisidir.

- Səhər tezdən, hamıdan tez niyə gəlib?

- Gecə burda qalıb, məsul növbətçi olub.

- Bu qədər arvadın içində tək? Zor adamdır, - gülüşdülər.

- Sən onun qayğısını çəkmə, sənə qalmayıb, - Səbirə sanki nazlandı.

- Ehey, orda söhbəti qurtarın, - aralıqda dayanan nəza-rətçinin qışqırığı eşidildi.

Yoxlamadan sonra onu nəzarətçinin müşayiəti ilə rəisin qəbuluna apardılar. Dünən axşam müəssisəyə qəbul edilərkən

rəis yerində olmadığından onu bir iri ulduzu olan qadın müavin qəbul etmişdi.

Yaşayış zonası ilə istehsalat zonasının arasındakı geniş həyətdə yerləşən böyük hovuzun yanından keçib, darısqal arakəsmə ilə irəlilyəib uzun dəhlizə çıxdılar. Dəhlizin girəcəyində rəisin qeyri-rəsmi katibəsi olan «dnevalnı» deyilən məhkum qadının otağı idi. O burada rəis və qonaqları üçün çay, yemək hazırlayır, habelə rəisin bəzi göstərişlərini lazımi adamlara ötürülməsində iştirak edirdi. Üzbəüz otaq kabinetə çıxışı olan rəisin istirahət otağı idi. Kabinet geniş və uzun idi.

Otağın yuxarı başında oturan, çiynində iki böyük ulduzu olan dazbaş yaşlı kişinin sərt nəzərlərindən ilk baxışda vahimələnirdin. O, qarşısındakı şəxsi işi vərəqləyib telefonu götürdü:

- Həkimə deyin tez bura gəlsin. - Gözündəki eynəyi çıxarıb Zinyəti diqqətlə süzdü:

- Ərin ola-ola başqa birisi ilə eşqbazlıq eləmisən, burda belə yazılıb, - əli ilə şəxsi işi göstərdi, - özün azmış, bətnindəkini də kalona gətirmisən...

- Əvvəlki ərimdən boşanmışam, yoldaş rəis, - Zinyət sıxılaraq dilləndi.

- Onu sən deyirsən. Rəsmi boşanma kağızın var? Bax görürsən, yoxdu. İndi uşaq doğulanda lazım gələrsə biz hansı ərinə müraciət edəcəyik? Əsas məsələ budur.

Açıq qalan qapı taqqıldadı. Gələn ağ xalatlı balacaboy, dolğun həkim idi.

- Rəis, gəlmək olar?

- Gəl. Lətafət xanım, bu məhkumun hamiləliyi nə vaxt bitəcək?

- Hələ üç ayı var.

- Onda buna işləmək yaramaz. Bu üç ayı daim nəzarətində olsun. Əlli dərdimiz olsa belə, məcburuq əlimizdən gələni edək ki, «xanımın» uşağı dünyaya normal gəlsin…

Zinyət rəisin kinayəli sözlərindən başını yerə dikdi. Hamiləliyinə görə, tutulan gündən ona çox sözlər deyilmişdi.

Zinyətin doluxsunacağını hiss edən rəis söhbəti uzatmayıb tamamladı:

- Yaxşı, get. Yəqin ki, səni rejim qayda-qanunları ilə tanış ediblər. Nə çətinliyin olsa əvvəl dəstə rəisinə, sonra müavinə, ya da mənə müraciət edə bilərsən.

Yaşayış zonuna qayıdan yolun girəcəyində Səbirə onu gözləyirdi.

- Hə, danış görüm, rəis sənə nə dedi? Niyə tutulmusan?

Zinyət dinmədi. Kənardan dikilən baxışları görən Səbirə səsini alçaltdı:

- Həyətin o başındakı guşəni görürsən, gəl çəkilək ora, sakitliyə söhbətləşək. Yoxsa it-pişiyin əlindən ağzını açmaq olmur, əlli yerdən pusurlar.

Skamyada əyləşən kimi Zinyəti tələsdirdi:

- Hə, başla…

- Nə başlayım? Elə bir şey olmadı. Həkimi çağırıb hamiləlik vaxtımı soruşdu. Hə, bir də işdən azad etdi.

- Elə bu?

- Day nə olasıdı ki?

Səbirə heç nədən şaqqanaq çəkib güldü:

- Rəisimiz necədi? Xoşuna gəldi?

- Neynirəm, hər necədi. Təzədən ona ərə gedəsi deyiləm ki. Pis adama oxşamır. Deyəsən heç şorgöz də deyil, eləmi?

- Kişi deyil? Kişi olsun, şorgöz olmasın, heç elə iş olar? Hələ bu rəhmanisidi. Bundan əvvəlki rəisi görəydin. Nə istəsəydi edirdi. Kimin hünəri var idi cınqırını çıxartsın. Səsini çıxardanı tutub saçından həyət boyu sürüyürdü. Sən gördüyün kabinetdə çox məhkumlar qorxudan ayaqüstə dayandıqları yeri batırırdılar.

- Nə danışırsan, nə əzazil adam imiş.

- Elə etməsəydi, o burda padşahlıq edə bilməzdi. Gecələr istirahət otağında prokuror dostlarını başına yığıb «kef» məclisləri qurardı. Əvvəldən tapşırılan cavan, gözəgəlimli, «hal əhli» olan qadınlar «adboy»dan sonra gecə yerindən durğuzulub həmin məclisə aparılardı, hər qonağa biri...

- Məcbur? Bəs qadınlar etiraz etmirdilər?

- Ay qız, məcbur nədi, nə etiraz? Əksinə, aralarında qırğın idi. O deyirdi mən gedirəm, bu deyirdi bu dəfə mənim növbəmdir.

- Bəs işçilərdən «padşaha» qarşı çıxanı, özbaşınalığa dözməyəni olmadı?

- Oldu, amma, gec oldu. Rəis müəssisədəki işçilərin qadınını da, kişisini də hərəni bir yolla uzun müddət ələ almışdı...

- Biabırçılığın sonu necə qurtardı?

- Həmişəki kimi. Kimsə çatdırdı baş idarəyə, bir gecə gəldilər, rəisi yenə yeyib-içən, kef məclisi quran yerdə tutdular, özü də yataq paltarında. Hərə seçdiyi ilə yatmağa hazırlaşırmış. Soğan kimi "soyandan" sonra atdılar işdən bayıra, vəssalam-şüttəmam. Gəl ki, ona halal idi. İşçini də, məhkumu da elə öyrətmişdi ki, hər kəs öz yerini tanıyırdı. Yoxsa indiki əfəl, ikisinə əl atıb, ikisini də mindirib boynuna. Heç bilmir hansını düşürsün.

- Doğrudan, kimdir o iki nəfər?

Səbirə indiki rəis haqqında son sözlərinin yersiz söylədiyini anıb, xasiyyətini hələ öyrənmədiyi adama lazım olduğundan çox danışdığı üçün ürəyində özünü qınadı:

- Yox ay qız, söz məsəli dedim. Nə bilim, sözdü də deyirlər. Ola bilsin yalandır. Kimlərinsə uydurmasıdır…

- Kaş bütün danışdıqların yalan olaydı. Adamın heç inanmağı gəlmir eşitdiklərinə...

- Daha narahat olma, çətin ki, elə vəziyyət burada nə vaxtsa bir də təkrar olsun. Ölkəmiz müstəqilləşib, qanunların islahatı gözlənilir. Eşitmisən, deyirlər məhkumların şəraitinə bundan sonra Avropa Şurası nəzarət edəcək.

Ziniyət özünü gülməkdən saxlaya bilmədi:

-Deyəsən onların görəsi başqa işləri qalmayıb...

Bu zaman televizor otağı tərəfindən qara-qışqırıq qopdu. Səbirə tez yerindən qalxdı:

- Sən gözlə, mən bu dəqiqə öyrənib qayıdıram. Görüm boğuşanlar kimdir?

Söyüş dolu iki fərqli qışqırıqdan davanın baş verdiyi məlum idi. Qışqırıqlar artdıqca Səbirə kimi hər tərəfdən maraq xatirinə televizor otağının qapısına toplaşanların sayı sürətlə artırdı. Deyəsən dalaşanları bir-birindən ayıra bilmirdilər. An keçmədi, özünü təcili hadisə yerinə çatdıran iki nəzarətçinin səsi də onlara qarışdı:

- Ay qız, burax qızın saçını. Öldürəcəksən? Nə istəyirsən, ala bilmirsən? Qızmışlar qızıblar.

- Dağılışın, yol verin!

Əynindəki paltarları paralanmış, saçlarını oğlan sayağı vurdurmuş, təzəcə aralandırılmış iki acıqlı, təngənəfəs cavan qadını nəzarətçilər toplaşanların arasından çıxardıb, qabaqlarına qataraq münaqişənin səbəbini öyrənmək üçün öz otaqlarına apardılar.

Toplaşanlar dağılışmağa başlayanda Səbirə gülə-gülə qayıtdı:

- Gördün bir-birlərini nə halətə qoymuşdular. Üz-gözləri də qan içində idi, cırmaqlaşmaqdan.

- Nə məsələdir, yoxsa ayrı-ayrı verilişlərə baxmaq üstündə düşüb davaları?

- Yox ay qız, nə danışırsan, məsələ qısqanclıq məsələsidir. Eşq üstündədir…

- Hansı kişidir o bəxtəvər, üstündə özlərini öldürürlər?

- Kişi deyil, qıza görədir.

- Anlamadım…

- Necə deyim «para» söhbətidir, - yəni cütlük. Hə, burda belə bir eşq də yaşanır. Məkumların biri digərini sevir.

- Qadın qadını?! Bu necə ola bilər?!

- Hə də, qadın qadını. Bəs səhər sənə nə söylədim, hələ elə şeylər eşidəcəksən, görəcəksən ki, az qala başını itirəcəksən. Bacı, bura türmədən əlavə həyat universitetidir. Hər şeydən, həyatın hər üzündən xəbərin olacaq. Mən institut qurtarmışdım, bu qədər savadım, təcrübəm yox idi. Görünür, Allah-Təala biliyimi artırmaq üçün bu universiteti də lazım bilib.

- Yaxşı, dava nə üçün?

- Cütlüyə aid olanlardan biri adətən özünü oğlan yerində hiss edir,o biri ilə oğlan kimi davranır. Onun sevdiyinə başqa bir «şərti» oğlanın yanaşdığını hiss edəndə qısqanclıqdan saç yoldu başlayır.

- Nə deyirsən de, başıma sığışdıra bilmirəm. Bu anormallıqdan başqa bir şey deyil. Utanmazlar!

- Mən də elə düşünürəm. Psixoloji şikəstlik əlamətidir. Amma, onlar utanmaq nədir, özlərini haqlı sayırlar. Qadının qadına sevgisini hər adam başa düşə bilməz – deyirlər.

- Nə bilim vallah, gör gəlib hara çıxdım! Cəza evində nə qədərdi özünə «oğlan» tapanlar, çoxdumu?

- Yox, elə çox deyil. Bilirsən, açıq söz, belələri əsasən azadlıqda fahişəliklə məşğul olanlardır. Burda da dinc otura bilmirlər. Erkək tapmağın çətinliyindən özlərinə oxşarlarını tapırlar. Boş qalanda sevgisiz darıxırlar. Məncə, ayrılıqda hərəsi bir ailənin olsa da, onların varlığı şübhəsiz, cəm halında cəmiyyətin əyintilərini əks etdirən aynasıdır. İnanarsanmı ki, əsl kişisi olan evin qadını pozğun olsun? Bu «biçarələr» gəzəyən analardan çox, «xoşqeyrət» atalardan törənənlərdir.

- Nə isə. Adam deməyə söz tapmır…

-Sən yaxşısan, uşağının atası var. Bayırdan eləlrun gəlir ki, bətnindəkinin kimdən olduğunu dəqiq xatırlamır, üstəlik danışanda namusdan, təmiz addan dəm vurur.

- Onların dərdini çəkmək bizə qalmayıb. Gəl özümüzdən danışaq. Danış görüm, necə oldu ki, institut sənə az oldu, «universitetə» də yolun düşdü?

- Adətdi, həmişə kişilər qadının felindən dad eləyirlər. Əksinə, mən kişi «qırığı»nın qurbanı oldum. Söhbəti yox, özümün də günahı oldu. Deyim ki, günahsızam, yalan olar. Əslində, sadəcə həyatda bəxtim gətirmədi. Yiyəsiz oldum. Məncə qadının başına nə pis iş gəlirsə, hamısı yiyəsizlikdən baş verir. Düzdür, qadın güclü məxluqdur. Ancaq nə qədər güclü olsaq da biz qabırğadan yaradılmışıq, kiməsə qabırğa olmalıyıq. Qabırğa olmayanda, özbaşına olanda gərəksizləşirik, sahibsizləşirik... Allah Həvvanı Adəmdən əvvəl yox, sonra yaradıb. Həm də məxsusi onun üçün yaratmışdı. Amma gəl ki,

kişinin də təkcə adı deyil, özü də kişi olmalıdır. Sən fikir ver, buradakı bütün qadınların – sənin də, mənim də kişi adına layiq kimsəmiz yoxdur. Əgər kişi kimi ərimiz, qardaşımız, ya atamız olsaydı, imkan verərdilərmi cinayət edək, ya türməyə düşək? Əlbəttə yox. Kimisininki ölüb, kimisininki həbs olunub, kimisininki də var ikən ölüdən fərqi yoxdur. Mən qadın cinayətkarlığının səbəbinin yarısının həmin qadınların dərin düşüncə, uzaqgörmə qabiliyyəti olmamalarında görürəmsə, yarısını da onlara sahiblik edə bilməyən kişilərdə görürəm. Mən də belə oldum. Həyatı anlayandan atam, qardaşım olmadı. Sərbəst böyüdüm, yaşadım. İnanırdım ki, sərbəstliyimlə həyatda hər şeyə nail olacağam. İnstituta girdim. Ailə qurdum. Lakin, sərbəstliyimi əldən vermədim. Verə də bilməzdim. Çünki mən belə alışmışdım, bu, mənim həyatım idi. Yoldaşım mənə yiyələnmək, öz ixtiyarına almaq istəsə də, mən imkan vermədim. Yola getmədik, ayrıldıq. O, məndən zəif olmaq istəməsə də, güclü də ola bilmədi. Sərbəstliyimə görə körpə qızımı da aldı əlimdən. Başqa bir kişi ilə yaşamağa başladım. Günlərin bir günü məni aldatdığını, əlavə arvad kimi saxladığını biləndə ondan heyfimi çıxmaq qərarına gəldim. Yeməyinə dərman qatıb yatmağını gözlədim. Yuxuya gedəndə əlimə keçəni götürüb evindən qaçdım. Sən demə dərman köhnə imiş, təsiri az olubmuş. Ayılanda polisə şikayət etdiyindən səhəri günü məni həbs etdilər. Bax belə. Kişi sarıdan "defisitin" axırı məni gətirib türməyə çıxardı. Qadınını sevən və özünü sevdirməyi bacaran kişi həyatda hər qadına nəsib olmur. Baxtı gətirib bu cür ər tapmaq əsl xoşbəxtlikdir. Allah qadını sevilmək üçün yaradıb. Sevilməyən qadın mənim aləmimdə çiçək açmayan, baxımsız bəzək koluna oxşayır. Qısası gərək özbaşına olmayasan. Özbaşına ki, oldun başına çox iş gələcək...

- Haradasa sözlərində həqiqət var, - eşitdiklərindən təsirlənmiş Zinyət fikirli-fikirli razılaşdı, - deyə bilmərəm ki, mən bəxtimdən narazıyam, arzu etdiyim kişiyə rast gəlməmişəm. Əksinə, onu itirməmək üçün ən əziz adamlarımla mübarizə aparmışam. Əfsus ki, o, indi azadlıqda deyil…

- Bilirəm, - Səbirə kövrələn Zinyəti sakitləşdirmək istədi, - xatırlayıb, özünü üzmə. Xəbərim var.

- Hardan bilirsən? – Zinyət təəccübləndi – Sən Allah, de görüm sənə kim deyib?

- Aaaz, dünəndən bilirəm. Sən Səbirəni nə bilmişdin. Elə şey ola bilməz ki, bu zonda yeni nəsə xəbər, məlumat olsun, mən bilməyim. Hökmünü oxumuşam.

Zinyət heç nə anlamadığından matdım-matdım baxırdı. Səbirə yenə şaqqanaq çəkib güldü:

- Aaaz, xoflanıb ürəyinə heç nə gətirmə. Sənə hardan öyrəndiyimi deyərəm, ancaq bir şərtlə, nəbadə kiməsə danışasan. Söz qulağıma çatsa, biləcəyəm ki, səndən çıxıb.

- Yox, ay qız, - Zinyət onu qınadı, - sən məni nə hesab edirsən?

- Zonumuzun əmliyyatçı zabit xanımın tanıyırsan?

- Hə, «karateist» deyirlər, onu? – Zinyət dünən müəssisəyə daxil olarkən qəbul zamanı onun üstünə çığıran üç kiçik ulduzlu paqonu olan acıqlı, zabit xanımı xatırladı.

- «Karateist» nə vaxtsa olub, indi yekəldiyindən «ştangist»dir. Hə, o, yaman özündən deyəndi. Etibarını qazanmışam. Onun vasitəsiylə zondan başlamış nazirliyədək nə olsa, xəbər tuturam. O, elə bilir ki, məni özünə «stukaç» saxlayır. Daha xəbəri yoxdur ki, mən onu fırladıram. Nə olsun ki, paqonu var. O ali təhsildən mən də almışam, yeri gəlsə ondan da artıq savadım var.

- Səbirə, sən bəlasan! Hələ bir kişiləri də qınayırsan ki, məni ram edəni olmadı… Dur bir az gəzək. Yoruldum oturmaqdan.

Onlar xırda addımlarla həyətboyu yanaşı söhbətlərini davam etdirə, var-gəl etməyə başladılar. Həyətin müxtəlif yerlərində əkilmiş böyük gövdəli, qollu-budaqlı ağacların kölgəsi altına yığışmış xeyli qadının söhbətləşənindən əlavə, nərd, dama, domino, hətta şahmat oynayanları da vardı.

- Bu oyunlarla aran necədi, - Səbirə soruşdu.

- Belə də, xəstəsi deyiləm.

- İstəyirsən bir özünü yoxla.

- Yox, qoy qalsın başqa vaxta, həvəsim yoxdur.

- Yadında olsun, heç vaxt mərcə oynama ha… Düzdü, burda axır vaxtlar pulla oynamaq dəb düşüb, yeni «mikro» qumarbazlar əmələ gəlib. Aldadıb oynadarlar, uduzub başına iş açarsan.

- İndiki elədir, heç oynamaram.

- Bir də, nəbadə sələmlə pul verənlərdən borc alasan…

Ətrafdakılardan kimsə haray çəkdi:

- Ora baxın, ora. Beşmərtəbənin damına.

Həyətdəki bütün nəzərlər yaxıqnlıqdakı beşmərtəbəli yaşayış evinin damına dikildi. Damda dayanmış arıq, uzun, saçlarını külək qarışdırmış bir qadın həyətdəkilərə tərəf baxıb əl eləyir, eşidiləsi mümkün olmayan səslə qışqırıb nəsə deyirdi. Hamını heyrət bürümüşdü. O, kim idi, nə istəyirdi, ora niyə çıxmışdı?

Azadlıqda narkoman olmuş, zonda «Kəpənək» adı ilə çağrılan məhkum keçmiş həmkarını tanıyıb sevinclə çığırdı:

- Mən tanıdım, Rahibədir, baxın. Düzdür? Odu? Yəqin bizim üçün darıxıb, ona göpə ora çıxıb. Rahibə, hey!

Rahibəni tanıyanların sayı artdıqca üzlərindəki heyrəti anlaşılmaz təbəssüm əvəz edirdi:

- Rahibə kimdir? – Zinyət Səbirədən soruşdu.

- Buranın daimi dustağı. Üç dəfə cəza alıb. Ömrünün üst-üstə on dörd ilini burada keçirib. Nə qədər müalicə alsa da, yolundan dönməyən keçmiş narkoman. İki həftədir çölə buraxılıb cəza müddəti bitdiyi üçün. Getmək istəmirdi, azadlıq mənim üçün əzabdır, – deyirdi. Çöldə mənə kim baxacaq, ağlayırdı. Yaxınları, doğmaları üçün dəyərsiz, gərəksiz insana çevrildiyindən qırx yaşından sonra nəsə əldə edəcəyinə inamı qalmamışdı. Yenə ya narkotika qəbul edib, ya da xırda oğurluq edib tezliklə qayıdacağını demişdi gedəndə. Yəqin darıxıb, qapıdan buraxılmadığından binanın damına çıxmalı olub.

Səbirəni dinlədikcə Rahibə Zinyətin gözündə özünü damdan bu həyətə atmaqla intihar etmək istəyən insana bənzəyirdi. Yazığı gəldiyindən könlündən qışqırıb onu bu yoldan

çəkindirmək keçdi. Amma xeyri olmayacaqdı. Həyətdə heç kim narahat deyildi, hamı gülümsəyirdi.

Ona baxanlar sonra yorulub gözlərini çəkdilər. O isə məhkumlar nahar yeməyinə gedənə qədər dayandığı yerdən tərpənməyib həsrətlə zonun həyatinə baxırdı.

***

Nahardan sonra Zinyət Səbirənin zonun məsləhət bildiyi nöqtələrini gəzdi, xeyli məhkumla tanış oldu. Bu qədər çoxluğa vərdiş etməmiş Zinyət üzə vurmasa da daxilən sıxılır, darıxırdı. Neçə illərdi cəza evində həyatın axarına alışan Səbirə öz məsləhətlərini ondan əsirgəmirdi:

- Bilirsən necədi, cəza vaxtının necə keçdiyini duymamaq üçün gərək darıxmayasan. Darıxdınsa aldığın cəza ikiqat əzablı başa gələcək. Qapıdan ağ saçlı nənə kimi çıxacaqsan. Darıxmamaq üçün isə gərək məşğuliyyətin olsun, başın işə qarışsın. Sənə də ki, hələ neçə ay işləməyə icazə verməyəcəklər. Onda «srok» keçməyəcək, ağır dəyirman daşına dönəcək.

- Səncə nə edim? – Zinyət qayğılandı.

- Nə bilim, fikirləşmək lazımdır. Televizorda seriallara baxmaqdan xoşun gəlir?

- Eh, o qədər millətin içində nəyə baxmaq olar, hərənin ağzından bir avaz gəlir… Mən sakitlik istəyirəm.

- Kitab oxumağı necə, bacarırsan? Yuxun gəlmir oxuyanda?

- Yox, maraqlı kitab olanda əlimdən yerə qoymuram.

- Tapdım, “evrika”. Gedək Mahirənin yanına, kitabxanaya.

Kitabxana həyətin ortasına yaxın binanın birinci mərtəbəsində yerləşirdi. Bura bir neçə stol, stul və sayı elə də çox olmayan kitab şkafları düzülmüş bir böyük otaqdan ibarət idi.

- Mahirə xanım, - Səbirə özünü hay-küylə irəli atdı,- gərək hörmətimi edəsən.

- Nə olub axı, - üstünə jurnal və qəzetlər yığılmış geniş stolun arxasında oturmuş orta yaşlı, balacaboy qadın sevincək oldu:

- Yenə nə «qaynatmısan», hörmət də umursan?

- Xərci var, sənə təzə oxucu gətirmişəm. İndiki dövrdə oxucu tapmaq sənə adi iş gəlməsin.

- Payın çox olsun, ay Səbirə, - ayağa durub onları qarşılayan Mahirənin gülümsəməkdən qeyri yolu qalmamışdı, - səndən bir dənədi. Sən olmasan, zonun yaraşığı itər.

- Sən zarafat elə. Hamının işinə yarayıram. Nəyə gücüm çatır, onu da edirəm. Zinyət, bax, əsl sən istəyəndi, sakit yer, otur Mahirə xanımın yanında, kitab oxu, vaxtını keçir. Mən getdim. Özünüz tanış olun, bir-birinizlə yola gedin.

- Get, yaxşı yol, arada gəlib qonağımız olarsan.

Mahirə xanım kök olmasa da, boyu bəstə olduğundan dolu bədənli görsənirdi. Təbəssümlü mavi gözləri, geniş alnı, rənglənsə də köklərindən ağardığı bəlli olan saçları, nüfuzedici baxışları qadının geniş dünya görüşündən xəbər verirdi. Qarşısındakı insanı mehribanlıqla qarşılayıb, səbr və təmkinlə dinləməsi, verilən sual barədə bütün bildiklərini əsirgəmədən çatdırması ilə adamda istər-istəməz özünə qarşı rəğbət oyadırdı.

Zinyət yatana qədər qalan asudə vaxtını keçirməyə bəs edəcək, çox da qalın olmayan bir kitab seçdi. Kitabxanadan çıxarkən Mahirə xanıma heyranlığını gizlədə bilmədi:

- Siz "çöldə" də kitabxanaçı işləmisiniz? İşi elə gözəl aparırsınız ki, təcrübəli işçi kimi...

- Doğrudan? - Mahirə xanım tərifdən sevindi, - xeyr, mən mühasiblik oxumuşam, böyük-böyük yerlərdə baş mühasib işləmişəm. Həmişə pulları hesablamağı, toplamağı sevmişəm. Gəl ki, mənim bir xasiyyətim var. Harda işləsəm, öz işimi sevirəm. Sevməsəm işləməyəcəyəm, necə ki, bura gələndə əvvəl mənə tikiş sexində iş verdilər. Bir-iki həftə işlədim, gördüm yox, mənlik deyil. Özümü ora vurdum, bura vurdum, axır ki, məndən əvvəlki kitabxanaçı evə buraxılanda gedib rəisə xahiş, hörmət-filan edib gəldim bura. İndi beş ildir kitab-

xanaçıyam. İki rəislə işləmişəm. Hamı da razıdır məndən. Bilirsən niyə? Çünki mən heç nəyə, heç kimə qarışmıram. Başımı aşağı salıb cəzamı çəkirəm. Başqa cür də olmur. Cinayət aləmi mənlik deyil. Sənin cəzan barədə hələ tam müfəssəl bilmirəm, pis çıxmasın, özüm və özüm kimi bir neçə adamdan savayı qalanlarının bura düşməsini ağılsızlıq hesab edirəm. Bax, mən pul qazanmışam. Türməyə düşməyimə peşman deyiləm, bilirəm ki, beş il-on il cəzamı çəkib, sonra yenə əvvəlkitək ürəyim istəyən qaydada yaşayacağam. Bəs bunlar nə edib? Baxırsan yan-yörənə, çoxu narkoman, fahişə, nəşə satan, adam aldadan, vecsiz oğurluq edən, bir də gəzdiyinin köməyi ilə, dərmanla, ya da balta-bıçaqla ərini öldürən!.. Zalımın qızı, bu köpəyin oğlu siçan deyil ki, öldürəsən, sonra da gizlədəsən. Bu insandı. Xoşun gəlmir, yaşaya bilmirsən boşan, uzaqlaş. Mütləq öldürməlisən? Sonra da gəl on beş il, ya da on iki il ömrünü türmələdə çürüt. Qazancın nə oldu?

Mahirə xanım ağıllı qadın idi. O, dünyaya mühasib gözü ilə baxırdı. Ziyanını-xeyrini tənzimləməyi bacaran, ölçübbiçən, mənasız hərəkətə yol verməyən adam idi. Onun nəzərində ağıl işlədib, müxtəlif bank əməliyyatları ilə pul qazanmaq eyib deyildi. Lap dövlət büdcəsindən olsa da belə. Onsuz da büdcənin qayğısına qalan yox idi. Onun üçün narahat olmalı dövlətin öz məmurları hərə bir tərəfdən paralayıb xımır-xımır yeyirdilər. Onlara - səlahiyyət sahiblərinə halal idi. Büdcəyə əli yetməyən səlahiyyətsizlər üçün isə hər yerdə deyilirdi ki, xalqın malı toxunulmazdır, oradan yemək cinayətdir.

Əlbəttə, güvəndiyi adamlar olmasaydı, Mahirə təkbaşına heç nə edə bilməzdi. Sadəcə, bu sayaq işlər həmişə belə qurtarırdı. Yeyilən milyonların fatihəsini oxumaq üçün «aşkar edilmiş cinayətkar dəstə» məsuliyyətə alınmalı idi. Təbii ki, onun kimi adi vəzifəlilər qala-qala, yüksək çinlilər tutulmayacaqdı ki. Bu oyuna girəndə ürəyinə necə dammışdısa elə də oldu. Ona və daha üç kişiyə yuxarıların xeyir-duası ilə iş kəsilməklə məsələ bitdi. Əvəzində məhkəmənin qərarında hökm edilsə də, dövlətə dəyən zərərin ödənilməsi üçün onları qısmaboğmaya salmadılar.

Öz nəzərində həbsxanaya düşməsinin səbəbini dövlət pulunu mənimsəməkdə görmürdü. Allah onu ayrı bir günaha görə cəzalandırmışdı. Neçə illərdən bəri ailəsinə, isti ocağına göstərdiyi soyuq münasibətin axırı belə olmalı idi.

Bəkirə ərə gedəndə həyatın nə olduğunu yetərincə anlamırdı. Ailə həyatının ilk beş ilində övladının olmaması, ona çox acılar yaşatdı. Sən demə, Allah çətin günləri bilərəkdən həyatın dəyərini artırmaq üçün yaradıbmış. Bu beş ildə Bəkirlə onun arasında heç bir sevginin olmaması, əksinə, özündəki çatışmazlığı dərk etməkdənsə, Mahirəni gözüqıpıq etmək istəməsi onda hər şeyə ikrah yaratmışdı. Boşanmaq qərarına gəlmişdi. Ata-anası imkan vermədi. Sonra çəkdiyi əzabların mükafatı olaraq Allah ona bir oğul payı verdi. Ömrünü qısmadan oğluna həsr eylədi. Heç nədən korluq çəkməsini qoymadı. Onun xatirinə Bəkirə də hər mənada güzəştə getdi. Oğlunu xaricə oxumağa göndərəndən sonra Bəkirlə münasibətləri yenidən kəskinləşdi. Bu səbəbdən onunla yanaşı evə qarşı da münasibəti soyuqlaşdı. Bütün fikrini, qayğısını işinə yönəltdi. Çoxlu pul qazanmağı, oğlunun, özünün gələcəyini təmin etməyi qarşısına məqsəd qoydu. İşdə fəallığı ilə seçildi. İti ağlı, təşəbbüskarlığı yuxarıdakıların da diqqətini cəlb etdi. Onu irəli çəkdilər. Məşğuliyyət dairəsi də genişləndi. Kompaniyalar, şirkətlər, konfranslar, simpoziumlar müxtəlif təşkilatlarla saysız-hesabsız iş bağlantıları... Həyatının zənginlik dövrü başlamışdı, bahalı hədiyyələr, səyahətlər, xarici maşınlar... Rəsmən olmasa da, Bəkirdən demək olar ki, ayrılmışdı. Mərkəzdə tək otaq kirələyib, ayrı yaşayırdı. Heç kimi sevmirdi, sevmək xəyalında da deyildi. Xoşuna gələn kişilərlə yaxınlıq, kişi kimi dostluq etməyi sevirdi. Başa düşürdü ki, bu parıltılı həyat uzun sürməyəcək. Çünki qoşulduğu oyunda özünü müdafiəsiz, arxasız fiqur olduğunu bilirdi. Belə fiqur adətən oyun gərginləşəndə taxtadan ilk kənarlaşdırılanlardan olurdu. Ona görə də ağına-bozuna baxmadan, yolunun qurtaracağına qədər əlinə düşən imkanlardan yararlanmağa çalışırdı. Ürəyinə gələn başına gəldi. Az keçmədi, günlərin birində dövlət əmlakını mənimsəyən mütəşəkkil dəstənin fəal üzvlrindən biri hesab

olunub, həbs edildi. Həbs olunandan sonra Bəkir yanına tez-tez gəlib getdi. Bəkir tək yaşayandan bəri xeyli qocalmışdı. Arıqlamış, saçları ağarmışdı. Keçmişdə etdiyi hərəkətə görə Mahirədən bağışlanmasını yalvardı. Təəssüf ki, artıq gec idi. Olan olmuşdu, ömür keçmişdi. Bağışlasa belə, sınan ürəyi onu təzədən sevə bilməyəcəkdi. Hərdən ərinə yazığı gəlirdi, onu əzizləmək, qucaqlamaq istəyirdi, ömrünün hansısa çağında istifadə etdiyi lazımlı əşyası və ya qayğıya ehtiyacı olan pişiyi kimi. Hər halda o, oğlunun atası idi. Onu, evini atmasında, özbaşına yaşamasında yəqin ki, Allahın bağışlamadığı səhvlərə yol vermişdi...

Səhəri gün nədənsə Səbirə görsənmirdi. Günorta marağını gizlədə bilməyən Zinyət Mahirə xanımın yanında gileyləndi:

- Səbirə dünən mənə yoldaşlıq edirdi. Bu gün isə səhərdən gözə dəymir. Nə olub ona, hara yox olub?

Mahirə xanım güldü:

- Aaa.., onun dərdindən xəbərin yoxdu? Sevir də...

- Ola bilməz. Kimi? Onun da cütü var?

- Yox, ay qız, o, kişi sevir. Sex rəisini.

- Ötən gecə məsul növbətçi olanı?

- Düz tapmısan. Tay-tayını tapar, ikisi də bir ağıldadır.

Zinyət o gecə Səbirənin uzun müddət yatağında olmamasının, səhər yoxlamasında nazlana-nazlana durmasının səbəbini indi başa düşdü:

- Doğrudan sevirlər bir-birini?

- Kim bilir. Səbirədən kim baş aça bilər. Zabitin ailəsi var. Bəlkə də arvadı bilmir. Bilsə başına oyun açar. Ağılsızlığı ondadır ki, əzəl gündən Səbirəyə «rədd ol» komandasını vermədi, guya centlemendi. Səbirə də otağına gələ-gedə, hamıya bəyan etdi ki, sevirəm. «Sevgi azaddı, onu heç kim qadağan edə bilməz. Nə olsun ki, o zabit, mən məhkumam. Mən sevgisiz yaşaya bilmərəm, onu olmasa da kimisə sevməli idim.» Odu-budu, gecə-gündüz sexdən bayıra çıxmır. Xəbərdarlıq da edib ki, biləm mənə şərik olmaq istəyən var, özündən küssün. Hə, dünən o zabit növbədən sonra evinə getdiyi üçün

darıxdığından Səbirə sənə yoldaşlıq edib, bu gün sevimlisi işə gəldiyinə görə səni unudub.

- Aydındır, başa düşdüm, - Zinyət razılıqla başını tərpətdi.

- Qulaq as, sənə bir söz deyim, yadında saxla. Ona hər sirri açıb danışma ha... Səbirə bildi, hesab eylə ki, bütün zon bildi. Çünki onun «geniş ürəyində» hamıya yer var, hamı ilə dostdur.

Nə yaxşı ki, dünən mənə danışmağa aman vermədi, - Zinyət fikirləşdi - həyatımdan danışsaydım, ağzımdan gərəksiz söz qaçıracaqdım.

- Səbirədən qeyri də kişi zabitləri sevən məhkumlar var?

- Təbii ki! Püstəni tanıyırsan? O rəisin müavinlərindən biri ilə sevişir. Səbirə kimi haray salmayıb gizlin saxlamağa çalışsa da, deyirlər bir neçə dəfə onu müavinlə öpüşüb qucaqlaşan görüblər.

Zinyət düşünmədən qeyzləndi:

- Kişini başa düşdük ki, kişidir. Bəs bu həyasızlar utanmırlar, sabah çölə nə üzlə çıxacaqlar?

- Əsəbiləşmə boş yerə. Əvvələn, burda çox kişi zabit işləmir, ikincisi də qadınlar kimi onların da bərki, boşu var, hamısı bir ağılda deyil. Elə işçilər olub ki, nəinki məhkum, heç qadın həmkarları ilə də adı hallanmayıb.

Zinyət maraqlandı:

- Deyirsən, işçilər arasında da məhəbbət macəraları baş verir?

- Bəli, niyə də yox? Könülə qadağa yoxdur. Şayiəsi də olur, həqiqəti də. Bir də ki, istənilən qadına get yalandan söylə ki, səndən filan kişinin xoşu gəlir, üzdə bildirməsə də, ürəyində sevinəcək. Nədən utanmalıdır? Əksəriyyətinin onsuz da həyatı pozulub. O qapıdan içəri ayaq basdınsa, istər bir ay olsun, istər on il olsun, adın türmədə yatandır. Kişi tərəfindən istənildiyini hiss edən qadın üçün elə bil zülmətdə işıq közərmiş olur. Utanmaq nədir, əksinə fəxr edirlər, lovğalanırlar ki, türmədə də onları qadın sayan var. Hələ harasıdır, aralarında bəziləri vurulduğu

«ofiserlərdən» etinasızlıq görəndə yandıqlarından «kişi deyil» deyirlər. Rəhmətliyin qızı, nə itirib, nə axtarırsan. Hələ bunların içində qadın zabitlərə də aşiq olanları var.

- Ay Allah, mən daha heyrətlənməkdən yoruldum. Nə qədər qəribə işlər baş verir burada, - Zinyət başını əlləri arasına aldı.

- Səbirə sayağı birisi var – Vüsalə. Qadın zabitlərdən birinin yanından əl çəkmir. Başqa birisi öz dəstə rəisinə tez-tez sevgi məktubları yazır. Ona görə deyirlər ki, eh qadınlar, qadınlar... Sizin ürəyinizi heç şeytan da bilə bilməz.

- Azadlıqda bu «vurğunlar» güman ki, öz ərlərini belə sevməyiblər.

- Heç şübhəsiz. Sevsəydilər türməyə düşməzdilər. Başları qarışardı ailələrinə, daha qəlblərinə pis niyyətlər yol açmazdı. Soruşsan kimsə özünü təqsirli saymayacaq. Açığı, içi biz qarışıq, çoxu ailəsi ilə lazım olan münasibəti qurmağı bacarmamasının, ya da qurmaq istəməməsinin cəzasını çəkir. Cəza evindəki məhkumların təqribən hər dörd nəfərdən birisi bir yastığa baş qoyduğu insanı tək və ya kömək vasitəsilə öldürmüşdür. Səbəb nədir? Sadəcə, yolunu azmaq, bu yolda əngəl olacaq insandan canını qurtarmaq. Mən ötən beş ildə belələrinin əksəriyyəti ilə ayrı-ayrılıqda maraq naminə söhbət etmişəm və həmişə də heyrətlənmişəm. Bu adamlar vicdan əzabı çəkməkdən uzaqdırlar. Yadımda olanlardan bir neçəsini misal çəkim. Biləndə özün də məəttəl qalacaqsan ki, indi özlərini gör necə əməli-saleh göstərirlər. Yeməkxanadakı aşpaz Əfilə. Yuxulu ərini bıçaqla öldürüb, sonra da yandırmaq istəyib. Etdiyini boynuna almır. Çayçı Səltənət. Beş uşaq anası. Özündən cavan oğlanı qızının nişanlısı adı ilə evə salıb gizlin aşnalıq etməyi azmış, əri aradan götürmək qərarına gəlir. Bir gün əri yuxuda olanda aşnası ilə köməkləşib çəkiclə öldürüb. Dəhşətlisi odur ki, səsə yuxudan ayılan uşaqlar atalarının vəhşicəsinə öldürülməsinin şahidi olublar. Ətürpədicidir. Lakin, o səhnəni xatırlayanda Səltənət xəcalət çəkməkdənsə yersiz, bayağı ifadələrlə lağlağı edərək əməlinə haqq qazan-dırır. Hələ özünü balalarından ayrı düşmüş yazıq ana kimi

aparır. Nə ana? O uşaqlar inanmıran onu gələcəkdə qəbul etsinlər. Sonra, televiziya otağına baxan Xavərin əri uzun müddət Rusiyada işləsə də, arabir evinə gələndə arvadının azdığını hiss edib, düz yola qaytarmaq istəyir. Xavər «qoçaq» bir gecə onu balta ilə öldürüb, həyətdə basdırır. Hamıya da deyir ki, yoldaşı təcili Rusiyaya gedib. Məsələnin üstü iki ildən sonra təsadüfən açılır. İki il rahat yatıb duran qadın, bu gün təəssüf hissi keçirmir. Və yaxud ana və bala Şamilovalar. Gəzdikləri iki cavan oğlanla razılığa gələrək evin kişisini yatarkən öldürüb, sonra da yandırıb çalaya basdırırlar. Həmin gecəni kabab bişirib yeyib-içməklə qeyd edirlər, səhəri kişinin xaricə getdiyini deyirlər. Zonun qazanxanasında işləyən Nadya ərinə qoşulub Azərbaycana gəlir. Kişi orda sərxoşluğa qurşandığından burda da içməyə davam edir. Ərinin alkaşlıq etdiyini görən qonşu oğlan Nadyaya girişir, nəhayət bir gün köməkləşib kişini öldürüb basdırırlar. Hadisəni görən balaca oğlu polisə xəbər verən gündən, indiyədək özünü günahkar hiss etmir. Həyəti süpürən «yumru» Səmayəni tanıyırsan? Aşnası ilə rahat görüşməyə maneçilik törətdiyinə görə gərəksiz hesab etdiyi ərinin yeməyinə siçan dərmanı qatır. Müəmmalı ölümdən şübhələnən qohumları meyiti yoxlatdıqdan sonra Səmayənin əməli aşkara çıxsa da, hərəkətindən heç də peşman deyil. Hansını deyim, bu adamların pozulmaq niyyəti olmasaydı, belə faciələr baş verərdimi? Onların indi günahsız mələk donuna girmələrinə inanmaq sadəlövhlükdür. Gör biz kimlərin əhatəsində cəza çəkirik...

***

Kişilərdə olduğu kimi, adam öldürmə maddəsi ilə məhkum olunanların içərisində namusu hər şeydən üstün bilib, uca tutan, həyatından qiymətli sayan qadınlar da var idi. Belələrinə öz aralarında böyük fərq qoyulmasa da, müəssisəsinin işçiləri tərəfindən xüsusi münasibət bəslənilirdi. Əri tərəfindən qumara qoyulduğu üçün və ya açıq xəyanətə görə ərini öldürən, dəfələrlə edilən xəbərdarlığa əhəmiyyət verməyərək, yad

kişilərlə gəzdiyinə görə bacısını zəhərləyib və ya boğub öldürən, şərəfsizliyi qəbul edə bilməyənlər, nə yaxşı ki, az da olsa, hələ tapılırdı. Hətta bir neçəsi müntəzəm, zorakı qeyri-təbii cinsi əlaqəyə dözməyib ərlərini yatdığı yerdə baltalamışdılar.

Adam öldürmə cəzasına məhkum olunmuş qadınların böyük əksəriyyəti ərlərini öldürən olmasına baxmayaraq, aralarında tamah məqsədilə kimisə qətlə yetirən və ya dəstə içərisində ölümlərin törədilməsində iştirak edən qadınlar da az deyildi. Beləlari əsasən gəzəyənlikdən savayı, hadisə ərəfəsində narkotikadan və alkoqoldan istifadə edənlər idi.

Əksəriyyətinin nəzərində müxtəlif kişilərlə nigahdankənar «gəzib aylanmaq» fahişəlik hesab olunmurdu. Hətta, bu adi pis vərdişə bərabər tutulurdu. Yalnız siflisə yoluxub uzun müddət müalicə keçənləri, bədənlərini hər yetənə pula satmışları fahişələrə aid etmək doğru sayılırdı.

Siflisə yoluxanlardan bir qismi həm də narkomaniyadan əziyyət çəkirdi. Müalicə kursu keçmələrinə baxmayaraq, çoxu azadlığa çıxan kimi təkrar narkotikaya qurşanıb, yenidən iş alıb zonaya qayıdırdılar. Burada isə narkotika əldə etmək çətin olduğundan, əllərinə pul düşəndə nəzarətçilərlə dostluq yaradıb gizlin gətirtdikləri dərmanlarla azarlarını öldürürdülər.

Məhkumların böyük bir hissəsi dələduzlar – yəni etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirənlər idi. Mehriban, xoş qılıqlı, tükü-tükdən seçən bu xanımların «qurbanları» avam, sadəlövh adamlarla yanaşı, az xərclə çox qazanmaq, irəli düşmək, heç nədən varlanmaq istəyən tamahkarlar da olurdu. Onlar, başqa insanlardan fərqli olaraq, tamahkarı tez təyin edib, etibarını qazanmaqla öz şikarına çevirirdilər. Özlərini vəzifəli şəxslərə yaxın adam kimi təqdim edib daşınmaz əmlak alveri edənlər, iş yeri, vəzifə düzəldənlər, xaricdə cənnət vəd edənlər elə mələk cildinə girməyi bacarırdılar ki, təəccüblənməmək mümkün deyildi.

Dələduzların ən yaşlısı və təcrübəlisi zonun avtoriteti sayılan Zəhra xanım idi. Ali hüquq təhsili alan Zəhranı keçmiş Sovet dövlətinin altı ölkəsində üst-üstə on yeddi dəfə həbs

etmişdilər. Ömrünün qırx ilini həbsdə keçirmişdi.O, iyirmi dörd yaşından sonra beş dəfə ayrı-ayrı vaxtlarda amnistiyaya düşüb, azadlıqda ən çoxu bir il tab gətirmişdi. Yaşı yetmişi haqlayan Zəhra ağlını itirmədiyindən həmişəki kimi məhkumların müşkül işlərinin asanlaşdırılmasında məsləhət verir, rəhbərliklə münasibət yaradır, ağbirçəklik edirdi. Bu missiyasına görə rəhbərlik də ona normal şərait yaradır, lazımi qayğı göstərirdi. Ayrı barakda yaşayan avtoritet xanımın məişət çətinlikləri yox dərəcəsində idi. Cinayət aləmində özünə görə hörməti olan Zəhraya digər kişi zonlarından, lotulardan bəzən «qrev» də gəlirdi.

Zəhra qanunu yaxşı bildiyi üçün gənc yaşlarından xırım-xırda cinayətlərə görə deyil, ölkə əhəmiyyətli maliyyə fırıldıqlarında təqsirləndirilmişdi. Sanki, gözəgörünməz qüvvə belə işlərin həllinldə ondan «desant» kimi istifadə etmiş, sonra da cəzadan çox, təhlükəsizliyini qorumaq məqsədiylə həbsə saldırmışdır. Getdikcə peşəkarlaşan Zəhra yaşlaşanda da adətkara çevrildiyindən bütün bilik və bacarığından faydalanmaqla adamların etibarından sui-istifadə etməkdə davam etmişdir.

Müəssisə rəhbərliyi məhkumlara Zəhranın "müdrik" məsləhətlərini dinləməyi məsləhət görsə də, işləyən məhkumlara böyüklüyü briqadir seçilən Azadəyə vermişdi. Orta yaşlı, dolu bədənli Azadə üçüncü dəfə idi ki, dələduzluğa görə mühakimə olunmuşdu. Rəisin dəstəyi ilə göstəriş verib tələb etməyi bacaran Azadəyə də Zəhrasayaq müəyyən güzəşt və imtiyazlar verilmişdi. Özünün orta savadı və diribaşlığına baxmayaraq, bəzi ağzıgöyçəklər onun briqadir seçilməsini «yuxarıdan» tapşırıldığını güman edirdi. Çünki, kefinin xoş çağında kiçik briqadirləri başına yığıb söhbətləşəndə gəncliyində indi Baş idarədə işləyən bir əməliyyatçı kişi ilə yatağa girməyindən fəxrlə söz açmışdı. Sözbazlar həmin an o sözə əsaslanıb Azadənin arxalı olduğunu uydurmuşdular.

Məhkumların müəssisədənkənar aləmlə əlaqələri əsasən yatabdan və görüşə çıxmaqdan ibarət idi. Əgər hər həftə bir neçə nəfər cəza müddəti başa çatıb azadlığa çıxırdısa, təqribən bir o qədər də yeni məhkum istintaq təcridxanalarından etap

olunub gedənlərin yerini tutardı. Təcili yardım gərək olmazsa, müayinə və müalicəyə cəlb edilənləri həftədə bir gün məhkumların mərkəzi xəstəxanasına komvoy maşınında aparıb gətirirdilər. Xəstələri həkim Lətafət müəyyən edirdi. Gedənlər içərisində, əsl xəstələrdən əlavə, Lətafət xanımın «hörmətini» edib, «havasını dəyişmək» istəyənlər də olurdu. Bunlar əsasən, Zəhranın təbirincə desək, «könüllərinə kişi düşənlər» idi. Belə ki, mərkəzi xəstəxana onlar üçün cinayət törədərkən tərəfdaş olan və ya sonradan tanış olduqları kişi məhkumlarla görüşməyə münasib yer idi.

Müəssisəyə girişdə yerləşən görüş otaqlarında yanlarına gələn yaxın adamlarla bir neçə saatlıq görüşə icazə verilirdi. Gələnlərin əksəriyyəti isə analar idi. Bir dəfə Zinyət bu barədə maraqlanıb Mahirə xanımdan soruşdu:

- Siz bilərsiz, görüşə kiminsə əri gələrsə, heç olmasa bir gecəlik görüşə icazə verilir? Mən neçə vaxtdır burdayam, əri ilə görüşə çıxanı görməmişəm.

Mahirənin həmişəyaşar təbəssümü üzünə qondu:

- Gələn oldu ki, icazə vermədilər? Əlbəttə, icazə var. Gəl ki, bura düşənlərin əlli faizinin gələndə evliliyi olmur, qırx faizini də tutulandan sonra ərləri boşayır. Qalır on faizi, onlar da hərdənbir, necə deyərlər bayramdan-bayrama gəlirlər. Ərləri bir yana, oğuldan-qızdan, ya qardaşdan-bacıdan axtaranı olur ki? Təsadüfən!.. Anadan başqa kim gəlir?..

Zinyət yaxınlaşıb utana-utana qulağına pıçıldadı:

- Bəs doğrudurmu, gətirilən ərzaqların içində kolbasa və ya forması ona oxşayanları içəri buraxmırlar?

Mahirə gülməkdən uğundu:

- Bunu sənə kim deyib? Mən biləni yazılı elə göstəriş yoxdur. Əgər şübhələnsələr ki, yeməkdən savayı niyyət var, o halda doğranmış şəkildə buraxırlar. Yenə sualın var? Maşallah, hər şeylə maraqlanırsan…

- Olsa soruşaram. Kitabxanaçı deyilsən, səndən soruşmayıb, kimdən soruşacağam? - Zinyət də gülə-gülə onun zarafatına qoşuldu.

***

Bir gün nahar təzəcə qurtarmışdı. Zinyəti əməliyyatçı xanımın otağına çağırdılar. Xeyirdimi, görəsən? Niyə çağırır? Daxilini narahatlıq bürüdü. Nahidə adlı bu zabit xanımdan məhkumların, demək olar ki, qəlbən xoşu gələni yox idi. Deyəsən elə həmkarları da onu çox xoşlamırdılar. Hər işə baş vuran, gözə soxan bu xanım xəyalında özünü müəssisənin ikinci böyüyü hesab edirdi. Öz fikrincə heç demə o biri zabitlər işləmirmiş, bütün müəssisədəki əmin-amanlıq onun fəaliyyətinin nəticəsi idi. Həqiqətdə isə bildiyi fəndlərlə ətrafına yığmış məhkumlar vasitəsilə qadınlar arasında olan bütün hadisələrə, söhbətlərə ağlıkəsdiyi qaydada təsir edib, istədiyi məcraya yönəldərək bir çox şayiələrin, dedi-qoduların qol-qanad açmasına, hətta «yuxarılara» gedib çatmasına şərait yaradırdı. Cavanlığında karateist olduğunu iddia edən, Səbirənin «dostluq etdiyi», çiynində üç kiçik ulduzu olan bu zabit qadın bəzən ipə-sapa yatmayan məhkumları otağına çəkib bildiyi fəndlərlə «yumşaldırdı».

Olmaya onun haqqında nəsə çatdırıblar? Zinyət əməliyyatçının otrağına gedən yol boyu narahatlıqla düşünürdü. Son günlər yoldaşlıq etdiyi qadınları, danışdığı sözləri sürətlə beynində xatırladı. Gərək ki, o, hərəkətlərində adına xələl gətirən heç nə etməmişdi.

Çəkinə-çəkinə qapını döydü:

- Gəlmək olar?

- Gəl, - zabitəli baxışlarla baş-ayaq süzüb içəri dəvət edən Nahidə xanım stolunun üzərinə səpələnmiş kağız-kuğuzdan çox qarşısındakı enli boşqaba qalaqlanmış mer-meyvənin çərəzi ilə məşğul idi. Səbirə demişkən, axır vaxtlar xeyli kökəldiyindən o, doğrudan da ağırlıq qaldırana «ştangistə» bənzəyirdi.

- Nahidə xanım, məni çağırtdırmısınız?

- Yaxın gəl,- çərəzini saxlayıb stolun üstündəki kağızlardan birini əlinə götürdü, - de görüm bu Əziz nəmənə Əzizdir. Ərciyəzindir?

Əziz adını eşitcək həyəcandan Ziniyətin boğazı qurudu. Yəqin Əzizdən nəsə xəbər var, görən başına nə iş gəlib? Ağlına gələn qorxulu fikirlərdən ürəyi döyündü:

- Bağışlayın, Nahidə xanım, yoldaşımdı… Başqa Əziz adında tanışım, qohumum yoxdur. Necə bəyəm, yoxsa başına bir iş gəlib?

- Qorxma, salamatlıqdır – əlindəki açıq zərfi Zinyətə uzatdı, - «bəxtəvər» sənə məktub yazıb… apar oxu, cavab yazsan, gətir mənə yoxlayım, sonra göndərərəm. Məhkumun özbaşına yoxlanılmamış məktub göndərməsinə icazə verilmir! Bildin?

Zinyət dinməyib başını tərpətdi.

- Hə, onda xoş getdin.

- Çox sağ olun, - deyib, əməliyyatçının istehzalı baxışlarını görmək istəməyən Zinyət tələsdiyindən qapını örtəndə az qala əlini əzəcəkdi.

- Yavaş, neynirsən, sevincindən əlini şikəst edəcəkdin.

O, Nahidənin gülüşünə əhəmiyyət verməyib, özünü bayıra atdı. Xəlvəti guşə axtarıb, səbirsizliklə məktubu oxumaq istədi. «Görəsən nə yazıb, - fikirləşdi, - dustaq dustağa nə yaza bilər ki? Məktubu, yəqin ki, orda da yoxlayıblar. Özgə adamların oxuya biləcəyi kağıza nə yazmaq olar?»

Yer tapmağa səbri çatmadı. Zərfin içindən çıxan tək bir vərəqdəki tanış xətti görüncə ürəyi əsdi, yolun içində addımını saxlayıb, yaxınlıqdakı divara qısılaraq acgözlüklə oxudu:

«Zinyət, salam. Necəsən? Ümumi vəziyyətin necədir? Niyə məktub yazmırsan? Yəqin necə yazmağı bilmirsən, ya da bilmirsən ki, nə yazasan? Elə-belə iki-üç adi cümlə yaz, göndər. Bilsən sənin xəttinlə yazılmış, əlin dəyən, nəfəsin toxunan kağız parçasına da necə böyük ehtiyacım var. Bəzən elə darıxıram, lap dəli olmağım gəlir. Elə bilirəm ki, biz bir daha görüşməyəcəyik. Sonra doğulacaq körpəmizi xatırlayıb xoş ümidlərə qapılıram. Səbirsizliklə onun dünyaya gələcək günü gözləyirəm. Mənə mütləq xəbər ver ha, yaxşımı… Har-dan olsa bir parça kağız tap, məktub yaz, mənə göndər. Mən yaxşıyam. Mənə görə heç vaxt narahat olma. Gün gələr, bu

əzablı günlərimiz sona yetər, yenə görüşərik, bir yerdə olarıq. Sağ ol. Hələlik. Sənin Əzizin!»

Zinyətin gözləri yaşardı: «Daş düşəydi səni sevdiyim günə. Bilsəydim bu qədər əzablar, bəlalar çəkəcəyəm, qoymazdım qəlbimə girəsən. Daha gecdir. Dünya başıma uçsa da səni sevməyə məhkumam. Sevgi məhkumu…» Kimsə görməsin deyə yaş gözlərini barmaqları ilə silib zərfi sinəsinə sıxdı. Məktubu yenidən təkrar-təkrar oxumaq üçün sakit bir guşə tapmaq məqsədiylə yaşayış zonasına tərəf yeyin-yeiyin addımladı.

***

Barakda qalan məhkumlar arasında qonşu cərgənin üçüncü çarpayısında yatan Fərqanə başqalarının etmədiyi qəribə hərəkətləri və baxışları ilə ilk gündən Zinyətin də diqqətini cəlb etmişdi. Cavan, boylu-buxunlu, nisbətən yaraşıqlı, sənətdə özünü tanıda bilməyən, keçmiş aktrisa olan bu qadın hamıya qarşı soyuq, daim fikirli, qaş-qabaqlı dolaşar, kimsəyə qaynayıb-qarışmazdı. Ətrafındakılara, yaşadığı mühitə nə qədər biganə olsa da, bir qayda olaraq hər gün axşam tərəfi harasa getməyə hazırlaşırmış kimi saatlarla güzgü qarşısında oturub telinə, üz-gözünə sığal çəkib ətirlənərdi. Təzə-təzə hamını maraq götürərdi: Görəsən kiminlə görüşə hazırlaşır?

Sonralar xəlvət, sakit bir guşədə oturub nəzərlərini naməlum səmtə dikib donduğunu, ya da öz-özünə pıçıltı ilə danışmasını görənlər onun bu qəribəliyinə öyrəşdilər.

Yeniyetmə çağında yaşadığı şəhərin gözəllik müsabiqələrinin birində miss foto seçilən Fərqanə o vaxtdan kosmetikadan gündəlik istifadəni adi həyat tərzinə çevirmişdi.

Gözəlliyinə güvənib ağlasığmaz xəyallarla yaşayan Fərqanəni çox keçməmiş uğursuzluq yaxalamışdı. Gözlənilmədən yaranan qan təzyiqi xəstəliyi yaraşığı ilə yanaşı xasiyyətində də dəyişiklilər əmələ gətirdi. Şöhrətlənmək məqsədiylə aktrisalıq eşqinə düşsə də, istedadının azlığı aydın olanda çox üzüldü. O, günahı özündən artıq bəxtində gördü. Taleyinin

bədliyindən vaxtında gözəlliyini qiymətləndirən, qədrini bilən rejissor qarşısına çıxmadı. Bəxtini bir daha sınamaq üçün, müğənnilik etməyə də cəhd göstərdi.

Məlahətli səsinin olmaması bir yana, lazımi maliyyə cəhətdən kömək edənin tapılmaması da ona sənətdə tanınmasına imkan vermirdi. Şəhərdəki bütün pullu, imkanlı kişilərin gözünə kül olmuşdu, elə bil onu görən yox idi. Belə olanda qan təzyiqi artmayıb, neyləsin? Bəxti gətirib, yüksək vəzifəli arxa tapıb, uğur qazanan, adı dillərə düşən həmyaşıd həmkarlarını görəndə paxıllıqdan bilmirdi nə etsin. Kimsəsiz bir yerə çəkilib saatlarla düşünür, qəmdən içini yeyirdi. Onu uğursuzluqlar zaman-zaman insanlardan soyuqlaşdırmış, yadlaşdırmışdı.

Tələbəlik vaxtı müəllimlərinin tez-tez söylədiyi «sənət qurban tələb edir» sözlərini həyat devizinə çevirdiyindən, bəzən, özünü dəyərsiz qurban sayırdı. Sənət naminə bir neçə il özünü ondan xeyli böyük rejissorla qeyri-qanuni evliliyə sövq etdi. Hansısa həmyaşıdı ilə xoşbəxt ailə quracağına onsuz da ümidi qalmamışdı. Bu icdivacdan qazancı isə tamaşalardakı dəyərsiz rollardan əlavə, qızı və birotaqlı darısqal mənzili idi.

Son illər yaşlı rejissor olan Hüseynağa müəllim tez-tez xəstələnib işə çıxa bilmədiyindən onun da yanına qonaq gec-gec gəlirdi. Günlərin birində təsadüf nəticəsində bir hərbçi zabitlə tanış oldu. Adi tanışlıq qarşılıqlı yaxınlaşma nəticəsində günü-gündən xoş tələbata çevrildi. Malik adlı bu cavan kişinin ailəli olması, şübhəsiz, məlum idi. Malikin yaşlı rejissordan fərqli isti münasibəti, enerjili bədəni, heç nədən çəkinmədən tez-tez gəlməsi, özünü onun əlavə kəbinsiz ailəsi kimi hiss etməyə vadar edirdi. Həyatda hələ ki, uğurlu ailə tərəfdaşını tapmadığından təzə tanışından iki əlli yapışmağa dəyərdi.

Qızı Aygünü nə qədər körpə idi, anasına yalvar-yaxar edib saxlatdırdı. Böyüyüb məktəb yaşına çatanda nə anası saxlamaq istədi, nə də qız nənəsinin yanında qalmaq istəmədi.

Aygünün onunla birgə yaşaması işində müəyyən çətinliklər yaratsa da birotaqlı mənzilini elə bil işıqlandırmışdı. Bu binaya köçəndən bəri taleyinin uğursuz məqamlarına görə utanıb, bütün yaxın dost-tanışından qaçdığı kimi qonşularından

da hər vəchlə özünü kənar tuturdu. Daim kimliyinin, həyatının çatışmamazlıqlarının üstü açılacağından ehtiyatlanırdı. Balaca Aygünün çılğınlığı qapalı həyata öyrəşmək istəməyib qonşu uşaqlarına qaynayıb qarışması onu həm sevindirir, həm də daimə əndişələndiyi qorxuları ürəyinə doldururdu. Bilirdi ki, özünü nə qədər təcrid etsə də, ötən illər ərzində qonşuları onun haqqında az da olsa xoş olmayan məlumata malik idilər.

Böyüdükcə Aygünün gözləmədiyi suallar verməsi, onun barəsində hər şeyi öyrənmək istəməsi, atasını soruşması Fərqanəni hövsələdən çıxarırdı. Onsuz da Aygün gec, ya tez keçmiş həyatının bütün əyər-əskiyini biləcəkdi. Amma çox erkən, hələ uşaq ikən qızının həyatın acılarından xəbərdar olmasını, nə isə anlamasını heç cürə qəbul etmək istəmirdi. Bunun üçün boş vaxtının hamısını qızı ilə keçirib onu mümkün qədər kənar adamlarla münasibətdən yayındırırdı. Ömründə qızından əziz bir kimsəsi olmayan Fərqanə canı qədər sevdiyi övladından ötrü hər əzaba, çətinliyə hazır idi. Heç kim ona güldən ağır söz deyə bilməzdi. Əgər desəydi, Fərqanə kimliyindən, yəni uşaq və ya böyük olmasından asılı olmayaraq yetərincə cavabını verməli idi. Yoxsa hikkəsindən partlayıb ölərdi. Nə etsin, gözünün ağı-qarası, bircə balasını o da belə sevirdi.

Hərdən ona elə gəlirdi ki, qızına olan istəyi bir gün başına oyun açacaq. Hər şeyin həddi olduğu kimi bu istəyin də artıqlığı heç də xeyirli olmayacaqdı. Əksinə, nə zamansa faciəyə aparıb çıxaracaqdı. Eytiyatlansa da nəticə çıxarmadığından, günlərin birində gümanı təsdiqləndi. Qızına olan istəkdənmi, yoxsa onu anlamayan, yaxşı gözlə baxmayan insanlara nifrətindən, acığındanmı bir kəlmə sözün ucbatından cinayətkara çevrildi.

Hadisə belə baş vermişdi. Bir axşam həyətdə yaşıdları ilə oynayan Aygün evə fikirli qayıtmışdı. Qızının başqa günlərdən fərqli olaraq danışıb gülməməsi, yeməyi iştahsız yeməsi, kefinin olmaması Fərqanənin gözündən yayınmadı. Görəsən qıza nə olub, - ürəyində təlaş keçirdi.

- Qızım, gözümə yaxşı dəymirsən, de görüm sənə nə olub?

- Heç nə ana, heç nə olmayıb.

- Heç nə olmayıbsa, bəs niyə kefin yoxdur? Mısmırığını sallamısan. Bəlkə xətrinə dəyən olub? Olubsa, de. Baxmaram kimliyinə, qızımın xətrinə dəyənin canını alaram.

Aygün sussa da sözlü adama oxşayırdı. Görünür nədən başlamağı qərarlaşdıra bilmirdi. İçində bir tərəddüd var idi. Belə halda onu çox sıxmağa dəyməzdi. Xasiyyətinə bələd olduğundan xoş söhbət edib könlünün açılmasını gözləyirdi. Düşündüyü kimi bir xeyli söhbətdən sonra Aygün qəribə, gözlənilməyən sual verdi:

- Ana, gəzəyən qadın necə olur?

Fərqanəni heyrət bürüdü. Bu nə sualdır qızı ona verirdi? Belə sual onda hardan yaranmışdı? Kimdən öyrənmişidi bu sözü?

- Qızım, sən hələ uşaqsan. Bu sözü hardan eşitmisən? Kim deyib sənə?

Aygün sualdan yayınmaq məqsədi ilə baxışlarını kənara qaçırtdı. Sual cavabsız qaldı. Fərqanə ani fasilədən sonra sözünə davam etmək istəyirdi, qızı gözlərinin içinə baxaraq daha bir yeni sual verdi:

- Ana, doğrudur sən gəzəyənsən?

Ona elə gəldi ki, yer ayaqlarının altından qaçdı, başı hərləndi, kürəyini bir neçə saniyə divara söykəyib durdu. Nitqi necə tutuldusa, dizləri də sustaldı. İki qısa addım atıb yaxınlıqdakı kətilin üstünə çökdü. Başı elə bil havalanmışdı, nə danışacağını ağlında qərarlaşdıra bilmədi. İlahi, bu nə sarsaq vəziyyət idi düşmüşdü, qızının qarşısında? Nə cavab versin ona? Heç zaman düşünməzdi ki, nə vaxtsa doğma balası ondan belə bir söz soruşar. Bəs, balaca qızın ağlına belə sözlər, fikirlər hardan əmələ gəlib? Özbaşına ola bilməz. Kiminsə mütləq ona təsiri olub. Görəsən kimin? Hər hal onu xoşlamayan, hörmət etməyən adamdır ki, qızına da anası haqqında pis təsəvvür yaratmağa çalışıb. İndi Aygünə nə cavab versin? Sözün mənbəyini öyrənməmişdən qabaq qızına gərək qaneedici cavab verməliydi.

- Qızım, bu nə sözdür anana deyirsən?

Aygün anasının haldan-hala düşməsindən özünü itirib deməyinə peşiman olmuşdu. Bilsəydi ki, verəcəyi suallar anasına belə təsir edəcək, marağını saxlayıb dilini dinc qoyardı. Qınayıcı baxışlara tab gətirməyib, başını yerə dikdi.

- Qızım, sən indii balacasan, ağlın kəsməz, tam dərk edə bilməzsən verdiyin sualı. Desənə bu tərbiyəsiz sözü kimdən eşitmisən. Əgər anlasaydın belə sözü soruşmaq nədir, heç ağzına almazdın. Kədərlənmə, eybi yox, böyüyərsən, hər şeyi başa düşərsən. Onda biləcəksən ki, gəzəyən kimlərə deyirlər…

- Bağışla ana, mən bilmirdim bu söz tərbiyəsizdir, - Aygün anasına sığınıb ağlamsındı.

Cavabdan yayınıb cansıxıcı əzabdan canının qurtarmasına sevinən Fərqanə Aygünü sinəsinə sıxıb başını tumarladı.

- Canın sağ olsun, qəm eləmə. Sən gəl anana düzünü de, kim dedi ki, anan gəzəyəndir? Hə? Mən sənin ananam axı, gərək hər şeyi biləm. Hə, de görüm.

Aygün gizlətmək istəsə də, anasının təkidi qarşısında davam gətirə bilməyəcəyindən demək məcburiyyətində idi.

- Qonşunun oğlu Niyaz.

- Hansı qonşunun?

- Üzbəüz qonşu var ha, o, mənə dedi ki, sənin anan gəzəyəndir.

- Nə vaxt dedi? Bu gün?

- Yox, dünən axşam…

- Uşaqların içində dedi?

- Hə, topu istədi, vermədim, o da hirslənib elə dedi.

- Sən nə dedin?

- Mən? Mən dedim ki, nə olsun, kim gəzmir, hamımız gəzirik də, sonra güldü, dedi ki, yox e, sənin anan pis arvaddır, gəzəyəndir. Bilmədim axı, biədəb söz olmasını, ona görə səndən soruşdum.

- Zərəri yoxdur, baxarıq kimin anası gəzəyəndir, - Fərqanə özünü sakit göstərməyə çalışsa da, içində dəhşətli bir qəzəb hissi baş qaldırmışdı.

Niyaz Aygündən üç-dörd yaş böyük, yeddi-səkkiz yaşlarında olan, qapısı onların qapısı ilə üzbəüz qonşunun oğlu idi. Valideynləri işlədiyindən evdə tək qala bilməyib bütün gününü binanın girişində, həyətdə keçirən, küçə uşağına bənzəyən bu balaca oğlan ilk baxışdan adamda xoş hisslər yaradırdı. Bu yaşda qonşu qadına «gəzəyən» yarlığı vurmaq, əlbəttə, öz düşüncəsinin məhsulu deyildi. Çox güman ki, o bu sözü evdə atasından, anasından eşitmişdi. Qapının hər açılıb örtülməsinə göz qoyan qonşuların Hüseynağadan sonra Malikin də tez-tez gəlib-getməsindən ona xoş nəzərlə baxmamalarını özü də hiss etmişdi. Hər halda nə olursa-olsun, heç kimə haqq verilməmişdi ki, onun qızına anasının necəliyi elan edilsin, xatırlansın. Niyə qızı ona görə utanmalı, əzab çəkməli idi və Niyaz kimi qurumsağın biri hansısa əldə etmədiyi cılız məqsədinin əvəzinə acıq verməliydi. Qızcığazın büllur kimi təmiz qəlbinə isə gərəksiz çat düşməliydi. Bu ədalətsizlik idi. Kimə nə dəxli vardı ki, o, kiminlə gəzir, ya gəzmir? Hərə öz həyatını yaşayırdı, o da öz ömrünü. Necə yaşayardı, özü bilərdi. Məgər insan azad deyildimi? Gərək bütün hərəkətlərini ətrafında olan insanların istək və tələblərinə uyğun etməliydi?

Qızı ilə olan o söhbətdən sonra Niyazın sözü günlərlə fikrindən getmədi. Düşündükcə hirslənir, qəzəbdən nə edəcəyini bilmirdi. Nə etsin? Necə hirsini soyutsun? Evə çağırıb təhqir etsin, ya ata-anasına şikayətlənsin? Yox, belə etsəydi, məsələ daha da böyüyəcəkdi. Bilməyənlər də söhbətin nədən getdiyini biləcəkdilər. Yaxşısı, hələlik susmaq idi. Niyazla bir neçə dəfə həyətdə, pilləkəndə rastlaşmışdı. Uşaq yaxşı ki, başını qaldırıb, onun gözlərindəki nifrəti görməmişdi. Nifrəti o dərəcəyə çatmışdı ki, bəzən yuxularında sayıqlayıb Niyazı öldürəcəyi ilə hədələyirdi. Niyaz isə bütün hədələrinə baxmayaraq, üzünü ona tərəf tutub bütün binanın eşidəcəyi səslə çığırırdı: «Sən «gəzəyənsən!..»» Belə yuxudan sonra yatağından durub saatlarla oturar, öz-özünə danışardı. Dəli olmasaydı yaxşıydı...

Növbəti bazar günü Aygünü həyətə buraxmaq istəmədi.

- Ana, nə olar, burax gedim həyətdə uşaqlarla oynayım. Həftənin altı günü bağçada oluram, heç olmasa bir gün də həyətdə oynayım, - Aygün yalvardı.

- Yaxşı get, amma heç kəslə davalaşma. Kim sənə pis söz desə, oynama, qayıt gəl evimizə, - Fərqanə yumşaldı.

Fərqanə qızı evə qayıdanadək tez-tez eyvana çıxıb uşaqlar oynayan tərəfə göz qoyurdu. Həmişəki kimi Niyaz yenə onların arasında idi. Şit-şit onun-bunun üzünə gülümsəyirdi.

Aygün evə qayıdanda Fərqanə marağını saxlaya bilmədi:

- O əclaf gədə yenə sənə pis söz dedi:

- Kim? Niyazı deyirsən? Topu vurdum, burnu əzildi, ağzını açmışdı ki, «sənin anan», deməyə qoymadım, dedim öz anandı, səsini kəsdi...

- Əcəb eləmisən, ağıllı qızım mənim, - Fərqanə Aygünü qucağına alıb öpdü, - bir gün o küçüyün dərsini verəcəyəm.

«Dərsini verəcəyəm» desə də, nifrətdən ayrı özü də bilmirdi nə etsin, acığını necə çıxsın? Bəlkə daha əsəbiləşməkdən bezib, əhəmiyyət verməsin, unutsun. Sözdü də, deyib, keçib gedib. Bir də deyə bilməz. Desə qızı artıqlaması ilə cavabını verəcək. Ancaq yox, olanları heç də belə səxavətlə bağışlayıb unuda bilməzdi...

Bazar günlərinin birində qapı döyüldü. Elə bildi həyətdə oynayan Aygündü. Qapını açanda yerində dondu: Qarşısında onu neçə vaxtdı «öldürüb dirildən» Niyaz durmuşdu. Görən nə istəyir? Maraqdan ürəyi sıxıldı. Əsəbləri yenidən gərilməyə başladı.

- Xala, anam evdə yoxdu, qapımız bağlıdır. Hava da istidir. Bir stəkan su olar içim?

Bilmədi nə cavab versin. Məni gəzəyən adlandırdığı azmış, hələ gəlib arsız-arsız su da istəyir, - düşündü, - sənə su yox, heç zəqqum da düşmür. Rədd ol deyib qapını örtmək istədi. Başqa bir hiss imkan vermədi: çağır içəri, fürsətdi, heç kim yox, çıx heyfini. Niyaz dayanıb su gözləyirdi. Özünü toplayıb içəri dəvət etdi:

- Gəl içəri.

Mənzilə daxil olan kimi uşağın ardınca qapını örtdü.

- Gözlə stəkan gətirim.

Mətbəxə gedən dəhliz boyu addımladıqca içində oyanmış nifrət hissi nəfəsini kəsirdi. Sinəsində ağrılı bir təlatüm duyurdu. Beynində axışan sürətli fikirlərin təzyiqindən ürəyinin döyüntüsünü qulaqlarında eşidirdi. Gözü mətbəxdə bıçağa sataşdı. Bəlkə öldürsün? Kim biləcəkdi, şahidi də olmayacaqdı. Yox, qan görsəydi dəli olardı, tabı yox idi.

- Al stəkanı.

Sətkanı uşağa uzadanda əllərinin əsdiyini gördü. Heç nə anlamayan uşaq stəkanı alıb boş olduğuna görə sual dolu gözlərini yenidən onun üzünə dikdi:

- Keç hamama. Orda kran var, aç, iç... Mətbəxin kranı xarabdı.

İrəlidə Niyaz, ardınca o, vanna otağına keçdilər. Niyaz kranı açıb stəkanı doldurmaqla məşğul ikən ağızbaağız su ilə dolu vannanı görən Fərqanənin həftələrdir girinc edən beynindəki fikri qətiləşdi. Çox vaxt nəsə etməyə mane olan tərəddüdləri ani yox oldu. Su içməyə macal tapmamış Niyazı dəli kimi boynundan, qıçından yapışıb vannaya atdı. Stəkan yerə düşüb paralandı. Niyazı dəhşət bürüdü, «xala» niyə onu vannaya atırdı?!

Fərqanə isə gözü qızmış nərə dönmüşdü. Uşağın başından suyun içinə basır, qışqırırdı:

- İç küçük, iç nə qədər istəyirsən. İç doyunca... Mənəmmi qəhbə, hə? Mənəmi qəhbə, «gəzəyən» deyirdin? Hə? İndi cavab ver mənə...

Əl-ayaq atıb çapalasa da, qarnına qədərindən çox su dolan, başına gələn məşəqqətdən gözləri hədəqəsindən çıxan Niyazın cavab verməyə halı yox idi.

Uşağın müqaviməti dayanıb, cəsədi vannanın dibinə çökməyə başlayanda elə bil Fərqanənin qızmar beyninə soyuq su çiləndi: Ay Allah, bir gör nə etdi, uşağı deyəsən suda boğub öldürmüşdü...

- Niyaz, Niyaz, – o, bayaqdan suyun içinə basdığı uşağı indi sudan çıxarıb acgözlüklə həyat nişanəsi axtarırdı. Ağırlaşmış cəsəd əlində durmayıb, yenidən sürüşüb vannanın dibinə çökürdü. Artıq gec idi, deyəsən, oğlanı yüz faiz öldürmüşdü. İndi neyləsin, haranın daşını başına töksün? Dəli kimi olmuşdu? Heç nədən, adi bir sözün ucbatından, lüzumsuz nifrətin gücündən camaatın uşağını öldürmüşdü. Bu bəladan necə qurtaracaqdı?

Yadına Malik düşdü. Ona yalnız Malik kömək edə bilərdi. Əvvəlcə cəsədi evdən çıxarmaq lazım idi. Nəyə bükürbüksün, qapıdan çıxarsaydı qonşular, həyətdəki uşaqlar görəcəkdilər. Ona şahid gərək deyildi. Belə halda cəsədi kisəyə qoyub eyvandan sallamaqdan qeyri yolu yox idi. Çünki arxa balkonun qarşısı sıx ağaclıqdı. O qədər də adam olmur, daldanacaqdı. Hə, ən yaxşısı budur. İri bir kisə axtarıb tapdı. Cəsədi sudan çıxardıb güc-bəla ilə kisəyə soxdu. Kisənin ağzını bağlayanda qapı döyüldü. Elə bil bədənindən cərəyan keçdi. Çırpınan ürəyi daha da döyündü: görəsən kim idi? Yoxsa Niyazın evə girməsini görən olub? Olmaya Niyazın anasıdır, oğlunu soruşacaq? Elə olsa nə cavab verəcəkdi? Bəlkə heç səsini çıxartmasın, qapını açmasın. Gözlükdən çölə baxdı, kimsə görünmürdü.

- Ana, mənəm, aç da qapını gəlim.

Aygünün səsini eşitcək özünə gəldi:

- Qızım, indi işim var, mane olma, oyna, sonra gələrsən.

- Ana, nə olar, qapını aç, indi gəlim bir az oturum, su içim, yenə gedərəm.

- Dedim sənə ki, açmıram! Zəhlə tökmə, ayrı vaxtı küçədən ötrü ürəyin gedir. Get bir saat da oyna.

Qızının həyətə qayıtdığını hiss edən kimi Malikə zəng vurdu:

- Eşidirsən, bu dəqiqə səndən başqa ümidim yoxdur. Təcili mənə kömək etməlisən.

- Nə olub axı?

- Maşını sür, gəl bizim arxa eyvanın altına. Eyvandan bir kisə sallayacağam, onu alırsan…

- Qapıdan niyə vermirsən?

- Qonşular görməsinlər, ona görə. Hə, sonra da aparıb uzaq, kimsəsiz bir yerə, ya gölə atarsan.

- Birdən kisədə radiaktiv tullantı - filan saxlayarsan, xəbərim olmaz, nə yaman belə ehtiyatlanırsan?

- Zarafat yeri deyil, telefondla hər şeyi danışa bilmirəm, ona bənzər bir şeydi…

- Yaxşı, gəlirəm.

Malik gəlincə yarım saat çəkdi. Dəqiqələr Fərqanəyə illər qədər uzun gəldi. Həyəcanla eyvanla otaqlar arasında var-gəl etməkdən yoruldu. Arada bir dəfə qapı döyüldü. Qorxa-qorxa yenə gözlükdən çölə baxdı, heç kimi görməyəndə ürəkləndi:

- Aygün, qızım, sənsən?

-Xala, Niyazı görməmisən?

Gözləmədiyi sualdan Fərqanənin bədəni əsdi. Yan qonşunun balaca qızıydı soruşan.

- Yox, o bura gəlməyib, görməmişəm – Fərqanə dil-dodağı əsə-əsə cavab verdi. Eyvanın altında dayanan maşının səsini eşidəndə özünə gəldi. Tələm-tələsik cəsəd qoyduğu kisənin boğazına ip bağlayıb aşağı salladı.

Malik sifətinin rəngi çönüb kağız kimi ağarmış, salam-kalamsız ona az qala dəli kimi baxan Fərqanənin tələskənliyinin səbəbini heç cürə başa düşmürdü:

- Nə olub sənə?

- Heç nə olmayıb.

- Niyə tələsirsən?

- Tez elə, tez elə kimsə görməsin.

- Nədi bunun içində, belə qorxursan?

- Baxma-baxma. Baxmaq olmaz. Sonra sənə deyərəm. Qurban olum sənə, cəld ol, mən deyən kimi elə. Yaxşı? Bildinmi?

Malik heç nə anlamırdı. Fərqanənin sözünə rəğmən başqalarının diqqətini çox cəlb etməmək üçün kisəni maşina atıb binadan uzaqlaşdı.

Maşın evdən uzaqlaşdıqdan sonra Fərqanə təhlükənin sovuşduğunu zənn edib, bir az sakitləşdi. İlk dəfəydi ki, evinin birinci mərtəbədə olmasına sevindi. Heyhat başa düşürdü ki, o nə qədər gizlətsə də etdiyi cinayət ömrü boyu onu rahat buraxmayacaqdı. Gec-tez o, hər şeyi etiraf etməli olacaqdı.

On beş dəqiqə keçmədi Malik zəng vurdu:

- Kisədəki cəsəd haradandı?

- Mən öldürmüşəm…

- Sən öldürmüsən? Niyə? Dəlisən? Mənim əlimlə ört-basdır etmək istəyirsən? Bu boyda günahı gizlətmək olar? Yoxsa məni də özünə yoldaş etmək istəyirsən? İncimə məndən, sənə görə özümü məhv etməyəcəyəm. Mən kisəni polisə aparacağam…

Fərqanənin boğazı qurumuşdu. Deməyə sözü yox idi. Telefonla danışığın bitdiyini bildirən dəstəkdən gələn «dud, dud» səsləri sanki, ömrünün də xoş günlərini sona çatdığını xəbər verirdi.

***

Bir axşam yatab gələn vaxtı zona xəbər yayıldı ki, Rahibə qayıdıb. Axşam yeməyi zamanı bu xəbəri eşidən Kəpənək sevincindən yeməyini yarımçıq qoyub özünü həyətə atdı:

- Bacım gəlib, bacım gəlib…

- Həqiqətənmi, Rahibə doğma bacısıdır? – Zinyət yeməkxanada qarşı-qarşıya oturduğu Səbirədən soruşdu.

Səbirə tikəsini udub, əlini yellədi:

- Sözdü də deyir. Doğrudur, burda bacılar, ana-bala, gəlin-baldız, qaynana, əmiqızları, xala qızları çoxdu. Gəl ki, onların heç də hamısı mehriban deyil.

Kəpənək «uça-uça» zonun giriş qapısı yaxınlığında yatab qəbul edilən otağa tərəf yaxınlaşdı.

- Ay qız, kim sənə icazə verib bura gəlmisən?

Ucaboy həm də yoğun nəzarətçinin çığırtısı Kəpənəyi yerində dondurdu.

- Eşitdim Rahibə qayıdıb, gəldim görəm.

-Görəcəksən də, dünyanın axırı deyil ki. Qayıt zona. Özbaşınalıqdı bəyəm, kimin kefi nə istəyir, onu da eləsin. Get həyətdə gözlə.

Kəpənək suyu süzülə-süzülə yaşayış sahəsinin həyətinə qayıtdı.

Rahibə öz evinə qayıdıbmış təki sevinirdi. Azadlıqda üç həftədən artıq dözə bilməyən Rahibə polisin gözü qarşısında bilərəkdən oğurluq edib. Sayıq polis nəfəri də Rahibəni cinayət üstündə yaxalayıb. Bir aya qədər istintaq təcridxanasında saxlanıldıqdan sonra dörd il cəza müddəti təyin edilib zona göndərilmişdi. Rahibəni dilxor edən cəza müddətinin azlığı idi. Əvvəlcədən bilsəydi ki, cəza müddətinin çoxluğu oğurlanmış malın miqdarından asılıdır, cəhd edib daha çox əlavə oğurluq edərdi. İndi dörd ildən sonra gərək yeni nəsə fikirləşib tapmalıdı. Allah kərimdi, yaşayaq görək nə olar, - özünə təsəlli verirdi.

Uzun ayrılığın həsrətliləri kimi, həyətdə onu qarşılayan rəfiqələri ara vermədən sorğu-suala tutmuşdular.

- Ay qız, dama niyə çıxmışdın? Daha demirsən yıxılıb ölərdin…

- Ölüm də, qalıb nəyə gərəyəm? Sizinçün darıxmışdım. Gəldim qapıya, buraxmadılar. Dedilər olmaz, icazə verilmir. Çarəsizlikdən ağlıma gəldi ki, qonşu beşmərtəbənin damına çıxıb, oradan sizə tamaşa edim. Siz aşağıdaydız, ona görə mən sizin səslərinizi eşidirdim, amma mənim səsimi siz eşidə bilmirdiniz. Oradan düşəndən sonra da fikirləşdim ki, gündə dama çıxmayacağam ki. Tutulmasam məni bura buraxmayacaqlar. Fikirləşib bir oyun qurub, məhkəmədən icazəmi aldım…

Hamı gülüşdü. Gələndən bəri onu qucaqlamaqdan yorulmayan Kəpənəkdən soruşdu:

- Çarpayım boşdu?

- Yox, orda bir təzə gələn yatır.

- Mən bilmirəm, necə var, öz çarpayımı istəyirəm, başqa yerdə yatmayacağam. Məni on dörd illik yoldaşımdan ayırmaq günahdı. Dəstə rəisi Nüşabə xanım kabinetindədi?

Kəpənək onu sakitləşdirməyə çalışdı.

- Nüşabə xanım növbədən sonradı, kabinetində yoxdu. Sabah gələndə gedib xahiş edərik, səni qaytarar yerinə. Bu gecəni birtəhər yola verərik. Mən verərəm yerimi sənə.

- Elə danışma, elə bilərlər biz də cütlərdənik.

- Demədim ki, bir yerdə yatarıq. Mən özümə yer taparam. Çölə çıxıb qayıtdın da xasiyyətini dəyişmədin.

- Çöldə nə qaldım ki, xasiyyətimi də dəyişim. Orda da günümü paqonlularla keçirirdim.

Yenidən hamı gülüşdü. Son iki ayda ilk dəfə idi ki, Rahibə özünü qayğısız hiss edirdi. O, evinə, yuvasına, rahat həyatına qayıtmışdı. Daha nə evsizlik dərdi çəkəcəkdi, nə də dolanacaq qayğısı.

Azadlıq üçün burnunun ucu göynəyən, bacısını namus üstə öldürən Validə isə onun sevincinə istehza ilə gülümsünürdü:

- Hökumət türməni bunun kimi «mələklərə» cənnət yaradıb…

***

Sərin payız günləri arxada qalmışdı. Havalar günü-gündən soyuyur, qışın yaxınlaşması hiss olunurdu. Zinyəti dərd almışdı. Əynindəki paltarla qışı necə keçirəcəkdi? O həbs ediləndə yayın qızmar vaxtı idi, qış kimin yadındaydı. Yanına gəlib-gedən bir kimsəsi də yox idi, yalvarsın ki, qış düşəndə isti paltar gətirsinlər. İmkansızlıqdan deyəsən dövlətin verdiyi gödəkçə ilə soyuğa dözməli olacaqdı. Bir də qışda kim evə buraxılsaydı, bəlkə onlardan hansının rəhmi gəlsəydi paltarını bağışlayacaqdı. Tutulandan cəmi bir dəfə onu görüş yerinə çağırmışdılar. Anası ərzaq bağlamasını qızına çatdırılmasını xahiş edib görüşmək istəməmişdi. Anasının pay gətirməsindən sevinən, lakin görüşdən imtina etməsindən kədərlənən Zinyət, son nəticədə ondan inciməmişdi. «Yenə sağ olsun, məni tam unutmayıb» - şükür etmişdi. Bədbəxtliyə tuş gəlmiş qızlarının halına nəyə görə ən çox yanan, görüşə gələn analarının olması səbəbini qəlbən duymuşdu. Dünyada balasından əziz nə olar

ana üçün? Daha onun kimisi yox... Bir dəlisov sevgiyə görə ailəsini, iki balasını atıb, qoşulub qaçdı. Anasını, qardaşını qohum-əqrəba içində diliqısıq etdi. Azmış kimi, qardaşının ölümünə də bais oldu. Bu olanlardan sonra onunla görüşməyə dəyərdimi? Anası düz edirdi, o, belə münasibətə layiq idi. Yenə sağ olsun ki, xatırlayıb bağlama göndərmişdi. Üzü qara olduğundan nəsə yazıb ummağı, qınamağı özünə ar bilirdi. Bəs o özü necə ana idi? Hərdən qızları yadına düşəndə burnunun ucu göynəyirdi. Onları əzizləmək, saçına ağ bant vurub məktəbə yola salmaq, isti ocağında oturmaq əvəzinə gör hara gəlib çıxdı. Bir də onları nə vaxt görəcəkdi? Görəndə nə deyəcəkdi qızlarına? Onu eşitmək istəyəcəkdilərmi? Bunları fikirləşdikcə qəlbi sıxıldığından çox vaxt qızlarını xatırlamaq istəmirdi. Başını nə iləsə qarışdırıb unutmağa çalışırdı. Hər dəfə təkrar-təkrar düşünürdü. «Doğruldanmı o Əzizi sevməklə həyatda böyük səhvə yol vermişdi?!» Bir vaxtlar sevdiyi naminə ölməyə hazır olduğu halda, indi balaları yadına düşəndə daxilində anlaya bilmədiyi çaşqınlığın yarandığını hiss edirdi...

Neçə gündü beynini qarışdıran fikirlər, başını o dərəcədə məşğul edirdi ki, bəzən ətrafını unudub gözləri yol çəkirdi.

- Yanına gələn olacaq, - qızlardan birisi demişdi.

- Haradan bilirsən, - maraqla soruşmuşdu.

- Gözlərin elə hey yol çəkir. Adam belə olanda həmişə yanına gələn qonağı olur.

- Eh, hardandı məndə o bəxt. Nə deyirəm, Allah ağzından eşitsin.

Amma nədənsə bütün günü gözlərinin yol çəkməsinə özü də bir neçə dəfə heyrətlənmişdi. Heç inanmırdı kiminsə yadına düşsün. Olsa-olsa onu Əziz düşünərdi. O da ki, həbsdə idi.

Səhəri gün axşam yoxlaması təzəcə qurtarmışdı. Məhkumlar meydandan dağılıb hərə bir tərəfə getsə də onun yerindən tərpənməməsinə görə nəzarətçinin qolundan tutub silkələdiyini gördü:

- Yatmısan ha... Nə olub sənə?

Nəzarətçi görüşə baxan Gülyaz idi. Güman ki, görüşə çağrılan kiminsə dalınca gəlmişdi.

- Heç. . , fikirli idim, - Zinyət ləngiməsindən utanıb adəti üzrə üzü kitabxanaya addım atdı.

- Hara gedirsən? Yaxın dur, - Gülyaz onu yolundan döndərdi.

«Görəsən neynir məni, - fikirləşdi Zinyət, - yoxsa məni qulluğa göndərmək, kimisə çağırtmaq istəyir? Görmür məgər mənim halımı, güclə yeriyirəm» Günlər ötdükcə qarnı böyüyür, daha çox nəzərə çarpırdı.

- Ananın adı nədir?

Sual Zinyəti çaşdırdı: anamın adını neynir?

- Cəmilə. Necə bəyəm?

- Bir ağsaçlı qadın gəlib yanına, adı Cəmilədir. Düz deyirmiş, yəqin ki, anandı.

Onun Cəmilə adında başqa yaxını yox idi. Deməк, inanclar doğru çıxmışdı. Qulaqlarına inanmağı gəlmirdi. Ola bilməzdi anası onu görüş otağında gözləsin. Həyəcandan gözləri yaşardı. Bu necə olub? Olmaya ürəyi yumşalıb, ana məhəbbəti hər şeyi üstələyib, qızını bağışlamağı qərara alıb?

Ürəyi əsə-əsə görüş otağına daxil oldu. Arxası qapıya tərəf düzülən stulların birində bir başı örpəkli, yaşlı qadın əyləşmişdi. Baş yaylığının altında səliqə ilə daranmış ağ saçları, qırışlanmış bənizi, qarşısındakı pəncərənin məhcul nöqtəsinə zillədiyi gözlərindəki kədər faciəli anların izləri kimi qadının yaşadığı acı taledən xəbər verirdi. Bu o idi, onun anası idi! Neçə aylardan bəri isti qucağına, ılıq nəfəsinə həsrət qaldığı, dünyada onu əvəz edəcək ikincisi olmayan anası...

- Ana, - Zinyət hönkürtü ilə özünü onun ayaqları altına atdı, – Qurban olum ayaqlarına ana, gələn yerdə...

Zinyətə hıçqırtı imkan vermirdi danışmağa. Tutulduğu gündən anası üçün çəkdiyi xiffətin, təkliyin, kimsəsizliyin acısını çıxardırdı hönkürdükcə. Şübhəsiz, bu həm də anası qarşısında etdiyi günahların gecikmiş etirafı idi.

Cəmilə xanım qızının onu belə qarşılayacağını gözlə-mirdi. Düşünürdü ki, qızı yenə ötkəm hərəkətləri ilə qəlbinə

dəyəcəkdi. Görünür, türmə onu sındırmışdı. Zinyətin ayaqlarını qucaqlayıb hönkürtü ilə ağlaması istər-istəməz onu da kövrəltmişdi. Hətta kənardan bu müdhiş səhnəni müşayiət edən görüşə baxan nəzarətçi Gülyazın da gözləri yaşarmışdı.

- Yaxşı, bəsdi ağladın. Burax ayaqlarımı, dur ayağa, - Cəmilə xanım qızının əllərindən tutub özünə sarı çəkdi.

Anasının nəvazişini duyan Zinyətə elə gəldi ki, dünyanı ona bağışladılar. Dikəlib anasını bərk-bərk qucaqladı, başını sinəsinə dayayıb qucağına sığındı, lap körpəliyində olduğu kimi... Anası yaman qocalmışdı. Xüsusilə son bir ildə evdə baş verənlər, oğlunun itkisi ananın belini bükmüşdü. Anasının vaxtsız qocalmasında ən böyük müqəssir olduğunu düşündükcə, fikirlərinin gözlərindən duyulacağından utanıb, anasının üzünə baxmayıb baxışlarını yerə dikdi. Damarları görsənən əllərini sığalladı:

- Ana, heç gözləmirdim. Necə oldu gəldin?

Kövrəldiyindən gözləri nəmlənmiş Cəmilə xanımın sifəti ciddiləşdi.

- Gəlməyəcəkdim. Özümə söz vermişdim, ölsən də üzünə baxmayacaqdım. Gorbagor atan imkan verdi ki, sözümün üstündə duram?! Havalar soyuyandan bir ay olar, gözümü yuman kimi gəlib kəsdirir başımın üstünü, başlayır məni qınamağa. Sən necə anasan, qızınla maraqlanmırsan? Danışır, danışır, sonra da acıqla qeyb olurdu. Bir dəfə, iki dəfə, üç dəfə – axırda bezdim. Dedim daha keçib, gedim qıza dəyim, kişi də məndən əl çəksin...

Zinyətin atasının xatirəsinə nə qədər hörməti olsa da Araza ərə verilməsində başlıca səbəbkar olması ucbatından bəzən onu xatırlamaq belə istəmirdi. Gəl ki, hansı ata istəməz qızı xoşbəxt olsun? Hər şeyi öz iradəsinə uyğun həll etməyə vərdiş edən atası onu xoşbəxt etmək istəmişdisə də əksinə bədbəxtliyə yuvarlatmışdı. Evdə, ailədə özünü Allahın nümayəndəsi hesab edənlər bir qayda olaraq həmişə unudurlar ki, Tanrının qismət bölgüsü yalnız öz nəzarətindədir. Kiməsə belə işlərə qarışmağa haqq vermir.

- Özünə gəl, sonra o bağlamanı, qutunu boşalt, sənin üçün gətirmişəm.

- Ay ana, bu yekəlikdə bağlamanı necə gətirmisən? Yaşlı qadınsan, niyə özünə bu qədər əziyyət vermisən? – Zinyət deyindi.

- Anasını incitmək istəməyən qız türməyə düşməzdi. Bağlama hamısı isti parltardı...

Zinyətin yenə dili dinc durmadı:

- Paltar bir az varımdı. Buradan veriblər, elə də paltarsız deyiləm...

- Hökumətin verdiyi paltarla üç-dörd aya soyuqlayıb vərəm olarsan. Sən deyilənə qulaq as. Bax, elə qulaq asmamağının cəzasıdı indi çəkirsən. O biri qutuda da qənd, çaydır. Bir az da mer-meyvə. Vaxtına nə qədər qalıb? – Anası onun qabaran qarnına işarə etdi.

İşarənin hamiləliklə bağlılığın anlayan Zinyət yenə baxışlarını aşağı endirdi:

- Az qalıb...

- Mənə xəbər edərsən, gəlib dəyərəm. Neynim, çarəm nədir...

- Ana, heç qızlarımı görüb eləyirsən?

- Eh, axmaq balası, o qızlar daha sənin deyil. Necə atıb getmişdin, elə də yaddan çıxar. Yox, görməmişəm. Onlar indi bizi görmək də istəməzlər...

Zinyətin gözləri təzədən doldu. Başqa söz soruşmayıb söhbətin mövzusunu dəyişdi. Saat yarımdan artıq tab gətirməyən Cəmilə xanımı Zinyət bir qədər saxlamaq istəsə də dayanmayıb, vidalaşıb, görüş otağından çıxdı.

Əks qapıdan çıxan Zinyətin ağlamaqdan qızaran gözləri şişib böyüsə də əvvəlkindən daha işıqlı, fərəhli görsənirdi.

***

Hər gün bir hadisə baş xəbər kimi qadınların arasında müzakirə olunurdu. Növbəti payız səhərində Püstənin paqonlulardan eşitdiyi xəbərdən kədərlənib yas qurması, hönkürüb

ağlaması dillərdə gəzdi. Rəfiqələri guya üzdə ona canıyananlıq etsələr də əslindlə ələlxüsus tamaşaya başına yığılmışdılar. Püstəni ağladan onun sevimlisi olan rəisin rejim üzrə müavini - Nadirin işdən çıxarılması idi. Duran yerdə isti aşına soyuq su qatmışdılar. Gözlənilmədən insafsızlar ürəyinin mehrini saldığı adamdan ayırdılar. Bir ildən çox idi özünü arxalı, könlünü şad duyduğundan günlərin, ayların necə keçdiyini hiss etmirdi. Bilirdi ki, Nadirin ailəsi, uşaqları var. Onların arasında ciddi münasibət mümkün olan iş deyildi. Nadirin sadəcə ondan gözəgəlimli qadın kimi xoşu gəlirdi. Yəqin ki, cinayətkar bir qadından ötrü illərlə əzabını çəkib nail olduğu vəzifəsini, işini, ailəsini ona dəyişə bilməzdi. Heç Püstə də arzulamırdı ki, Nadir belə itkilərə məruz qalsın. Bir tükünün də əskilməsinə razı deyildi. Dəyməzdi də. Axı kim idi, insan kimi nə dəyəri vardı onun? Gözəgəlimli, cavan olsa da, həyatı puç olmuş, hər şeyini, ailəsini, xoş gününü öz günahlarından itirmiş, yaxınları, doğmaları tərəfindən lənətlənmiş gərəksiz qadın idi. Ərindən xəbərsiz rəfiqəsinə qoşulub oğurluq mal satmışdı. Əri də tutulan günü boşamışdı. Onsuz da onu sevmirdi. Sevsəydi, cinayət etməyə vaxt tapmazdı. Nadir ilk dəfə Püstəni müəssisəyə rəis müavini gələn günü sexləri gəzərkən görmüşdü. Nadirin gözlərindəki parıltılı qeyri-adi rəğbət onun qaranlıq həyatında ümid işığı yandırmışdı. Demək, o, hələ tamamilə məhv olmayıb. Yaşamağa dəyər. Dustaqlıqda belə qadınlığına nəzər yetirən var. Sonralar Nadirin tez-tez gəlib onun başının üstünü kəsdirməsi düşündüklərini təsdiqlədi. Rəis müavini onsuz darıxırdı. Burda pis heç nə yox idi. Püstənin nəzərində, olsa-olsa. qadın gözəlliyinə həssas və onu qiymətləndirməyi bacaran normal bir kişinin münasibəti idi. Belə münasibətin ona yönəlməsi dustaqlıqda hamıya nəsib olmayan şans idi. Bu şansı dəyərləndirib faydalanmaması korluqdan başqa bir şey olmazdı. Orda-burda namusdan, qeyrətdən dəm vursalar da, dillərinə gətirmək istəməsələr də əksəriyyətinin qəlbinin dərinliklərində adicə bir kişi baxışına da həsrət var idi. Təbiətin, İlahinin qanunlarına zidd gedib qadınlığını danmaq, ağılsızlıqdan başqa heç nə deyildi. Qadınlığını dəyərincə

anlamamağının nəticəsi idi ki, Allah onları cəzalandırıb bura salmışdı. Əslində hər birinin daxilində kişi rəğbətinə, qayğısına ehtiyac olan bu qadınlar belə münasibətin özünə deyil, başqasına aid olduğunu gördükdə onlarda gizli həsəd, paxıllıq yaranırdı. Həmin paxıllığın səbəbindən başladılar onunla Nadirin bütün hərəkətlərinə göz qoymağa, söz qoşmağa. Dəfələrlə Nadir ətrafda kimsənin olmadığını zənn edib onu qucaqlamaq, öpmək istəyəndə ehtiyatlı olmağı yalvarmışdı, «görsələr, mən heç, sənin başın ağrıyar», - demişdi. Elə də oldu. Paxıllar o qədər çeynədilər ki, söhbət yuxarılara da çatdırıldı. Nəticədə elə buna görə də Nadiri işındən çıxarıb kənar yerə göndərdilər. Baxmayaraq ki, özünün getmək fikri yox idi. Qoymadılar, imkan vermədilər cəzasını qayğısız keçirməyə. Bədbəxtlərin içində gərək sən də bədbəxt olmalıyıdın, yoxsa dözməyib özləri səni bədbəxt edəcəkdilər. Ürəyindəki kədərdən və ətrafına yığışan bədxahlara olan acığından arxasını onlara, üzünü divara çevirib ağlayırdı. İstəmirdi ona dikilən qeyri-səmimi gözləri görsün. Nə danışırlar danışsınlar, onun üçün əhəmiyyəti yox idi. Onsuz da bayaqdan xısınlaşaraq istehza ilə dedikləri «bir dənə də işdə məhəbbət macərası yarımçıq qaldı» sözünü eşitmişdi.

Səbirənin kefi yenə göylə gedirdi. O, həmişə söhbət etdiyi qadınlara göz-qaşla işarə edib bir kənara çəkdi:

- Bəri gəlin, sizə maraqlı bir söhbət edəcəyəm. Öləcəksiz gülməkdən. Siz canınız, Püstənin söhbətini qurtarın, yedi Nadirin başını, qurtardı getdi. Gah o tində, gah bu tində xəlvəti qucaqlaşanda bilmirdi axırı belə olacaq? Sevən mənim kimi olar, mərdi-mərdanə. Nə isə. Srağagün sexdə «şmon» oldu axı, hər tərəfi axtarıb elədilər. Bir adamın xalatının cibindən heç bildiz nə tapıldı?

- Nə tapılacaq, nə var ki, tapılsın da, - qulaq asan Mahirə dilləndi, - narkotika yox, spirtli içki yox, silah yox...

- Yox canım, elə deyil... Bu tapıntı bənzərsizdir, - Səbirəni danışdıqca gülmək aparırdı.

- Kimin xalatı olub? – Bir başqası maraqlandı.

- Pasportistka işləmiş arvad nədi, Ayxanım. Onun xalatının cibində «zühur» edib.

- Yəqin yenə sevgi məktubu olub. Hə, o yanındakı qızlardan birinə vurulub deyəsən. Keçən dəfə məktubu ələ keçəndə rəis ona itin abrını verdi.

- Yox, bu dəfə məktub deyil. Bu dəfə bir qarış yoğun lülə boyda, ağacdan hazırlanmış elə bir «əcaib əşya» tapılıb ki, axtarış aparan bütün nəzarətçilərin heyrətdən boğazları quruyub. Fikirləşə qalıblar ki, indi rəisə necə məruzə edək? Bu andırı kim əlinə alıb rəisin qabağına aparacaq? Utandıqlarından heç biri yaxın durmayıb, - Səbirə gülməkdən az qala qəşş edirdi. – Axırda qapıda duran üzü-üzlər görmüş yekəpər nəzarətçi var ha, o deyib ki, mən məruzə edərəm.

- Sonra? Sonra nə olub? – Gülənlər yerbəyerdən sual verdilər.

- Sonra nə olacaq? Ayxanıma beş sutka verib salıblar tək adamlıq qaranlıq karsa. Sən bunda həvəsə bax. Axtarıb həmin ölçüdə agac tapıb, yonub oxşadıb. Kişinin qızı sənətkarmış...

Doyunca gülsələr də Mahirə sonda qulaq asanlara xəbərdarlıq etdi:

- Bu söhbət burda qalsın ha, zondan çölə çıxmasın. Çöldə eşidən olsa, elə fikirləşəcək ki, burda yatanların çoxusu Ayxanım ağıldadı...

- Belələrinin xasiyyətini Roza bacı yaxşı bilər. Çünki, o, öz kadrlarını tanımadan işləyə bilməzdi, - Səbirə yenə şəbədəsindən qalmayıb bayaqdan kənardan söhbətə qulaq asan orta yaşlı, dolu bədənli,üzü gülər qadına söz atdı. Əsl adını bilən olmasa da azadlıqda fahişələri toplayıb, gizli fahişəxana işlədib Mama Rozalıq etdiyinə görə burada da hamı onu Roza bacı çağırırdı. O, adəti üzrə gülümsəyərək söhbətə qoşuldu:

- Nə deyim, məsəl var, atı atın yanında bağlasan həmrəng olmasa da, həmxasiyyət olar. Bunların xasiyyətləri də elə özləri kimi bir-birlərinə oxşayır.

- İndi deyirsən o mən yatan barakda yatırsa, mən də onun xasiyyətində olacağam? – Səbirə şaqqanaq çəkdi.

- Əgər onunla yoldaşlıq, dostluq etsən, bəli, xasiyyətləriniz oxşarlaşacaq.

- Elə ona görə səninlə dostluq etmirəm də. Deyərlər ki, Səbirə Mama Roza olmağa hazırlaşır. Zinyət bacı, yaxşısı sənsən, gəl çıxaq gedək öz guşəmizə. – Səbirə Zinyətin qolundan çəkdi:

- Sən get, mən Roza ilə bir az söhbətləşib arxanca gəlirəm.

- Yaxşı, gözləyəcəyəm – Səbirə Mahirənin ardınca uzaqlaşdı.

- Qulaq as, - Zinyət Rozanı yaxınına çəkdi, - mənə danış, maraqlıdır, niyə sənin kimi mehriban, xoşxasiyyət, yerini bilən bir adam həbs edilsin. Sən məgər polisdən gizlin fəaliyyət göstərirdin?

- Yox ay qız. Heç polisdən gizlin iş görmək olar? Allah onların gözlərindən gətirsin, hər ay haqlarını çatdırırdım. «Uçastkovı»ya pul da verirdim, istəyəndə qız da. Neçə illərdi belə dolanırdıq. Kimə pisliyim keçirdi? Nə heç kimin qızını fahişəliyə məcbur etməmişəm, nə də heç kimin ərinə deməmişəm ki, gəl fahişə ilə ol, mənə pul ver. Hamısı könüllü olub. Bu elə bir sənətdir ki, insan yaranandan birinci peşə sayılıb. Bunu yığışdırmaq, kökünü kəsmək, qadağan etmək boş söhbətdir. Mümkün olası iş deyil. Orda-burda, kolda-kosda it kimi sülənməkdənsə, qəşəng şərait yaradıram, vaxtlı-vaxtında həkimə göndərirəm, insan kimi yatıb dururlar. Hamıya da hörmət etmişəm, kimsə deyə bilməz ki, Roza mənə hörmətsizlik edib. İndi də deyirlər ki, sən cinayət etmisən. Başım çıxmır ki, mən nə cinayət etmişəm? İnsanlara mədəni qulluq etmək cinayətdir? Hə, nə başını ağrıdım, bir ay pul sarıdan kasadlıq oldu. Qızların üçü birdən xəstələndi, onların müalicəsi-filan, bir ay «uçastkovının» payını vermədim. Dedim, neçə illərdir alır, indi bir ay almasa dünya dağılmaz ki. Bu qan içən köpəkoğlu, Allah ona lənət eləsin, edir də, eşitmişəm bir oğlu narkomandı, qəfildən bütün polisi yığ tök başımıza, ay aman, əxlaqsızlıq yuvası aşkar etmişəm, video-çəkiliş filan, adə, vurrey, qoyma qaçdı.

Qızlardan cərimə adı ilə bacardıqları məbləği qoparıb buraxdılar. Qaldım mən.

- Sən də cəriməni ödəyib qurtaraydın canını.

- Mənə elə böyük cərimə oxudular ki, onu verməyə gücüm çatmadı. Dedim ki, eybi yox, qoy gedim yatım. Çıxandan sonra bilərəm daha hər anlamaza hörmət etməyə dəyər, ya dəyməz. «Uçastkovı»ya dedim ki, sənə verdiym pullar burnundan gəlsin, görərsən bundan sonra dalını.

- Azadlığa çıxandan sonra nə edəcəksən, təzədən «fəaliyyətə» başlayacaqsan?

- Əlbəttə. Qızlarım indi pərən-pərən düşüb. Kim gəldi qamarlayıb. İkisi burdadı, başqa cinayət adı ilə tutulublar. Bu dəfə «uçastkovı»-filan hərləməyəcəm. Böyüklərlə ünsiyyət quracağam. Xalqıma xidmət edəcəyəm!..

- Ətin tökülsün, - Zinyət onun sözünü kəsdi, - elə də fəxrlə deyir ki. Bəsdi sən Allah, di sağ ol, Səbirə gözləyir, mən getdim, sən inşallah arzularınla yaşa. Yeməkdənsə ümidli olmaq yaxşıdır...

***

Havaların soyuması elə bil müəssisə əməkdaşları arasındakı münasibətlərə də təsirini göstərirdi. Əvvəlki birlik yox olmuş, əməkdaşlar arasında parçalanma yaranmışdı. Hər şey rəislə əməliyyat üzrə müavini - çiynində tək ulduzu olan Mariya xanımın arasındakı sərinlikdən başlamışdı. İlk baxışdan bütün işlər qaydasında gedirdi. Münaqişə yaranası heç bir səbəbə yol verilmirdi. Lakin kimlərsə Mariya xanımın ağlını alıb, yaxın gələcəkdə irəliləməyə, rəisi yola salıb yerinə oturmağa təhdid edirdilər. Orta yaşlı, savadlı, yaşına görə yaraşıqlı, canında bir neçə millətin qanını gəzdirən fərasətli Mariya xanım niyə görə belə arzudan imtina etsin? Onsuz da ötən neçə ildə bezmişdi rəisin ağılsız hərəkətlərini ört-basdır etməkdən, yersiz söhbətlərinə qulaq asıb, gic-gic gülməyinə tamaşa etməkdən. Bu illər ərzində onu nə qədər «zibildən» xilas etmişdi.

Daha bəs idi, kömək etməyəcəkdi. İşləyə bilir işləsin, işləyə bilmir yerini versin işləməyi bacarana.

Təbii ki, onun fikrinin qətiləşməsində «yuxarıdakı» səlahiyyət sahiblərindən «xeyirsiz» rəisi yerindən laxlatmaq üçün marağı və pərdəarxası rolu olanı da var idi.

Eyni zamanda kimlərsə rəisə Mariya xanımın niyytəini çatdırmışdılar. Rəis Mariya xanımın onun barəsində düşündüklərini gözlərində duyan andan deyilənlərin həqiqət olduğuna inanmış və işini bərk tutmağı qərara almışdı. Beləliklə, rəis-müavin arasında atmacalarla başlayan gizli «soyuq müharibə» əhvalı yaranmışdı.

Rəis təcili əməkdaşları bir-bir otağına çağırıb məğzindən heç kimin də heç nə anlaya bilmədiyi söhbətlər etməklə Mariya xanımın tərəfdarlarını müəyyənləşdirmişdi. Onun tərəfdarlarının azlığı rəisi sevindirsə də bəzi əməkdaşların aralıq mövqedə durub nə ət, nə balıq olmaması heç xoşuna gəlməmişdi. Rəisin havadarları əsasən vəzifələrini itirmək istəməyənlər idisə, neytrallar mövcud imkanlarını itirmək narahatlığını keçirməyənlər, rəisin kimliyindən asılılığı olmayanlar idi.

Əməkdaşlar arasındakı əhval-ruhiyyə məhkum heyətinə də sirayət etmişdi. Böyük əksəriyyət bitərəf qalsa da burada da kiçik qruplaşmalar əmələ gəlmişdi. Mariya xanımı dəstəkləyənlər rəisin tərəfkeşlərindən daha fəal görünürdülər. Bu da səbəbsiz deyildi. Çünki onları rəisə qarşı çıxışlar etməyə, təbliğat aparmağa gizlincə ruhlandıran, təhrik edən başqa bir paqonlu əməkdaş, - əməliyyatçı xanım Nahidə idi. «Qadın kaloniyasının rəisi qadın olmalıdır» şüarını məhz o ortalığa atıb dillərə salmışdı. Nahidəni özünün «uzaqvuran artilleriyası» hesab edən Mariya, Nahidənin təsəvvür etdiyindən də qat-qat tədbirli olmasını ağlına belə gətirə bilməzdi. İlk baxışda yayılmış şüarda Mariyanın nəzərdə tutulması düşünülürdüsə, əslində Nahidə indidən bu fikri şüurlara yeridib, öz gələcəyi üçün zəmin hazırlayırdı. Əməliyyatçı xanım çoxlarından fərqli olaraq başlanmış soyuq müharibənin Mariyanın tam qələbəsi ilə bitəcəyinə, ürəyində inanmırdı. Bu sayaq didişmənin sonu adətən rəislə yanaşı müavinlərinin də vəzifələrindən uzaqlaşdırılması

ilə qurtarırdı. Belə olan halda onun əməliyyat işləri üzrə rəis müavini seçilməsi labüddür. Əgər möcüzə baş verib Mariya rəis təyin edilərsə, yenə mükafat olaraq müavin yeri onun olacaqdı. Hər iki vəziyyətdə o, itirmirdi, qazanırdı. Müavinliyi əldə etməklə isə rəisliyə gedən yolun bir addımlığına yaxınlaşacaqdı.

Rəis məhkumlar arasında onun əksinə aparılan təbliğatdan daxilən narahat olsa da üzdə təmkinini pozmayıb, əhəmiyyət vermədiyini nümayiş etdirirdi. Nahidə xanım rəisin göstərişini gözləmədən baş verən çıxışların guya səbəblərini öyrənmək və qarşısını almaq məqsədiylə narazıları kabinetinə çağırıb, hər birindən geniş izahat almışdı. Hansı ki, həmin qadınları xəlvətdə özü təlimatlandırırdı.. Hər kəsə gün kimi aydın idi ki, məsələ bu çıxışlarla bitməyəcəkdi. Çıxışların ardınca kimsənin gözləmədiyi qəribə hadisələr baş verməliydi. Baş verəcək intriqalar, özbaşınalıqlar, qalmaqallar sonda rəisin müəssisəni idarə edə bilməməsi nəticəsinə gətirib çıxarmalıydı.

Çox keçmədi bir axşam bütün müəssisəni qeyri-adi bir xəbər həyəcanlandırdı: Gülbacı qaşıq udub! Vəziyyəti ağırlaşdığından mərkəzi xəstəxanaya aparılması üçün təcili yatab çağırılıb.

Eşidən mat qalırdı: necə və niyə udub? Gülbacı narkotika istifadəçisi və satanı kimi dəfələrlə məhkum olunmuşdu. Hazırda rəisin əleyhinə çıxış edən qrupun öncüllərindən idi. Özünəqəsdin bu yolunu prinsipiallıq göstərdiyi etiraz məsələsinə «yuxarıların» diqqət etməsinə görə seçmişdi. Qaşıq əlbəttə ki, xörək qaşığı deyildi. Heç çay qaşığı da deyildi. Kofe üçün istifadə edilən xırlda qaşığın beş-altı santimetrlik qırılmış qulpu idi. Çox orijinal bir etiraz üçün düşünülmüş özünəqəsd yolu tapılmışdı. Hələ bu metoddan yararlanmaq kimsənin ağlına gəlməmişdi. İndi həmin qırıq qulp mədəsində nə oyun çıxartmışdısa, ağrının təsirindən rəngi qaçmışdı. Gecə düşənədək onu təcili xəstəxanaya çatdırdılar. Səhəri günü nahara yaxın daha bir qaşıq udmanın baş verməsi xəbəri zona yayıldı. Gülbacının çörək yoldaşı - «xlebniki» Məhəbbət də rəfiqəsinin hünərini təkrar etmişdi. Fərq orasındaydı ki, rəfiqəsinin əzab

çəkdiyini görən Məhəbbətin udduğu qulp bir az qısa, həm də metaldan yox, plastmasdan idi.

Dalbadal iki gün eyni cür hadisələrin baş verməsi rəisi hövsələdən çıxarmışdı. Onun nəzərində bu hadisələrin artması ona qarşı yönəlmiş kütləviləşə biləcək aksiyanın hazırlanmasından xəbər verirdi. Odur ki, növbəti qaşıq udmanın qarşısını almaq üçün zonda olan bütün xırda qaşıqların son dənəsinədək axtarılıb yığışdırılmasını əmr etdi. Artıq olmuş hadisələrlə bağlı Baş idarə öz reaksiyasını vermişdi. Hər xırda dedi-qoduya görə papkasını qoltuğuna vurub müəssisəyə təşrif gətirən əməliyyat şöbəsinin bu müəssisə üzrə kuratoru Şubat yenə kabinetlərdən birini məngirləyib səhərdən axşamadək yetəndən izahat alırdı. Katibə işə gəlməyən günlərdə rəisinə çay dəmləyib qulluq etməkdən yorulmayan Şubat müəssisədə özünü çox ciddi, möhtəşəm aparıb, çay nədi, heç su da içmirdi.

Bir gün sonra daha bir məhkumun qaşıq udması xəbəri yayıldı. Onun üçün də təcili yatab çağırıldı. Rəis əsəbindən cavabdeh bildiyi işçiləri otağına yığıb danladı. Axı, o, tapşırmışdı ki, zonda qaşıq qalmasın. Bəs bu qaşıq hardan çıxdı?

- Demək, ya işləməyi bacarmırsınız, ya da içinizdə işin belə istiqamət almasına marağı olanlar var. Mən işdən çıxarılacağıma narahat deyiləm, mənə vəzifə yenə tapılacaq. Amma, bu işdə əli olan adamlar da öz layiqli cəzalarını alacaqlar. Boş buraxılmayacaqlar. Odur ki, heç vecimə deyil. İstəyirlər qaşıq qulpu yox, yaba sapı udsunlar...

Üçüncü «qəhrəmanın» - Mətanətin xəstəxanada müayinəsi zamanı məlum oldu ki, o, heç də qaşıq udmayıbmış. Əvvəlki rəfiqələrinin çəkdiyi əzablardan dadmaq istəməyən Mətanət adicə qəpik udubmuş. Bəs onda onu zonda yalan danışmağa nə və ya kim vadar edibmiş?

Bu sualın cavabını hərə öz bildiyi kimi yozurdu. Əvvəlki iki qaşıq udanın birincisində qırıq qulp bağırsağın yolunu tutduğu üçün cərrahiyyə əməliyyatı aparılıb götürülmüşdü. İkincisi plastmas və kiçik olduğuna görə bağırsaqda ilişməyib, öz yolu ilə bədəndən kənarlaşdığından əməliyyata ehtiyac olmamışdı.

Rəisin işdən təcili çıxarılmaması, idarənin baş verənlərə lazımi əhəmiyyət verməməsi, üçüncü hadisənin yalan olması, daha qaşıqudma hadisəsinin uzadılmasına ehtiyac yaratmırdı. Həqiqətən, ardı, dördüncüsü olmadı.

Bu arada xəstəxanaya getmək istəyənlərin sayı xeyli artmışdı. Zonun həkimi Lətafət xanımın qapısı ağzında dayanıb xahiş-minnətə gələnlərin arasında son günlər vəhşətli baxışları ilə hamını daxilən qorxudan Fərqanə də görsənirdi. Onun yanına görüşə son aylarda heç kimin gəlməməsi ucbatından əsəblərinin pozulmasını qeyd edənlərlə yanaşı, xəstəxanaya buraxılmamasından əzab çəkdiyini iddia edənlər də vardı. Lətafət xanımın xəstəxanaya icazə verilməməsinin səbəbi, deyilənə görə, heç də Fərqanənin pulsuzluğu deyilmiş, xəstəxanadan göndərilən məxfi xəbərdə imiş. Guya Fərqanə orda ayrı-ayrı vaxtlarda müxtəlif kişi məhkumlarla gizlin görüşüb, onlarla intim münasibətlərdə olurmuş.

Lətafət xanım kəsən başa isə söhbət ola bilməzdi. Mariya xanımı dəstəkləyənlərdən biri olan həkim, rəisi ümumiyyətlə, saymırdı. Hətta, rəis deyəsən ondan qorxurdu. Belə bir şayiə gəzirdi ki, rəis təzə işləməyə başlayan vaxtı yatdığı məhkumlardan birinin uşağa qaldığını biləndə həkimə minnətçi olub sirrini gizlətməyi yalvarır. Təcili kənardan dost ginekoloq həkimlərdən birini gecə ikən gətirib həmin məhkumu mini abort etdirir. O gündən həkimin yanında quzuya dönmüş rəisin onun bir sözünü iki eləməyə cürəti çatmırmış.

Fərqanənin son günlər qeyri-adi davranışı Zinyətin də gözündən yayınmamışdı. O, əvvəlki kimi pıçıltı ilə deyinib, bəzən hündürdən hamının eşidəcəyi səslə özü-özünə rabitəsiz, qırıq-qırıq ifadələrlə danışırdı. Çığırır, mahnı oxuyur, bəzən də səsini çıxarmadan sakitcə ağlayırdı.

Sanki, aktrisalığı sümüyünə düşmüşdü, hər dəfə özünü bir rolda aparırdı. Bəlkə də oynamadığı, həsrətində olduğu rollarını xatırlayıb ifa edirdi. Onun qaynar, iti baxışlarını görən hər kəs aldığı təsirdən nəsə soruşmağa çəkinər, dinmədən kənardan müşahidə etməyə üstünlük verərdi. Məlum həqiqət idi ki, Fərqanənin əsəbləri tamam pozulmuşdu. Bu minvalla

onun yaxın vaxtlarda dəli olmayacağına ümid yox idi. Yataq qonşuları ciddi narahatlıq keçirirdilər. Bu kiməsə xətər yetirməsə dəlixanaya göndərməyəcəklər, - şikayətlənirdilər. Bir neçəsi isə yalandan, xəstəxanaya göndərilməsi üçün belə artistlik etdiyini güman edirdi. Uzun illər cəza çəkən məhkumlar və təcrübəli işçilər tamam başqa fikirdə idilər. Onlar Fərqanənin on iki ilə yaxın cəza çəkdiyini balaca iş hesab etmirdilər. Adətən cəza müddəti on ili keçən məhkumlarda bu sayaq ağıl dəyişiklikləri baş verirdi. Cəza müddətinin çoxluğuna dözməyə hər insanın qüvvəsi, əsəbləri çatmırdı, illah da ki, ağır cinayət törətmiş ola. Belə məhkum ailəsi tərəfindən mənəvi kömək görməyəndə cəzasının sonu yaxınlaşdıqca, öldürdüyü insanların qohumları, yaxınları tərəfindən qurulacaq qisas gününün yaxınlaşdığından narahat olub, aybaay əriyib çöpə dönürdü.

«Qaşıq udma» məsələsi ilə əlaqədar söhbətlər iki-üç gün idi ki, səngimişdi. Bir gecə müəssisədə aləm yenidən bir-birinə dəydi. Təzəcə yatmaq istəyən məhkumların yuxusu ərşə çəkildi. Xidməti növbədə qalan zabitlər, nəzarətçilər fəallıq nümayiş etdirib, gecəynən təcili yardım çağıraraq xəstəxanaya yatab sifariş etdilər.

Hamı bir-birindən soruşurdu:

- Nə olub? Kimdi xəstə? Yoxsa yenə qaşıq udan var?

Səbirə yorulmadan qarşısına çıxan hər kəsi məlumatlandırırdı:

- Ay qız, nə qaşıq udan? Fərqanənin halı pisləşib. Nəfəsi gedir, qayıtmır.

- Bəlkə artistlik edir?

- Xalxın qızı ölür, can üstədir, siz də məzənizdən qalmırsınız...

Barakların işıqları hələ söndürülməmişdi. Yatmağa hazırlaşanların gözü qarşısında Fərqanənin heç nədən döşəməyə yıxılıb ayağa durmaması ətrafındakıları həyəcanlandırmışdı:

- Bu qıza nə oldu sərildi yerə? Fərqanə, nə oldu sənə? Ay qızlar, gəlin kömək edin, özündə deyil, - başına yığışan bir neçə qadın Fərqanənin gözlərinin çevrildiyini, nəfəsinin ağırlaşdığını görüb kömək üçün haray qopardılar. Köməkləşib onu

öz çarpayısında uzatdılar. Fərqanənin ağarmış bənizi, soyumuş bədəni, təntiyən nəfəsi vəziyyətinin heç də yaxşı olmamasını göstərirdi:

- Tez eləyin, növbətçiyə, həkimə xəbər eləyin, - haraya gələn briqadir Azadə ətrafındakılara adəti üzrə saysız tapşırıqlar verdi.

Yarım saatdan sonra yaxınlıqdakı təcili yardımdan ağ xalatlı bir cavan qız və bir yaşlı kişi həkim gəldi. Yaşlı kişi həkimin gəlişi çöhrələrdə yaranmış gərginliyə bir yüngüllük gətirdi. Onun göstərişlərini dinləyən cavan qız Fərqanənin nəbzini, təziyiqini yoxlayıb heç kimin eşidə bilməyəcəyi səslə həmkarına nəsə dedi. Xəstənin qoluna bir iynə vurub işlərinin başa çatdığını bildirən həkimlər xəstənin təcili xəstəxanaya göndərilməsinin vacibliyini qeyd etdilər.

Bayaqdan kişiyə söz atıb qımışanların həyasızlığından əsəbiləşmiş Azadə dözməyib bozardı:

- Abrınız olsun, atanız yaşında kişidi, imkan verəcəksiz çıxıb getsin?

- Ay qızım, dəymə xətirlərinə, qoy nə istəyirlər desinlər. Qadın qəlbinə dəymək günahdı…

- Kişi də az aşın duzu deyilmiş, - Roza yanındakı qızlara göz vurdu, - görürsüz atmacalardan necə xoşallandı, yəqin cavanlığında baz olub…

Həkimlər gedəndən az sonra xəstəni mərkəzi xəstəxanaya aparmaq üçün təcili yatab maşını gəldi. Ayaq üstə dura bilməyən Fərqanəni xərəyə uzadıb maşına qoydular. Maşın müəssisəni tərk edəndən sonra gecənin rəisi sayılan növbətçi köməkçinin nəzarətçilərə ünvanlanmış zəhmli səsi hamıya həbsdə olmasını xatırlatdı:

- Nəzarət edin, daha yığışdırsınlar bazarı. Yatmaq vaxtı keçir…

Vaxtından bir saat keçsə də saat on ikiyə işləmiş barakların hamısının işıqları söndürüldü. Səhəri günü bütün zonu hüznə bürüyən qara xəbər yayıldı. Fərqanə yolda ikən keçinmişdi. Onu morqa köçürüb yaxınlarına ölümü barədə məlumat

göndərmişdilər. Deyilənə görə, ölümünə səbəb ürəyinin paralanması, ağır infarkt keçirməsi imiş.

Neçə illər onunla xoş münasibəti olan, bir yerdə çörək kəsən məhkum yoldaşları eşitdikləri xəbərin ağırlığına dözməyib, yas qurub ağlayırdılar. Kimsə Fərqanənin çarpayısına bir neçə gül də qoymuşdu. İçərilərində vaxtsız ölümdə qismən həkim Lətafət xanımı günahkar hesab etsələr də dinməyə çəkinirdilər. Dəfələrlə xəstəxanaya getmək istəyən rəhmətliyə Lətafət xanımın inadı imkan verməmişdi. İndi Mariya xanımın tərəfdaşı olan Lətafət xanım barəsində nəsə danışmaq rəisin onlara qarşı əlinə fürsət vermək hesab edilərdi. Odur ki, susmaq məsləhət idi.

Fərqanənin cəzasının qurtarmasına üç ildən çox vaxtı qalmışdı. Elə bil ürəyinə dammışdı ki, evinə sağ qayıtmayacaq. Həmişə nə vaxtsa öldürüləcəyindən ehtiyatlanırdı. Rəfiqələri öz aralarında müzakirə edəndən sonra belə qənaətə gəldilər ki, onun etdiyi cinayətin dəhşəti, içindəki qisas qorxusu, həyatda hər şeyi itirməsi dərdi ürəyini partlatmışdı. Demək, Allahın məsləhəti belə imiş. Göstərişsiz-filansız, o günü heç kim gəlmədiyi üçün televiziya otağı bağlı qaldı. Gündəlik əyləncələr yığışdırıldı. Çoxdan bəri zonda ölən olmadığından, Fərqanənin ölümü hamını kədərləndirmişdi.

Sonrakı gün yatabla xəstəxanadan qayıdan bir neçə məhkumun gətirdiyi xəbər məhkum heyətində tam bir çaşqınlıq yaratdı. Guya onların xəstəxanadan kimdənsə eşitdikləri məlumata görə, Fərqanə heç də ürək infarktından deyil, illərdir canında gizlin fəaliyyət göstərən spiddən ölmüşdür. Hamı heyrət içində qalmışdı, heç kimin inanmağı gəlmirdi. Axı, necə ola bilərdi ki, həbsdə ola-ola spidə yoluxmuşdu? Düzdür, yoldaşları əvvəllər onun əşyaları arasında cinsi əlaqə üçün istifadə edilən qoruyucu rezinlərin olduğunu görmüşdülər. Lakin, başqalarında da tapıla bilən və heç bir qadağası olmayan belə bir şeyə o qədər də əhəmiyyət verməmişdilər. Çılğın bir aktrisanın ehtiraslı olmasında təəccüblü nə vardı ki? Amma, düşüncələrdə əcaib əjdahanı xatırladan bu andıra qalmış xəstəliyin adı nədənsə hamıda qarşısıalınmaz ikrah, qorxu yaradırdı. Deyilən

xəbərdən sonra mərhuma olan münasibəit bir günün içində tam əksinə dəyişmişdi. Daha heç kim onun barəsində danışmaq belə istəmirdi. Hətta çarpayısına yaxınlaşmaq istəyən yox idi. Bir gün qabaq rəğbətlə yanaşdıqları yerdən elə bil iyrənirdilər. Qonşu çarpayıda yatanlardan birisinin hardansa ağlına gələn təklif başqalarının da beyninə batdı:

- Gəlin bu xəstəlik mənbəyi olan çarpayını barakdan rədd edək.

Bir anın içində köməkləşərək çarpayını söküb, yorğan-döşəyi yığıb barakdan həyətə çıxartdılar. Xəbəri eşidən dəstə rəisi Nüşabə xanım özünü hadisə yerinə çatdırıb əsib coşdu. Çarpayıların düzülüşü dəstə rəislərinin nəzarətində idi:

- Bu nə dərəbəylikdir, kim sizə ixtiyar verib, ağlınıza gələni edirsiz. Əvvəla, həmin xəstəlik qanla keçir, çarpayının nə günahı. İkincisi də, o xəbər rəsmi təsdiqlənməyib, bir-iki axmaq ağzından şayiə buraxıb, siz də inanıb düşmüsüz ortaya. Ağlınızı başınıza yığın, necə sökmüsünüz, elə də gətirin qoyun yerinə. O çarpayı nə ölənin şəxsi malıydı, nə də sizin. Dövlətin əmlakı ilə işiniz olmasın. Onun üstündə hələ bundan sonra Allah bilir nə qədər sizin kimisi yatacaq. Odur ki, başınızın ağrımasını istəmirsinzsə, çarpayını yerinə qaytarın. Mən sizə xəbərdarlığımı etdim.

Nüşabə xanım gəldiyi qaydada barakı tərk etdi. Dinməsələr də məhkumlar arasında dəstə rəisinin sözünə əhəmiyyət vermək istəməyənlər çox oldu. Onlar da əks irad irəli sürdülər: əgər o çarpayı yerinə qaytarılsa biz həmin barakda yatmayacayıq. Gərəksiz, adi görünən bu məsələ saatlar keçdikcə böyüyürdü. Axşama yaxın, artıq «çarpayı məsələsi» zon üçün son dərəcə həyati əhəmiyyətli məsələyə çevrildi. Rəis ona qarşı növbəti etiraz aksiyasının hazırlandığını güman edib təcili tədbir görməyi qərara aldı. Etirazçılardan bir neçəsini kabinetinə çağırıb söz-söhbətə son qoymaq istədi. Məhkumlar onu başa düşdüklərini desələr də, rəis sözünün yerə düşəcəyindən ehtiyatlanaraq avtoritet Zəhranı da çağırıb onu söhbətin tezliklə həll olunmasına, tamamilə yığışdırılmasına «yönəltdi».

Zəhra axşam yoxlamasınadək haqqında söhbət gedən barakın məhkumlarını başına yığıb kiçik məşvərət etdi:

- Ağıllı olun, gəmidə otura-otura gəmiçi ilə tərslik etməyin. Xəstəlik-filan yalan söhbətdir. Heç nədən başınıza iş açmayın. Neçə illərdir türmə görmüş adamlarsız. Onsuz da əksərən paqonun sözü həyata keçir. Yenə onlar öz bildiklərini edəcəklər, nahaq yerə bizim başımız ağrıyacaq…

Məhkumlardan biri kompromis variant təklif etdi: Fərqanənin yatdığı yerə çarpayı qaytarılsın, amma əvvəlki yox. Anbardan yenisi götürülsün.

Zəhra təklifi rəisə çatdırdı. Rəis məmnuniyyətlə razılıq verdi. Yeni çarpayının baraka qoyulması ilə səhərdən zonun sakitliyini gərginləşdirən vecsiz məsələyə son qoyuldu.

Axşam yoxlaması təzəcə qurtarmışdı. Yaxınlıqdan gələn ardı kəsilməyən müxtəlif cür maşın siqnallarının səsləri cavan məhkumların ürəyini yerindən oynatdı:

- Gəlin maşınıdır, - kimsə sevinclə çığırdı.

Həyətdəkilər başlarını qaldırıb ətraf qonşu binalara göz gəzdirdilər. Yataqxananın ikinci mərtəbəsində olanlar küçədə baş verəcəkləri görə bilmək üçün pəncərələrin önünə toplandılar. Ətrafdakı qonşu beşmərtəbəli evdən gəlin aparırdılar.

İkinci mərtəbəyə qalxan geniş pilləkənin artırmalarında dayanıb nəzərlərini müəssisəni təcrid edən dəmir barmaqlıqların, tikanlı məftillərin o tayına dikənlərin sıxlığından ayaq qoymağa yer qalmamışdı. «Vağzalı»nın sehrli sədası hamının ağlını almışdı.

- Ay balam, toy görməmisiniz? Yıxılıb ölərsiz, hara gəldi dırmaşmayın, - yaşlı nəzarətçi qışqıraraq xəbərdarlıq etdi.

Kimsənin ona baş qoşmağa halı yox idi. Susmuşdular. Heç kim danışmırdı. Küçə tərəfdən nə isə görüb-görməyəcəklərindən asılı olmayaraq, «Vağzalı»ya qulaq asa-asa hərə öz aləmində, öz toy gününü düşünürdü: kimi xatirələrində, kimi də xəyallarında…

«Vağzalı» hamını kövrəltmişdi…

***

Zonda son günlər bir-birinin ardınca baş verən səsli-küylü hadisələr Zinyətə bəzən bətnində çoxalan ağrıları da unutdurmuş, adiləşdirmişdi. Günlər keçdikcə qarnında tərpənən canlının böyüməsi, sancılarının artması doğuş gününün yaxınlaşmasını göstərirdi. Həkimin hesablamasına görə doğum gününə həftədən çox qalırdı. Ancaq sancıların saatbasaat aramla kəskinləşməsindən, dünyaya gəlmək istəyən körpənin səbirsizliyi, deyilən vaxta qədər tab gətirməyəcəyi hiss olunurdu.

Gündüz ağrılara birtəhər tab gətirən Zinyət gecə sancıların əzabına dözə bilmədi. Naləsi göyə yüksəldi. Yenə qaçhaqaç düşdü. Harayı eşidənlər hövlnak özlərini yetirdilər Zinyətin yanına, hərə bildiyindən ona kömək etmək istəyirdi ki, çəkdiyi zülüm mümkün qədər yüngülləşsin.

Kömək üçün ixtisasca tibb bacısı olan, gecə vaxtlarında halı dəyişən məhkumlara lazım gələrsə ilk tibbi yardım göstərməyi bacaran Təravətin arxasınca getdilər. Yanına gələnlər ağızlarını açmamışdan, onların təngnəfəsliyindən məsələnin nə yerdə olduğunu başa düşən Təravət danışmağa imkan verməyib gileyləndi:

- Yenə ölən var? Xaraba ölüxanaya döndü ki…

- Yox, doğan var, - gələnlər gülümsəyib sözünü kəsdilər, - Zinyət deyəsən doğacaq, dur gedək, gör nə edirsən. Yazıqdı, əzab çəkir…

O, həmişə ürəyiyumşaqlığının cəzasını çəkməsinə baxmayaraq Allah verən xasiyyətini dəyişə bilmirdi. Narkotikanı sərhəddən keçirmək istəyən bacısının izlənildiyini başa düşüb ona kömək edən Təravət özünü də duran yerdə türməyə salmışdı. Ürəyiyananlığı nədənsə həmişə başına artıq iş açırdı. O, Zinyətin kimsəsizliyini xatırlayıb, yazığı gələrək arxasınca gələnlərlə Zinyətin barakına tələsdi. Təravət özünəməxsus müayinədən sonra vəziyyətin heç də asan olmadığını ətrafındakılara anladıb, necə var təcili yardım maşınının çağırılmasını vacib bildi:

- Mən görən iş deyil. Ölüb-eylər, günahı qalar üstümə. Azmı olub uşaq üstə ana rəhmətə getsin? Növbətçiyə deyin təcili yardım çağırtdırıb başı çıxan həkim gətirtsin.

Çoxları, o cümlədən Təravət də elə bilirdi ki, bu hamiləlik Zinyətin ilkidir. İlk hamiləliyin məsuliyyətini boynuna götürmək heç də asan iş deyildi. Vəziyyətdən xəbərdar olan növbətçi Təravətin təkidini nəzərə alıb yaxınlıqdakı doğum evlərindən birinə zəng vurub «təcili yardımın» göndərilməsini xahiş etdi.

İyirmi dəqiqə keçmədi, təcili yardım maşını gəldi. Mamaça da Təravətin sözlərini təkrarladı:

- Burada saxlamaq olmaz. Doğum şöbəsinə aparılmalıdır. Doğuş hər dəqiqə baş verə bilər.

Məhkumlar üçün nəzərdə tutulmuş xəstəxanada doğum şöbəsi fəaliyyət göstərmədiyindən Zinyəti çağrılan «təcili yardımla» mülki vətəndaşlara xidmət edən doğum evinə göndərmək məcburiyyəti alınırdı. Xəstə məhkuma vətəndaşlar arasında nəzarət etmək üçün iki nəfər nəzarətçi qadın ayrıldı. Onlar xəstə ilə birlikdə maşına əyləşdilər. Əlavə olaraq xəstənin doğum evinə bir nəfər zabitin müşayiət etməsi vəzifəsi həmin gecə müəssisədə məsul növbətçi qalan baş mühasib Asifə həvalə olundu. O, məhkumu doğum evinə təhvil verib müəssisəyə qayıdacaqdı.

Maşın yola düşəndə yaşlı nəzarətçilərdən biri üzünü Zinyətə tutub mühasibə söz atdı:

- Mühasibin növbəsində uşağın olsa, böyüyəndə əli pulla oynayacaq.

- Vallah, pul sarıdan bir söz deyə bilmərəm. Amma, baxarsız, mənim növbəm vaxtı olsa qız olacaq, oğlan olmayacaq.

Hamı gülüşdü. Çünki hamısı onun qız sarıdan yanıqlı olmasını, ard-ardınca üç qızının dünyaya gəlməsini bilirdi.

Baş müsahib Asifin sözü fal çıxdı, səhərə yaxın müəssisəyə Zinyətin qız doğması xəbəri çatdırıldı.

Zinyət qızının olduğunu bilən andan əvvəldən olmayan kefinə soğan doğranmışdı. Yenə qız?! Səkkiz gün dünyaya tez

gəlməsinə heç dəymirdi. Güman edirdi ki, iki qızdan sonra oğlu olar. Olmaya onun alnına təkcə qız anası olmaq yazılmış-dı? Doğrudur, qız ya oğlan, fərqi yoxdur, Allah payıdır. Təki haramzada olmasın. Elə onun özü kimi ailəyə üzüqaralıq gətir-məsin. Anası tapşırsa da, utandığından xəbər etmədi. Fikirləş-di ki, hər şey qurtarıb zona dönəndə xəbər göndərər. Lazım deyildi, olanlar azmış, anası doğum evində də, həkimin, tibb bacılarının qarşısında da sıxılsın, məhkum övladına görə daxili əzab çəksin.

Körpə balaca, arıq, çəlimsiz olsa da şirin idi. Gözləri eyniylə atasınınkı idi. Yaman çox ağlayırdı, elə bil tezliklə onu anasından ayıracaqlarını duymuşdu.

Zona qayıdan kimi Əzizə də məktub yazıb qızının olmasını xəbər verəcəkdi. Hərgah qız da olsa, yəqin Əziz çox sevinəcəkdi. Əgər oğlu olsaydı, əlbət, uçmağa qanad axtarardı. Neyləsin, əvvəlki qızların olmasında Arazı səbəbkar hesab edərdi. Əziz ki Araz deyildi. Kim bilir, bəlkə də günah özündə imiş. Allah bilən yaxşıdır. Onun işlərindən özündən başqa kimsə baş aça bilməz.

Deyirlər ki, atasına oxşayan qız xoşbəxt olar. Görəsən onun balasının taleyi necə olacaqdı! Nə yaxşı ki, dünyaya türmədə gəlmədi. Vaxtında, tez onu doğum evinə çatdırdılar. Türmədə doğulsaydı, adını Türmə qoyacaqdı. İndi atasına oxşadığını görəndən sonra ən yaxşısı adını da atasının adına uyğunlaşdırmaq idi: Əzizə. Baxmayaraq ki, Əzizə xoşbəxt-likdən türmə havası udmamışdı, tanış-biliş hamısı onu türmədə doğulan hesab edəcəkdilər. Hələ doğuma getməmişdən əvvəl başa salmışdılar ki, onu bir sutkadan sonra körpədən ayıra-caqlar. Körpəni uşaq evinə göndərəcəklər, özü isə müəssisəyə qaytarılıb tezliklə tikiş sexində işlə təmin ediləcəkdi. Əzizə ilə görüşü bir də cəzası qurtaranda baş tutacaqdı. Odur ki, tərəd-düd içərisində qalmışdı. Sonrakı günlərdə ayrılığa dözmək üçün qızcığıza isinişməmək istəsə də, bir yandan da balasını qucağından yerə qoymayıb acgözlüklə gülüşünü gözlərinə, körpə ətrini, ılıq hərarətini canına köçürməyə, hopdurmağa çalışırdı.

Əzizi sevdiyi gündən, xoşbəxt anlarla yanaşı, yalqızlığın da nə olduğunu dadmışdı. Bu sevgi ona əksərən tənhalıq bəxş etmişdi. Hər dəfə Əzizi itirəndə dünyada kimsəsizlikdən karıxmışdı. Qızı dünyaya gələnədək Əzizin nişanəsini varlığında hiss edib, bir müddət yalqızlığını unutmuşdu. Onu körpəsindən ayıranda təzədən kimsəsizliyinə, yalqızlığına qovuşacaqdı. Özü istəməsə belə məcbur edəcəkdilər...

Həyatı insan kimi yaşamaq, onu anlamaq qədər çətin idi. Düşünərkən heyrət edirdi ki, insan həyatının əsası qaranlıq qapalı ana bətnindən başlayırdı. Yeni əmələ gəlmiş vücud təcrid olunduğu yerdən işığa, azadlığa can atırdı. Ana baladan, bala da anadan azad olurdu. Bu azadlığa görə hamı anaya gözaydınlığı verərək, «gözün aydın, yükdən azad oldun» deyib, uşağa görə sevinir, şadlıq edirlər. Bir əzabdan qurtulub, onu gözləyən saysız-hesabsız digər əzabların duyğusundan ağlayan körpədən savayı. Bəlkə də o, Tanrı tərəfindən aldadıldığını başa düşüb etirazını bildirirdi.

Əslində, həbsxana da dünya içərisində öz qayda-qanunu olan kiçik, qapalı dünya idi, - Zinyət düşündü. Burada da insanlar azad olmaq eşqi ilə yaşayırdılar. Haqq yolundan dönən, bu qəlbən kimsəsiz və zəifləri isə şeytan azdırıb dörd divar arasına salmışdı. Sanki bura da cəmiyyətin cinayətlə təmasından yaranmış günahkarlarının saf-çürük edildiyi bətni idi. Yenidən normal həyata qayıdanı da var idi, «ölü doğulanı» da.

Kim necə düşünür düşünsün, onun nəzərində ayağının altı cənnət sayılan, ana kimi şərəfli ad daşıyan qadının türmədə cəza çəkməsinə heç cürə haqq qazandırmaq olmazdı. O, bəzən tək qalıb sakit başla, ürəyi ilə dərdləşəndə, iki qızından necə imtina etdiyini, istəmədən necə qardaş qatilinə dönməsini ağlına sığışdıra bilmirdi. Üç qız anası olsa da, nə özü cənnətlik idi, nə də ayağının altındakı yer. Etdiyi ağılsızlıq və günahlara görə hələlik Axirətin deyil, qonağı olduğu dünyanın cəza çəkilən vadisinə salınmışdı…

Bir sutka tamam oldu. Gün təzə başladığından hələ arxasınca gələn yox idi. Zabitlərdən kimsə gəlməli, nəzarətçilərin müşayiəti ilə cəza evinə qayıtmalıydı. Saatlar keçdikcə

ötən sutkanı növbə ilə onunla keçirən nəzarətçilər darıxsalar da Zinyət sevinir, körpəsi ilə birgə keçirdiyi dəqiqələrin uzanmasını istəyirdi. Heç ayrılmağı gəlmirdi.

Nəhayət, həmişəki kimi bu sevinci də uzun sürmədi. Nahardan iki saat sonra dəstə rəisi Nüşabə xanım taksidə tələşla arxasınca gəlmişdi. O, palataya daxil olan kimi nəzarətçilərdən tələsməyi tələb etdi. Nüşabə xanımın dediyinə görə, müəssisəyə nazirlikdən böyük yoxlama gəlmişdi. Təkcə rəisin yox, orda işləyən bütün əməkdaşların taleyi yoxlamanın nəticəsindən asılı idi. Əzizəni ondan ayıranda ehtiyatla qızının alnından, gözlərindən öpdü. Körpə yuxulu olduğundan ayılmadı. Üzünə gülüş yayılmışdı. Belə olanda ya mələklər onu güldürürlər, ya da atasını yuxuda görür deyirlər. Zinyəti isə qəhər boğduğundan yanaqları üzüaşağı diyirlənənən isti göz yaşları ara vermək bilmirdi. Könlündən dəlicəsinə hönkürmək keçirdi. Dişini-dişinə sıxıb ürəyini boşaltmağı gecəyə, barakda hamı yatana saxladı. Bu da fələyin bir oyunuydu. Üç gül kimi qızın ola, onların telini tumarlamağa belə həsrət qalasan. Olacağa çarə yoxmuş…

Zinyət palatadan çıxıb taksiyə tərəf yeridikcə boşalmış dünyada addımladığını hiss edirdi. Özünün özünə yazığı gəlirdi. O, yenə yalqız, kimsəsiz, tənha idi…

- Hara gedirik? – Taksi sürücüsü qabaqda oturan Nüşabə xanımdan soruşdu. Yerini rahatlayan dəstə rəisi adətinə uyğun tərzdə sürücüyə göstəriş verdi.

- Sür, qadın kaloniyasına!

Qadın kaloniyası… Zinyətin qulağındla ilişib qalan bu sözlər iki günə yaxın unutduğu Səbirəni, Mahirəni, Püstəni, Rahibəni – az qala hamını bir-bir gözünün önünə gətirib xatırlatdı: zamanında hərəsi bir evin, bir oğlanın arzusu olmuş, ailə sevincindən, uşaq qayğısından məhrum, qəlbən tənha, həyatdan küskün, cinayətə yuvarlanmış talesizlər yığnağı…

Haqq söz imiş: həyat o biri dünyaya hazırlıq üçün Tanrı qarşısında sınaq imtahanıdır. Heç demə, bu dünyanın cənnəti çöldəki azadlıqdır. O cənnətin qədrini bilməyənlər yerin «inkirminkiri» - polisin, müstəntiqin sorğu-sualından keçə bilməyəndə

cəhənnəmin «filialı» olan həbsxanaya göndərilirlərmiş. Və burada cismin oda-alova atılmasa da, ömrünün günləri yanıb kül olurdu…

Şəhərin enli küçələri ilə şütüyən avtomobil məhkumluq həyatının ardını davam etdirmək üçün onu anbaan qərib sakini olduğu talesiz qadınlar məskəninə yaxınlaşdırırdı.

Ağrılı olsa belə azadlıq deyilən məkanda yaşadığı qısa zamandan sonra yenə cəza evinə qayıtmaq heç ürəyindən deyildi. Əgər onu anlasaydılar balasından ayrılmamasını, qaytarılmamasını yalvarardı. Kim idi onu eşidən. Bəs qanun? Qanun tələb edirdi ki, cəza müddəti adlanan ağır, can çürüdən həyatı hələ neçə illər dözüb yaşamalıydı. Başına nələr gələcəkdi, nə günlər görəcəkdi, kim bilirdi. Kimə görə, nəyə görə səbr etməliydi? Bu vaxta qədər bir neçə dəfə canına qıymaq istəmişdisə balasının xatirinə yaşamağa məcbur idi. İndli onu da əlindən aldılar. Demək, daha o gərəksiz idi, bundan sonra balası onsuz da yaşayar. Necə ki, o biri iki balası onu unudaraq yaşayıb böyüyürdülər. Heç xatırlmasalar yaxşıdı. Gələcəkdə ağılları kəsəndə xatırlasalar onun varlığı balalarına utanc olacaqdı. Əksinə, ölərsə daim doyunca görmədikləri anasının səhvlərini bağışlayıb, xatirəsini əziz tutacaqdılar.

Bəs Əziz? Ondan yarı yolda əl çəksinmi? Başına gəlmiş bütün müsibətlər onunla xoşbəxtliyə can atmasına görə olmadımı? Sınmaq, qırılmaq, bədbəxtlik üçünmü çalışırmış? Sonuna qədər tab gətirməyə gücü çatmayacaqdısa, niyə həyatını hədər etmişdir?!

Amma bu günün sabahını kim bilir? İndi ayda-ildə bir dəfə Əziz çəkinə-çəkinə məktub yazırsa, kim zəmanət verə bilər ki, azadlığa çıxanadək əvvəlki sevgisini saxlayacaq, ona «türmədə yatmışın birisi» kimi baxmayacaqdı. Bəlkə də sevməyəcəkdi, olanlara ürəyində peşmançılıq çəkəcəkdi. Gəl ki, ölərsə, ömrünün son gününədək nakam sevgisini xatırlayıb sızlayacaqdı. İlahi, insanlar niyə ölümə belə pərəstiş edirlər. Diridən çox ölənin xatirəsinin əziz tuturlar! Şübhəsiz, boş, mənasız həyatdan ölüm şərəflidir. Qəlb ağrıdan bədbəxtlər məkanına, «nakam düşərgəyə» qayıtmaqdansa maşının qapısını

açıb, özünü hamar, geniş asfalta çırparaq öldürməklə bütün əzablardan, dərdlərdən birdəfəlik can qurtara bilərdi. O, nə yaxşı övlad olmamışdı, nə yaxşı ana, nə də ailə sahibi. Görünür, ola da bilməyəcəkdi... Belə mənasız həyatı yaşamaqdansa, yaşamamaq daha üstün idi...

Ürəyindən keçənləri düşünə-düşünə, ətrafına göz gəzdirib, sağ və solundakı nəzarətçilərə baxdı. Qapını açıb sürətlə şütüyən maşından yola atılmağa çalışsaydı, fikrindəkilərdən duyuq düşərdilər. Ya da qaçmaq istədiyini zənn edib əzabını artırardılar. Qəlbindəki sıxıntıdan qurtulmaq üçün nə edəcəyini bilmədi, Allahdan məmnuniyyətlə özünə ölüm dilədi. Ölmək, yaşadığı həyatın ürək üzən qeylü-qallarından canını birdəfəlik qurtarmaq... Qəfildən beyninə qeyri-adi fikir gəldi. Həmişə qəribə bir maraq və qorxu ilə baxdığı iri dəmir qapılı elektrik şkafı yadına düşdü. Sonunu düşünmədən qərarlaşdırdı: Kimsənin mane olmaması üçün gecə yarıyadək dözmək! Sonra da adi bir cəhdlə əbədi, nəhayətsiz azadlığa qovuşmaq...Bundan yaxşı heç nə ola bilməzdi!..

Maşın cəzaçəkmə müəssisəsinə çatanda düşündüklərini gizləməyə çalışan Zinyət içindəki təlatümdən yaşarmış gözlərini yummuşdu...Körpəsindən ayrılmış ananın kədərini duyub, yol boyu dinməyən dəstə rəisi və nəzarətçilər də ürəklərində onun halına acıyıb susurdular.

* * *

Səhər erkən Səbirənin tükürpədici qışqırığı zonu silkələdi. Yaşayış sahəsinin girəcəyindəki içərisində elektrik qoşucuları olan dəmir şkaflardan birinin qapısından cərəyanın şiddətindən yanıb qaralmış cəsəd sallanmışdı. Bu, gecənin bir aləmi hamının gözündən yayınıb barakdan yoxa çıxmış Zinyətin cəsədi idi.

Kimsənin gözləmədiyi faciə hamını – müəssisədəki yoxlamanı başa çatdırmayan müfəttişləri də sarsıtmışdı. Hətta bir-biriylə yola getməyən rəislə Mariya da aylardan bəri zonu çulğalamış umu-küsünü müvəqqəti də olsa unutmuşdular.

Faciənin təfərrüatı ilə bağlı bütün lazımi yerlərə, o cümlədən mərhumun anasına da xəbər göndərilmişdi.

Yer dünyasının əzablarına dözməyib azadlığına qovuşmuş Ziniyətin ruhu ləngimədən səmanın dərinliklərinə qeyb olmuşdu. Matəmə bürünmüş qadın düşərgəsində isə ovuclarını göylərə tərəf açıb onun ruhuna dualar oxuyurdular. Heç olmasa o biri dünyada xoşbəxt qadın taleyinə nəsib olması üçün…

**Oktyabr 2006**

**Pövşən Yerfi**
QADIN DÜŞƏRGƏSİ.

Formatı 60x90 1/16, Fiziki çap vərəqi -10
Tirajı - 500